RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 176 (9631) 18 avqust 2024-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan-Rusiya:

## çoxəsrlik tarixə malik iqtisadi əlaqələrin yeni istiqamətləri



Təqdirəlayiq haldır ki, bu iki ölkənin regionları arasında da əməkdaşlıq inkişaf edir. Cari ildə Stavropolda genişmiqyaslı Rusiya-Azərbaycan Regionlararası Forumu, müxtəlif regionlarda digər tədbirlər keçirilib. Artıq yüzlərlə Rusiya şirkətinin nümayəndəsi Azərbaycanla əməkdaşlıq imkanları ilə tanış olub. Məsələn, bu yaxınlarda Kirov rayonundan olan 9 iri istehsalat şirkətinin nümayəndələri Bakıya işgüzar səfərlər zamanı ixracın təşkilinə yönəlmiş onlarca görüş keçiriblər. Həmçinin Krasnoyarsk diyarının, Çuvaşiya, Novosibirsk və Ulyanovsk vilayətlərinin, Altay diyarının və Rusiyanın digər vilayətlərinin nümayəndələri Bakıda olub, Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə böyük maraq göstəriblər.

Azərbaycan-Rusiya münasibətlərindən danışarkən Prezident İlham Əliyevin bu il aprelin 22-də Rusiyaya işgüzar səfərini xatırlamamaq mümkün deyil. Moskvada Baykal-Amur Magistralının (BAM) 50 illik yubileyi münasibətilə keçirilən görüşdə BAM-ın istifadəyə verilməsində misilsiz xidmətləri olan Ulu Öndər Heydər Əliyevin xatirəsi ehtiramla anılmaqla Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin dününə və bu gününə də toxunuldu. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bildirdi ki, Rusiya-Azərbaycan əməkdaşlığının digər sahəsi bu gün BAM-ın miqyasına və tarixi əhəmiyyətinə uyğundur: "Söhbət "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişafından gedir. Əslində, o, Şimal dənizi marşrutunu Fars körfəzi ilə birləşdirir və ya demək olar ki, birləşdirə bilər və birləşdirməlidir".

Həmin vaxt səslənən bir fikri də xatırlatmaq yerinə düşərdi: "Əmtəə dövriyyəmiz artır: artıq 4 milyard dollardan da çoxdur. Dollar ekvivalentində desək, Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya investisiyası 6 milyarddır. Hökumətlərarası komissiya fəal işləyir. İqtisadiyyatın real sektorunda, kooperasiyada, infrastrukturda əməkdaşlığın bir çox maraqlı istiqamətləri var".

→ 5

## *İlham ƏLİYEV:* "Azərbaycan qardaş ölkəyə istənilən əlavə dəstəyi göstərməyə hazırdır"



Avqustun 17-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş vermiş meşə yanğınlarının qarşısının alınması üçün Azərbaycanın lazımi dəstəyi göstərməyə hazır olmasının yüksək qiymətləndirildiyini deyərək, yanğınların söndürülməsində məhz "BE-200ÇS" amfibiya tipli təyyarəyə ehtiyacın yarandığını vurğulayıb və bu təyyarənin Azərbaycandan Türkiyəyə göndərilməsi ilə bağlı qərara görə minnətdarlığını bildirib. Türkiyə Prezidenti bunu ölkələrimiz arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin növbəti təzahürü kimi dəyərləndirib.

"BE-200ÇS" amfibiya tipli təyyarənin qısa zamanda Türkiyəyə göndəriləcəyini deyən dövlətimizin başçısı vurğulayıb ki, yanğınların qarşısının alınması ilə bağlı Azərbaycan qardaş ölkəyə istənilən əlavə dəstəyi göstərməyə hazırdır.

Dövlət başçıları Azərbaycanın və Türkiyənin hər zaman bir-birinin yanında olduqlarını, bir-birini daim dəstəklədiklərini qeyd ediblər.

Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## "Azərbaycan İndoneziya ilə münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət verir"

İndoneziya Respublikasının Prezidenti
zati-aliləri cənab Coko Vidodoya

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Azərbaycan İndoneziya ilə münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət verir. Ölkələrimiz arasında formalaşmış dostluq münasibətləri bir sıra istiqamətlər üzrə əməkdaşlığımız üçün əlverişli imkanlar açmışdır. "ASAN xidmət" modelinin ölkənizdə uğurla tətbiqi və bu sahədə fəal əməkdaşlığımız məmnunluq doğurur.

İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan-İndoneziya əlaqələri, ikitərəfli qaydada və çoxtərəfli müstəvilərdə birgə fəaliyyətimiz, o cümlədən Bakıda təşkil ediləcək COP29 çərçivəsində əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İndoneziya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2024-cü il*

## Qarabağ cəlbedici turizm məkanına çevrilir

Azərbaycan dövlətinin həyata keçirdiyi geniş quruculuq-bərpa işləri nəticəsində işğaldan azad olunmuş ərazilərdə həyat gündən-günə canlanır. Təkcə bir misal gətirək ki, hətta bu gün Şuşaya ayaq basan insanlar inana bilmir ki, cəmi bir neçə il əvvəl bu şəhər xarabalıq olub. Mədəniyyət paytaxtımızda görülən kompleks işlərin nəticəsində şəhərdə, demək olar ki, hər yan abadlaşıb, Şuşa əvvəlkindən də möhtəşəm şəhərə çevrilir və gələn qonaqlarını heyran edir. Hər gün zəfər qalamızı yüzlərlə insan ziyarət edir və bu səbəbdən də Şuşanın məscidləri, tarixi, gəzməli-görməli yerləri, küçələri, hotelləri insanlarla dolub-daşır. Özü də təkcə azərbaycanlılar deyil, əcnəbi qonaqlar da böyük maraq və istəklə qədim şəhərimizə üz tuturlar.

→ 8



## ABŞ Cənubi Qafqazda gərginliyi artırmağa çalışır

ABŞ-nin Ermənistanla birgə hərbi təlimlər keçirdiyini, onun ordusunu NATO standartlarına uyğunlaşdırmağa çalışdığını, bu ölkənin müdafiə nazirliyində onun öz nümayəndələrini təyin etdiyini qeyd edən deputat Vaşinqtonun Zvartnos hava limanına 2 təyyarə silah və hərbi texnika göndərdiyini də xatırladıb. Bu təyyarələr yalnız müşahidə olunandır, amma gizli yollarla da silahların daşınması da məlumdur. O cümlədən ABŞ ordusunda xidmət edən erməni əsilli hərbçilərdən ibarət bir kontingentin Ermənistana göndərilməsi də real faktdır.

Ermənistan ABŞ-nin dəstəyinə arxayınlaşaraq sülhlə bağlı gündəliyi uzatmağa, hətta danışıqlar prosesindən yayınmağa çalışır: "Yığılan silahlar bir gün işlədilir, onlar anbarlarda saxlamaq üçün gətirilmir. Bu, Amerikanın Ermənistanda mövcudluğunu təmin etməyin göstəricisidir. ABŞ-nin Ermənistanı silahlandırması regionda yeni gərginlik ocağını yaratmaq məqsədlərinə xidmət edir. Dünyada elə bir ölkə yoxdur ki, ABŞ-nin orada hərbi mövcudluğu ona sülh gətirsin".

→ 6

## Azərbaycan on minlərlə qonağı layiqincə qarşılayacaq

Dünyanın diqqət mərkəzində olan COP29-a hazırlıq işləri ölkəmizdə böyük vüsət alıb. Artıq paytaxtın hansı istiqamətinə nəzər salsaq, mötəbər tədbirə hazırlıq işlərinin həyata keçirildiyini görərik. COP29-un minlərlə iştirakçısı olacaq. Bakı noyabr ayında bu beynəlxalq tədbirlə bağlı gələcək qonaqlarını da hər zaman olduğu kimi layiqincə qarşılayacaq.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev avqustun 16-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin altıncı iclasında Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29-a hazırlıq prosesinin bütün istiqamətlərdə davam etdiyini vurğuladı.

→ 7



## "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il iyulun 11-də İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2024-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il iyulun 11-də İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2024-cü il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında elmi və texnoloji əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il iyulun 11-də İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında elmi və texnoloji əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2024-cü il*

## "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il iyulun 11-də İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Pakistan İslam Respublikasının Hüquq və Ədliyyə Nazirliyi arasında Əməkdaşlıq Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Əməkdaşlıq Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Əməkdaşlıq Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2024-cü il*

## "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının İnformasiya Texnologiyaları və Telekommunikasiya Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il iyulun 11-də İslamabad şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının İnformasiya Texnologiyaları və Telekommunikasiya Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2024-cü il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu, 11-ci, 13-cü, 15-ci və 25-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365; Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1135-VIQD nömrəli, 23 aprel tarixli 1141-VIQD nömrəli və 21 may tarixli 1157-VIQD nömrəli qanunları) 164.1.19-cu maddəsi aşağıdakı redaksiyada verilsin:

"164.1.19. müdafiə təyinatlı məmulatların (döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatlarının, partlayıcı maddə və qurğuların, onların dəstləşdirici hissələrinin) layihələndirilməsi, istehsalı, satışı, təmiri və onlara texniki xidmət göstərilməsi fəaliyyətini həyata keçirən şəxslər tərəfindən bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin, materialların və xammalın idxalı, habelə həmin şəxslər tərəfindən istehsal edilmiş müdafiə təyinatlı məmulatların satışı, təmiri və onlara texniki xidmət göstərilməsi;".

**Maddə 2.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16; Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 22.0.40-cı və 22.0.41-ci maddələr əlavə edilsin:

| | |
|---|---|
| 22.0.40. Döyüş təyinatlı hərbi texnikanın və hərbi silahın: | |
| 22.0.40.1. layihələndirilməsi | 10000 manat |
| 22.0.40.2. istehsalı və sınaqdan keçirilməsi | 50000 manat |
| 22.0.40.3. quraşdırılması, montajı, təmiri və texniki xidmət göstərilməsi | 12500 manat |
| 22.0.40.4. saxlanılması | 12500 manat |
| 22.0.40.5. utilizasiyası | 10000 manat |
| 22.0.41. Döyüş sursatının: | |
| 22.0.41.1. layihələndirilməsi | 10000 manat |
| 22.0.41.2. istehsalı və sınaqdan keçirilməsi | 50000 manat |
| 22.0.41.3. təmiri və texniki xidmət göstərilməsi | 12500 manat |
| 22.0.41.4. saxlanılması | 12500 manat |
| 22.0.41.5. utilizasiyası | 10000 manat |

**Maddə 3.** "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 55(Cild I); Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"1. Döyüş təyinatlı hərbi texnika və hərbi silah (satışı, idxalı və ixracı istisna olmaqla).";

3.2. aşağıdakı məzmunda 1-1-ci maddə əlavə edilsin:

"1-1. Döyüş sursatı (satışı, idxalı və ixracı istisna olmaqla).";

3.3. 2-ci maddədə "Qanunla" sözü "Bu Qanunun 1-ci maddəsində nəzərdə tutulmayan və qanunla" sözləri ilə, "və döyüş sursatı" sözləri ", onların sursatları" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 56 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci və 2-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"1. Hərbi silah və sursatın layihələndirilməsi və istehsalı üçün avadanlıq, hərbi silah və sursatın ehtiyat hissələri.

2. Döyüş təyinatlı hərbi texnikanın layihələndirilməsi və istehsalı üçün avadanlıq, döyüş təyinatlı hərbi texnikanın ehtiyat hissələri.";

4.2. aşağıdakı məzmunda 1-1-ci və 2-1-ci maddələr əlavə edilsin:

"1-1. Döyüş təyinatlı hərbi texnika və hərbi silah (satışına, idxalına və ixracına münasibətdə).";

"2-1. Döyüş sursatı (satışına, idxalına və ixracına münasibətdə).".

**Maddə 5.** "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 779 (Cild I); 2024, № 4, maddə 365; Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1135-VIQD nömrəli Qanunu) 20.0.28-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"20.0.28. müdafiə təyinatlı məmulatların (döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatlarının, partlayıcı maddə və qurğuların, onların dəstləşdirici hissələrinin) layihələndirilməsi, istehsalı, satışı, təmiri və onlara texniki xidmət göstərilməsi fəaliyyətini həyata keçirən şəxslər tərəfindən bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin, materialların və xammalın idxalı.".

**Maddə 6.** "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 23 aprel tarixli 1142-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 4.4-cü maddədən ", 2" rəqəmi çıxarılsın;

6.2. həmin Qanunun 2 nömrəli əlavəsinə aşağıdakı məzmunda 6-cı, 7-ci maddələr və Qeyd hissəsi əlavə edilsin:

| | |
|---|---|
| 6. | Döyüş təyinatlı hərbi texnikanın və hərbi silahın: |
| 6.1. | layihələndirilməsi |
| 6.2. | istehsalı və sınaqdan keçirilməsi |
| 6.3. | quraşdırılması, montajı, təmiri və texniki xidmət göstərilməsi |
| 6.4. | saxlanılması |
| 6.5. | utilizasiyası |
| 7. | Döyüş sursatının: |
| 7.1. | layihələndirilməsi |
| 7.2. | istehsalı və sınaqdan keçirilməsi |
| 7.3. | təmiri və texniki xidmət göstərilməsi |
| 7.4. | saxlanılması |
| 7.5. | utilizasiyası |

**Qeyd:** Bu Siyahının 6-cı və 7-ci maddələrində nəzərdə tutulan fəaliyyət növləri üzrə lisenziya alınması tələbinin şamil olunmadığı paylarının (səhmlərinin) 100 faizi dövlətə məxsus olan hüquqi şəxslərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 iyun 2024-cü il*

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1192-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1192-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.19-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 164.1.19-cu maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur;

1.3. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun 20.0.28-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 20.0.28-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi nəzərdə tutulur;

1.5. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 2 nömrəli əlavəsinin "Qeyd" hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 2 nömrəli əlavəsinin "Qeyd" hissəsinə uyğun olaraq, həmin əlavənin 6-cı və 7-ci maddələrində nəzərdə tutulan fəaliyyət növləri üzrə lisenziya alınması tələbinin şamil olunmadığı paylarının (səhmlərinin) 100 faizi dövlətə məxsus olan hüquqi şəxslərin siyahısını dörd ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.2. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1192-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasında bəzi sahibkarlıq fəaliyyəti növlərinə lisenziya verilməsinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 28 mart tarixli 310 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 176 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü hissənin ikinci abzası ləğv edilsin;

3.2. aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatının Azərbaycan Respublikasının ərazisində satın alınması yalnız Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanları, həmçinin müdafiə təyinatlı məhsulların istehsalını və təmirini tamamlamaq məqsədilə müvafiq fəaliyyət növləri üçün lisenziya almış və ya lisenziya alınması tələbinin şamil olunmadığı hüquqi şəxslər tərəfindən həyata keçirilir. Həmin orqanlar və hüquqi şəxslər tərəfindən döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatının Azərbaycan Respublikasının ərazisində satınalma müqavilələri barədə məlumat bu müqavilələr bağlanıldığı vaxtdan bir ay müddətində Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyinə verilir.".

4. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 798 (Cild I) ilə təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1-ci və 2-ci hissələr aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 1. | Hərbi silah və sursatın layihələndirilməsi və istehsalı üçün avadanlıq, hərbi silah və sursatın ehtiyat hissələri | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi |
| 2. | Döyüş təyinatlı hərbi texnikanın layihələndirilməsi və istehsalı üçün avadanlıq, döyüş təyinatlı hərbi texnikanın ehtiyat hissələri | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi |

4.2. aşağıdakı məzmunda 1-1-ci və 2-1-ci hissələr əlavə edilsin:

| | | |
|---|---|---|
| 1-1. | Döyüş təyinatlı hərbi texnika və hərbi silah (satışına, idxalına və ixracına münasibətdə) | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (ixracına münasibətdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəyi nəzərə alınmaqla) |
| 2-1. | Döyüş sursatı (satışına,idxalına və ixracına münasibətdə) | Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi (ixracına münasibətdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəyi nəzərə alınmaqla) |

4.3. "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

**"Qeyd:**

1. Bu Siyahının 3-cü, 6-cı, 8-ci və 9-cu hissələrində göstərilən əşyaların idxal-ixrac əməliyyatları, habelə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanları tərəfindən bu Siyahının 1-ci, 1-1-ci, 2-ci və 2-1-ci hissələrində göstərilən əşyaların idxal-ixrac əməliyyatları Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın 7-ci hissəsinə əsasən, müstəsna olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamları əsasında həyata keçirilir.

2. Bu Siyahının 1-ci, 1-1-ci, 2-ci və 2-1-ci hissələrində göstərilən əşyaların idxal-ixrac əməliyyatları üçün bu Siyahı ilə müəyyən edilən mərkəzi icra hakimiyyəti orqanlarından xüsusi icazənin, habelə rəyin alınması tələbi Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə və hərbi xidmət nəzərdə tutulan digər dövlət orqanlarına şamil edilmir.".

5. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 671 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.2-ci bəndə "3 nömrəli" sözlərindən əvvəl "2 nömrəli əlavəsinin "Qeyd" hissəsində," sözləri əlavə edilsin;

5.2. 2.3.5-ci yarımbənddən "həyata keçirir" sözləri çıxarılsın;

5.3. aşağıdakı məzmunda 2.3.6-cı yarımbənd əlavə edilsin:

"2.3.6. həmin Qanunun 2 nömrəli əlavəsinin 6-cı və 7-ci maddələrində nəzərdə tutulmuş lisenziya tələb olunan fəaliyyət növləri üzrə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi həyata keçirir;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2024-cü il*

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqların yerinə yetirilməsində fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**3-cü dərəcəli "Rəşadət" ordeni ilə**

Abdullayev Cavid Mirhəmzə oğlu - general-leytenant
Musayev Elşad Nadir oğlu - polkovnik

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Məmmədov Faiq Həmzəağa oğlu - general-mayor

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Cəbrayılov Rahil Ağacəfər oğlu - polkovnik
Paşayev Emin Rauf oğlu - polkovnik
Şərifova Maya Kərəm qızı - polkovnik
Əliyev Rüfət Fizuli oğlu - gizir (ölümündən sonra)

**"Vətən uğrunda" medalı ilə**

Əhmədov Zaur Bəhlul oğlu - 1-ci dərəcəli kapitan
Məmmədov Pərviz Şakir oğlu - 1-ci dərəcəli kapitan
Muradova Pərvanə Şamil qızı - polkovnik
Məmmədov Samir Əmirxan oğlu - polkovnik-leytenant
Abbasova Xəyalə Kamil qızı - mayor
Baxışlı Baxış Elşən oğlu - mayor (ölümündən sonra)
Əliyev Sədi Sadil oğlu - mayor
Bəşirov Turxan Ərəstun oğlu - kapitan
Cəfərov Məhəmməd Əmiraslan oğlu - kapitan

**"İgidliyə görə" medalı ilə**

Hüseynov Zakir Əmir oğlu - polkovnik
Əmirov Vüsal Cəbrayıl oğlu - 2-ci dərəcəli kapitan
Quliyev Ramil Heydər oğlu - polkovnik-leytenant
Babayev Bəxtiyar Səyavuş oğlu - kapitan-leytenant
Fazilzadə Fazil Məhərrəm oğlu - kapitan-leytenant
Şirinov Əşrəf Namiq oğlu - baş leytenant

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Cabbarov Bəxtibar Səyyaf oğlu - polkovnik
Məmmədov Zəka Nazim oğlu - 1-ci dərəcəli kapitan
Salamov Samir Akif oğlu - polkovnik
Abbasov Murad Abbas oğlu - polkovnik-leytenant
Abdullayev Xanlar Tofiq oğlu - 2-ci dərəcəli kapitan
Allahverdiyev Fikrət Kərəm oğlu - polkovnik-leytenant
Allahverdiyev Fikrət Məmməd oğlu - polkovnik-leytenant
Həsənov Samir Həsən oğlu - polkovnik-leytenant
Hüseynov İlqar Əslan oğlu - polkovnik-leytenant
İmanov Turxan Mamed oğlu - polkovnik-leytenant
Quliyev Mehman Nizaməddin oğlu - polkovnik-leytenant
Məmmədov Samir Güləhməd oğlu - polkovnik-leytenant
Müseyibov Hafiz Zakir oğlu - polkovnik-leytenant
Rzayev Elvin Vahid oğlu - polkovnik-leytenant
Salamov Zaur Rəhman oğlu - 2-ci dərəcəli kapitan
Veyisov Mehdi Hüseyn oğlu - polkovnik-leytenant
Abbaszadə Zəka Vəli oğlu - mayor
Abdulov Yaşar Kazım oğlu - mayor
Ağayev Muxtar Sənan oğlu - mayor
Baxışov Rahib Nüşrəvan oğlu - 3-cü dərəcəli kapitan
Əliyev Fərid Fəzayıl oğlu - mayor
İsmayılov Afiq Nadir oğlu - 3-cü dərəcəli kapitan
Məmmədova Günay Xaliq qızı - mayor
Mirzəyev Amil Habil oğlu - mayor
Muxtarov Elnur Eynullah oğlu - mayor
Mustafayev Allahverdi Cəlil oğlu - mayor
Nağızadə Elnur Fətulla oğlu - mayor
Nəbiyev Samir Ağanəbi oğlu - mayor
Nəcəfov Cəlal Qüdrət oğlu - mayor
Nəcəfzadə Ramiq Elçin oğlu - mayor
Sadıqov Şahin Mustafa oğlu - mayor
Sadıqov Teymuraz Surxay oğlu - mayor
Şahbazov Ülvi Sakit oğlu - mayor
Şirəliyev Rəşad Yaşar oğlu - mayor
Şirinzadə Emin Firuz oğlu - mayor
Altınbəyov Fuad Ənvəroviç - kapitan
Babayev Xalid Sərdar oğlu - kapitan
Bayramov Şəhriyar Azər oğlu - kapitan
Behbudov Anar Eyvaz oğlu - kapitan
Cəfərli Orxan Niyazi oğlu - kapitan
Cəfərov Sərxan İbrahim oğlu - kapitan
Dadaşova Gültac Vahid qızı - kapitan
Əhədov Zamiq Nazim oğlu - kapitan
Əhmədov Rauf Məmməd oğlu - kapitan
Əlicanlı Vahid Ələddin oğlu - kapitan
Əliyev Murtuzəli Mustafa oğlu - kapitan
Fərhadova Yeganə Ziyad qızı - kapitan
Hüseynli Orxan Elman oğlu - kapitan-leytenant
Hüseynov Şəmistan Şahlar oğlu - kapitan
Xəlilov Ülvi Səməd oğlu - kapitan
Məmmədov Elsevər Ağaverdi oğlu - kapitan
Mövlayev Anar Ələkbər oğlu - kapitan
Muradov Bəhruz Novruz oğlu - kapitan
Süleymanov Fərhad Mahir oğlu - kapitan
Vaqifli Eltun Aydın oğlu - kapitan
Zeynalov Orxan Bəhrəm oğlu - kapitan
Alıyev Rəşad Vəli oğlu - baş leytenant
Aslanov Rüstəm Mirzə oğlu - baş leytenant
Bağırov Alçın Bayram oğlu - baş leytenant
Daşdəmirov Orxan Əmircan oğlu - baş leytenant
Əliyev Firal Hafis oğlu - baş leytenant
Əmiraslanov Elmar Emin oğlu - baş leytenant
Həsənov Ramin Vahid oğlu - baş leytenant
Hüseynli Faiq Bilal oğlu - baş leytenant
Hüseynli Vahid Hüseynqulu oğlu - baş leytenant
Qəhriyev Yaşar Şadət oğlu - baş leytenant
Qubadov Asiman Nuru oğlu - baş leytenant
Quliyev Asim Bahadır oğlu - baş leytenant
Quliyev Camal Tarzan oğlu - baş leytenant
Qurbanov Orxan Yaşar oğlu - baş leytenant
Mədətli Təbriz Araz oğlu - baş leytenant
Məmmədov Amil Rafiq oğlu - baş leytenant
Məmmədov Ramin Həbib oğlu - baş leytenant
Məmmədzadə Vüsal Qabil oğlu - baş leytenant
Musayev Xəzər Azər oğlu - baş leytenant
Nəsirov Cabbar Etibar oğlu - baş leytenant
Rəsulov Hüseyn Rəsul oğlu - baş leytenant
Tağıyev Tacəddin Qəhrəman oğlu - baş leytenant
Tağızadə Əflatun Nurəddin oğlu - baş leytenant
Vəliyev Zamin Şirəhməd oğlu - baş leytenant
Əkbərov Fərid Namiq oğlu - leytenant
Abişov Sadiq Əlman oğlu - baş gizir
Cəfərov Vüsal Fizuli oğlu - baş gizir
Əsgərova Sevda Rasif qızı - baş gizir
Mustafayev Elman Səməd oğlu - baş gizir
Naqiyev Nicat Yusub oğlu - baş gizir
Sadiqov Pərvin Hüseyn oğlu - baş gizir
Ağayev Əziz Mürsəl oğlu - gizir
Xəlilov Elşən Azadxan oğlu - gizir
İsmayılov İsmayıl Fazil oğlu - gizir
Qəssəbov Aşqın Şahmar oğlu - gizir
Məcidov Rauf Ramiz oğlu - gizir
Mikayıllı Pənah Maqsud oğlu - gizir
Səfərov Elvin Səfiyar oğlu - gizir
Səmədov Həmid Bilman oğlu - gizir
Şahpələngov Elnur Şahabbas oğlu - gizir
Vəliyev Cavid Zubeyir oğlu - gizir
Kazımzadə Tural Əzizağa oğlu - baş çavuş
Nağıyev Əli Elşən oğlu - əsgər (ölümündən sonra).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2024-cü il*

## DSX rəhbərliyi Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Azərbaycan Sərhəd Mühafizəsinin 105 illik yubileyi ərəfəsində - avqustun 17-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini dərin hörmətlə yad edib, məzarı önünə gül dəstələri qoyub.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildirilib ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla anılıb. Şəhidlər xiyabanında Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda edən Vətən övladlarının da xatirəsi yad olunub, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub. Həmçinin ilk sərhədçi Milli Qəhrəman Eldar Harun oğlu Məmmədovun məzarı ziyarət edilib.

## Fərid Qayıbov "Gənc idman liderləri" proqramının iştirakçıları ilə görüşüb

**Gənclər və idman naziri Fərid Qayıbov "İdman Paytaxtı" Quba şəhərində "Gənc idman liderləri" proqramının iştirakçıları ilə görüşüb. Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Quba İstirahət, İdman, Təlim və Tədris Kompleksində keçirilən görüşdə proqram çərçivəsində "Gənclərin liderlik, idarəetmə və effektivlik simulyasiyası" təşkil edilib.**

Tədbirdə 15 universiteti təmsil edən 30-dan çox gənc, eləcə də idman səfirləri, Azərbaycan İdman Akademiyasının prorektorları iştirak ediblər. Gənclər "Beynəlxalq idman diplomatiyası: Qlobal sülh və inkişaf üçün idmanın rolu", idman tədbirlərinin və idman diplomatiyasının ölkələrarası münasibətlərə təsiri, konfliktlərin azaldılması və qlobal inkişaf məqsədləri barədə çıxışlar hazırlayıb, müzakirələr aparıblar.



Layihənin məqsədi gənclər arasında idman sahəsi üzrə maarifləndirmə aparılması, onların natiqlik, əsaslandırma, təqdimat sahəsində biliklərini artırmaq, idman vasitəsilə komanda işi, liderlik və əzmkarlıq kimi əsas bacarıqlarını inkişaf etdirməkdir.

Avqustun 18-dək davam edəcək layihə çərçivəsində idman liderliyi, komanda quruculuğu üzrə təlim sessiyaları, enercayzerlər, qrup müzakirələri, rol oyunları, simulyativ xarakterli iclaslar keçiriləcək.

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçularına "general-mayor" ali hərbi rütbəsi verilsin:

polkovnik Bəhmən Rza oğlu Babayevə
polkovnik Əyyub Vəli oğlu Məmmədova
polkovnik Nəsib Tahir oğlu Mirzəyevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2024-cü il*

## Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq Türkiyədəki meşə yanğınları ilə əlaqədar FHN-in təyyarəsi qardaş ölkəyə yola salınacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyə Respublikasında baş vermiş güclü meşə yanğınları ilə mübarizədə qardaş ölkəyə köməklik məqsədilə Fövqəladə Hallar Nazirliyinin (FHN) müvafiq yanğın-xilasetmə qüvvələri hazırlıq vəziyyətinə gətirilib. Bu barədə AZƏRTAC-a FHN-in Mətbuat xidmətindən məlumat verilib.**

İlkin olaraq FHN-in Aviasiya dəstəsinin "BE-200ÇS" tipli amfibiya təyyarəsi yanğınsöndürmə əməliyyatlarına dəstək göstərilməsi məqsədilə Türkiyəyə yola salınacaq.

Bundan əlavə, Türkiyə Respublikasının müvafiq qurumu ilə aparılan müzakirələrdə qardaş ölkəyə köməklik məqsədilə göndərilməsi üçün Fövqəladə Hallar Nazirliyinin şəxsi heyətinin tam hazır olduğu diqqətə çatdırılıb, lakin qarşı tərəf hazırkı mərhələdə yalnız təyyarənin göndərilməsinin kifayət etdiyini bildirib. Hazırda amfibiya təyyarəsinin yola salınması üçün hazırlıq işləri görülür.

## Bakıda İndoneziyanın Müstəqillik Günü qeyd olunub

**İndoneziyanın Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin elan olunmasının 79-cu ildönümü ilə əlaqədar tədbir təşkil edib.**

AZƏRTAC xəbər verir ki, tədbir indoneziyalılar tərəfindən "Indonesia Raya" Dövlət Himninin səsləndirilməsi və "Bayraq qaldırma mərasimi" ilə başlayıb.

Sonra 1945-ci ildə İndoneziyanın müstəqilliyinə nail olmaq üçün böyük fədakarlıq göstərmiş qəhrəmanların xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə səfirliyin əməkdaşları, İndoneziya diasporunun üzvləri, Azərbaycandakı İndoneziya vətəndaşları da iştirak ediblər.







Həmçinin İndoneziyanın 79-cu Müstəqillik Günü çərçivəsində 2024-cü ilin iyul ayı ərzində keçirilən ənənəvi İndoneziya oyunlarının qalibləri üçün mükafatlandırma mərasimi baş tutub.

Tədbirdə İndoneziya mətbəxinin müxtəlif təamları və ənənəvi qəlyanaltıları qonaqlara təqdim edilib.

Qeyd edək ki, tədbir hökumətin bütün ölkə üzrə davamlı inkişaf və bərabərliyi təşviq edən, həmçinin yeni paytaxtı inkişaf etdirmək vizyonunu vurğulayan İndoneziyanın 79-cu Müstəqillik Gününün "Yeni Nusantara, Mütərəqqi İndoneziya" şüarının ruhunu əks etdirir.

İştirakçıların əksəriyyəti mərasimə İndoneziyanın ənənəvi geyimlərində qatılıblar. Mərasim xalqın və ölkənin rifahı, tərəqqisi üçün duaların oxunması ilə başa çatıb.



MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI

# Seçki prosesində aşkarlıq institutlarının və veb-kameraların rolu

**2024-cü il sentyabrın 1-də ilk dəfə ölkəmizin bütün suveren ərazilərində Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Əvvəlki illərdə keçirilən seçkilərdə olduğu kimi, bu seçkilərdə də aşkarlıq institutlarına hərtərəfli geniş imkanlar yaradılması və şəffaflığın təmin olunması əsas prioritet məsələlərdəndir.**

Mərkəzi Seçki Komissiyasının (MSK) Milli Məclisə seçkilərlə əlaqədar ardıcıl və sistemli şəkildə reallaşdırdığı çoxsaylı irimiqyaslı layihələrin böyük bir qismi məhz seçki prosesində aşkarlığın və şəffaflığın yüksək səviyyədə təmin olunmasına hədəflənib. Seçkilərin geniş aşkarlıq mühitində şəffaf keçirilməsi üçün müxtəlif metod və qaydalardan, habelə fərqli müşahidə formalarından istifadə olunur. Yerli və beynəlxalq müşahidəçilərin, media mənsublarının proseslərdə yaxından iştirakı, beynəlxalq metod kimi tətbiq olunan "exit-poll" keçirilməsi, seçki komissiyalarının şəffaf fəaliyyəti, o cümlədən qaynar xətt, internet resursları və artıq 16 ildir ki, respublikamızda uğurla gerçəkləşdirilən veb-kamera təcrübəsi şəffaflığın təmin edilməsində olduqca mühüm rol oynayır. Bütün bunlar seçki prosesini əvvəldən axıradək izləməyə, geniş və hərtərəfli müşahidə aparmağa və nəhayət, aşkarlığın daha dolğun təminatına şərait yaradır.

Azərbaycanda keçirilən seçkilər daim çoxsaylı yerli və beynəlxalq müşahidəçilərin, eləcə də yerli və beynəlxalq media subyektləri nümayəndələrinin iştirakı ilə xarakterizə olunur. Seçkiləri izləmək üçün kifayət qədər sadə və operativ həyata keçirilən prosedurlar, proseslərin il-bəil daha da təkmilləşdirilməsi və informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin uğurla tətbiqi şəffaflıq üçün ən yüksək səviyyədə ortaya qoyulmuş siyasi iradənin bariz nümunələridir.

Aşkarlıq institutunun əsas formalarından olan müşahidəçilik fəaliyyəti ictimaiyyətin xüsusilə önəm verdiyi qarşılıqlı nəzarət funksiyasıdır. Məmnuniyyətlə vurğulamaq olar ki, Azərbaycan müşahidəçilərin akkreditasiyasına dair Seçki Məcəlləsində nəzərdə tutulan prosedurlar baxımından öz sadəliyinə və rahatlığına görə nümunədir. Öz mütərəqqiliyi ilə diqqət çəkən seçki qanunvericiliyi istər yerli, istərsə də beynəlxalq müşahidəçilərin seçkilərdə iştirakı və fəaliyyəti üçün geniş imkanlar yaradır.

Seçki Məcəlləsi həmçinin keyfiyyətli, obyektiv və qərəzsiz müşahidənin aparılması üçün konkret prinsiplər də müəyyən edir. Bu prinsiplər birbaşa seçki prosesinin müşahidəsinin effektivliyini yüksəltməyə, seçki praktikasının təkmilləşdirilməsinə və vətəndaşların konstitusion hüquqlarının daha səmərəli realizə olunmasına xidmət edir: seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməli, müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalı, müşahidə açıq aparılmalı və müşahidənin yekunları faktlara əsaslanmalıdır.

Milli Məclisə seçkilərdə proseslərin müşahidəsi bir qayda olaraq müşahidəçinin öz təşəbbüsü ilə və ya qeydə alınmış namizədin, namizədi qeydə alınmış siyasi partiyanın, eyni zamanda seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında aparılır. Seçki komissiyalarının iclaslarında, seçki sənədləri və səslərin hesablanması ilə əlaqədar işin gedişində media mənsublarının da eynilə iştirak etmək hüququ vardır. Ölkənin bütün ərazisində müşahidənin aparılmasına dair ərizə seçkilərin elan edildiyi gündən başlayaraq, seçkilərin keçirilməsinə 10 gün qalanadək MSK-ya təqdim edilir. Ərizədə müşahidə aparmaq niyyətində olan şəxsin soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, zərurət olduqda isə həm də maraqları təmsil olunacaq namizədin adı, qeyri-hökumət təşkilatının, siyasi partiyanın, adı və hüquqi ünvanı göstərilir. İki fotoşəkil də əlavə olunan hər bir ərizəyə dair qərar onun verildiyi tarixdən başlayaraq 3 gün müddətində qəbul edilir. Ərizəçinin müşahidəçi qismində qeydiyyatından imtina olunması halı yalnız ərizədə göstərilən məlumatlar yanlış olduqda baş verə bilər. Müşahidənin aparılmasına icazə verildikdə müşahidəçiyə MSK-nın müəyyən etdiyi formada lövhəcik verilir. Bu məqamda məmnuniyyətlə vurğulamaq yerinə düşər ki, Azərbaycanda keçirilən seçkilərdə müşahidəçilik üçün müraciətlər daim müsbət qarşılanır və müşahidəçiliklə bağlı imtinaya rast gəlinmir.

Seçki dairəsinin ərazisində müşahidənin aparılmasına dair ərizə isə seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək müvafiq dairə seçki komissiyasına təqdim edilməlidir. Bu ərizədə də yuxarıda qeyd edilən məlumatlar göstərilməli və ərizəyə iki fotoşəkil əlavə olunmalıdır. Müşahidənin aparılmasına icazə verildikdə dairə seçki komissiyası müşahidəçiyə MSK-nın müəyyən etdiyi formada lövhəcik təqdim edir.

Müşahidə seçkilər elan olunduğu gündən başlanır və müvafiq məhkəmələrdə seçkilərlə əlaqədar bütün mübahisələrə baxıldıqdan sonra seçkilərin yekunlarının rəsmi dərc edildiyi gün bitir. Yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdir və eyni vəzifələr daşıyırlar. Onların seçici siyahıları ilə tanış olmaq, səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsində olmaq, seçki bülletenlərinin verilməsini, səsvermə yerindən kənarda seçicilərin səs verməsini, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək kimi hüquqları var.

Sadalananlardan başqa, müşahidəçilər seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədilə baxa, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında seçki komissiyasının protokolu və digər sənədlərlə tanış ola, səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət edə bilər. Müşahidəçilərin həmçinin səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların surətini əldə etmək hüququ da vardır.



Müşahidəçi statusu olan şəxslərə seçki komissiyalarının iclaslarını, səslərin hesablanması, dairə və məntəqə seçki komissiyalarında seçki bülletenləri və səsvermənin nəticələrinə dair protokollar da daxil olmaqla, bütün seçki sənədləri ilə aparılan işi müşahidə etmək, həmçinin dairə və məntəqə seçki komissiyalarının qərarlarının və digər seçki sənədlərinin (seçici siyahıları, səsvermə üçün qeydiyyatdan çıxma vəsiqələrinin, seçki bülletenləri və imza vərəqələri istisna olmaqla) surətlərini əvəzsiz almaq imkanı yaradılır. Müşahidəçi statusu olan şəxslərdən seçki komissiyalarının iclaslarında iştirak etmək və yuxarıda sözügedən sənədlərlə tanış olmaq üçün seçki komissiyalarından əlavə icazə almaq tələb olunmur və onların seçki sənədləri ilə iş aparılan və ya səslər hesablanan yerə sərbəst daxil olmaları təmin edilir.

Yerli müşahidəçilər MSK və ya dairə seçki komissiyalarında, beynəlxalq müşahidəçilər MSK-da akkreditasiyadan keçməklə bütün seçki prosesini maneəsiz şəkildə izləyə bilirlər. Müşahidəçi statusuna malik beynəlxalq media nümayəndələri isə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində müvafiq akkreditasiyadan keçdikdən sonra MSK-ya müraciət edir və onlar müvafiq lövhəciklərlə təmin olunurlar. Yalnız belə lövhəciyin olması beynəlxalq müşahidəçiyə seçkilərin hazırlanması və keçirilməsi dövründə fəaliyyət göstərmək imkanı verir. Həm yerli, həm də beynəlxalq müşahidəçilər bütün fəaliyyətləri zamanı qərəzsiz və bitərəf olmalıdırlar. Seçkilər zamanı yerli media mənsublarının da hər hansı bir qeydiyyatdan keçmədən prosesləri izləmələrinə hərtərəfli şərait yaradılır.

Seçki qanunvericiliyi müşahidəçilərin fəaliyyəti ilə bağlı bəzi məsuliyyətləri də özündə ehtiva edir. Belə ki, seçicilərə seçki bülletenləri vermək, seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sualla müraciət etmək, seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteninin alınması haqqında imza etmək və bülleteni doldurmaq, seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək, seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək, seçicilər arasında təşviqat aparmaq, hər hansı bir namizədin, siyasi partiyanın, siyasi partiya bloklarının dəstəklənməsinə yönəldilən və ya bu cür qiymətləndirilə bilən çağırışlar etmək, seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək və öz statusu ilə bağlı suallar istisna olmaqla, seçicilərin suallarına cavab vermək müşahidəçilərə qadağan olunur. Bu tələblərin əksinə hərəkət edən müşahidəçinin qeydiyyatı onu qeydə almış seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə orqanı tərəfindən ləğv edilə bilər.

Aşkarlığın təmin olunması və ictimaiyyətin məlumatlandırılmasında mühüm yer tutan media subyektlərinin nümayəndələri də seçki komissiyalarının bütün iclaslarını işıqlandıra, səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokollarla və qərarlarla tanış ola, habelə seçki prosesini maneəsiz, tam sərbəst izləyə və müvafiq məlumatları ala bilərlər.

Milli Məclisə seçkilərlə əlaqədar MSK-nın məqsədyönlü şəkildə reallaşdırdığı layihələrin önəmli bir hissəsi, məhz seçki prosesinin müşahidəsinə qatılan aşkarlıq institutlarının məlumatlılığının artırılmasına, onlar üçün hərtərəfli geniş imkanların təmin olunmasına hədəflənib. Belə ki, həm yerli və beynəlxalq müşahidəçilər, həm də yerli və xarici media nümayəndələri üçün seçki prosesini əvvəldən axıradək sərbəst müşahidə etmək üçün hər cür şərait yaradılıb. MSK-nın genişmiqyaslı proqramı çərçivəsində fərqli statuslu digər seçki iştirakçıları ilə yanaşı, müşahidəçilər üçün müxtəlif dillərdə maariflləndirmə xarakterli əyani materiallar - "Seçki günü üçün yaddaş" və "Müşahidəçilər üçün yaddaş" kitabçaları, habelə digər metodiki vəsaitlər hazırlanıb.

MSK respublikada keçirilən seçkilərdə şəffaflığın yüksək səviyyədə təmin olunması üçün informasiya-kommunikasiya texnologiyalarının imkanlarından da geniş istifadə edir. Azərbaycanın seçki tarixində artıq 16 ildir ki, müvəffəqiyyətlə tətbiq olunan və seçki prosesini canlı, arasıkəsilmədən və fasiləsiz izləməyə imkan verən veb-kameralardan istifadə təcrübəsini həqiqətən böyük tarixi nailiyyət hesab etmək olar. Uzun illərdir ki, effektivliyi ilə öz təsdiqini tapmış veb-kamera təcrübəsinin qarşıdan gələn Milli Məclisə seçkilərdə də gerçəkləşdirilməsi nəzərdə tutulur. Səsvermə günü seçki məntəqələrində veb-kameralardan istifadə olunması və veb-kamera quraşdırılan seçki məntəqələrinin elan edilməsi MSK-nın qərarı ilə həyata keçirilir. Qeyd etmək lazımdır ki, bu veb-kameralar vasitəsilə internet istifadəçiləri istər ölkə daxilindən, istərsə xaricdən MSK-nın internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan səsvermə prosesi, səslərin sayılması, nəticələrin müəyyənləşdirilməsi və rəsmi protokolların doldurulmasını arasıkəsilmədən canlı müşahidə etmək imkanı əldə edir. Seçkilərdə şəffaflığın təmin olunmasında iştirak edən çoxsaylı aşkarlıq institutları ilə bərabər, veb-kameraların da tətbiq olunması Milli Məclisə seçkilərin internet istifadəçiləri tərəfindən səsvermə günü birbaşa izlənməsinə və beləliklə, aşkarlığın və şəffaflığın daha yüksək səviyyədə təmin olunmasına şərait yaradacaq.

Şəffaflıqdan danışarkən MSK-nın illərdən bəri fəaliyyət göstərən və seçki subyektlərinin etibarlı məlumat mənbəyinə çevrilən 115 nömrəli qaynar xəttini də vurğulamaq yerinə düşər. Avtomatlaşdırılmış telefon və elektron qaynar xətlərə daxil olan müxtəlif mövzularla bağlı sorğular, eləcə də digər hüquqi məsələlər dərhal cavablandırılır və operativ şəkildə lazımi addımlar atılır.

Seçki subyektlərinin maarifləndirilməsinin və proseslərin şəffaflığının təmin olunmasında digər mühüm vasitələrdən biri də MSK-nın internet səhifəsidir (www.msk.gov.az, www.cec.gov.az, www.infocenter.gov.az). Azərbaycan Respublikasının Konstitusiyası, Seçki Məcəlləsi, MSK tərəfindən qəbul edilmiş təlimat, izah və qaydalar, komissiyanın qərarları (iclaslardan dərhal sonra yerləşdirilməklə), Milli Məclisə seçkilərdə deputatlığa namizədlər, eləcə də seçkilərlə bağlı bütün digər məlumatlar Azərbaycan və ingilis dillərində internet səhifəsində mövcuddur. Bundan başqa, seçki dairələrinin və seçki məntəqələrinin dislokasiyası, seçicilərin axtarış sistemi, əvvəlki seçkilərlə bağlı məlumatlar, qeydə alınmış namizədlər haqqında informasiya, seçki komissiyalarının tərkibi, ünvanı, əlaqə məlumatları, seçki məntəqələrinin ünvanı və xəritəsi, seçicilərin siyahısı, seçkiqabağı təşviqatla əlaqədar məlumatlar, MSK-nın mətbuat bülletenləri və ictimaiyyət üçün maraq kəsb edən digər informasiyalar da saytda yerləşdirilib. Komissiyanın sosial şəbəkələrdəki səhifəsi də istifadəçilərin ixtiyarına verilib və məlumatlar mütəmadi olaraq bu səhifələrdə də yerləşdirilir.

Ölkəmizdə keçirilən seçkilərdə proseslərin digər mərhələlərində olduğu kimi, seçki günü və səsvermə başa çatdıqdan sonra aşkarlıq və şəffaflıq yüksək səviyyədə təmin olunur. Belə ki, səsvermə günü 5 dəfə - saat 10:00, 12:00, 15:00, 17:00 və 19:00-da seçicilərin fəallığı barədə məlumatlar Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi şəbəkəsi üzərindən xüsusi proqram təminatı vasitəsilə birbaşa MSK-ya ötürülərək ictimailəşdirilir və komissiyanın internet səhifəsində yerləşdirilir. Seçkilər başa çatdıqdan və seçki məntəqələri bağlandıqdan sonra maraqlı şəxslərin maneəsiz şəkildə məlumat alması məqsədilə ölkə üzrə seçki məntəqələrindən səsvermənin yekunları barədə daxil olan ilkin məlumatlar DAİS-in xüsusi proqram təminatı vasitəsilə birbaşa MSK-nın internet səhifəsinə ötürülərək, oradan bütün yerli və beynəlxalq ictimaiyyətin diqqətinə təqdim olunur.

Əminliklə vurğulamaq olar ki, seçki qanunvericiliyindən irəli gələn bəhs etdiyimiz bütün hüquqi vasitə və normalar, eləcə də ardıcıl, sistemli və intensiv şəkildə reallaşdırılan genişmiqyaslı layihələr qarşıdan gələn Milli Məclisə seçkilərin də tam aşkarlıq və şəffaflıq mühitində keçməsinə layiqli töhfə verəcəkdir.

***Rəşid YUSİFBƏYLİ,***
***Mərkəzi Seçki Komissiyası Katibliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri***

# ABŞ-də Azərbaycan Evinin açılışı olub

**Virciniya ştatının paytaxt Vaşinqtona yaxın yerləşən Aleksandriya şəhərində yerləşən Azərbaycan Evinin açılışı mərasimində ətraf şəhərlərdə yaşayan azərbaycanlılar, diaspor nümayəndələri, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları iştirak ediblər.**

AZƏRTAC-ın verdiyi məlumata görə, açılış lentini komitə sədri Fuad Muradov kəsib. Daha sonra çıxış edən Azərbaycan Evinin həmtəsisçisi Ayan Əliyeva bildirib ki, Azərbaycan Evi - Azərbaycan Assosiasiyasının əsas məqsədi ilkin mərhələdə Azərbaycandan gələn, ABŞ-də doğulmuş uşaqlara doğma dilimizin tədris edilməsidir.

Onun sözlərinə görə, bu mərkəz Azərbaycan və türk dünyası üçün mühüm rol oynayacaq.

Azərbaycan Evinin digər həmtəsisçisi Sevda Tahirli 5 ildir bu ideya üzərində iş apardıqlarını bildirib. Qeyd edib ki, uzun illər Azərbaycan mədəniyyəti, incəsənəti, musiqisi, mətbəxinin təbliğatı istiqamətində gördükləri işləri artıq Azərbaycan Evi adı altında davam etdirəcəklər. O, əsas missiyalarının hər kəsin bir araya gələcəyi, problemlərini həll edəcəyi, güvənəcəyi bir məkan olması olduğunu diqqətə çatdırıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov Azərbaycanın dövlət olaraq bu fəaliyyətləri hər zaman dəstəkləməyə davam edəcəyini bildirib. O vurğulayıb ki, Azərbaycan evlərinin funksional şəkildə fəaliyyət göstərməsi vacibdir və bu fəaliyyətlər əsasən icmanın istəkləri istiqamətində olmalıdır. Fuad Muradov avqustun əvvəllərində Laçında Diaspor Gənclərinin V Yay Düşərgəsinin keçirildiyini xatırladaraq gənclərin də bu fəaliyyətlərə qoşulmasının əhəmiyyətini qeyd edib.

Azərbaycanın ABŞ-dəki səfirliyinin birinci katibi Toğrul Əliyev də səfirliyin azərbaycanlıların bu istiqamətdəki fəaliyyətlərinə dəstəyini ifadə edib.

# "Diaspor təşkilatları ABŞ-nin bir çox ştatlarında Azərbaycanın haqlı mövqeyinin təbliği baxımından aktiv fəaliyyət göstərirlər"

**"ABŞ-də Azərbaycan icması həm 44 günlük müharibə zamanı, həm də sonrakı dövrdə çox böyük layihələr, tədbirlər həyata keçirib".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ-də səfərdə olan Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov deyib. O bildirib ki, bu ölkədə Azərbaycan icmasının fəaliyyəti təkmilləşir. "Çox müsbət haldır ki, bizim gənclərimiz, yeni nəsil yaxşı universitetlərə daxil olur, oxuyur, universitetlərdə Tələbə Gənclər Təşkilatı yaradırlar. Təkcə son 3 ildə 8 böyük universitetdə bu fəaliyyətlər həyata keçirilib. ABŞ-də Koordinasiya Şurası 2019-cu ildə təsis olunub və sonrakı dövrlərdə daha da təkmilləşib. ABŞ-də fəaliyyət göstərən əksər təşkilatlar həmin birliyə üzv olublar və təşkilatın adı dəyişdirilərək hazırda Azərbaycan Amerika Təşkilatı kimi fəaliyyət göstərir. Bütün ştatlarda olan diaspor təşkilatlarımız həmin təşkilata qoşulub", - deyə komitə sədri əlavə edib.

Fuad Muradov bildirib ki, ABŞ-də yaşayan Azərbaycan icması ilə mütəmadi olaraq görüşlər olur, planlar müzakirə edilir. O, bu ayın sonunda Azərbaycan Amerika Təşkilatı tərəfindən Corctaun Universitetində ABŞ-də yaşayan Azərbaycan gənclərinin forumunun keçiriləcəyini diqqətə çatdırıb: "Bu gün həmin gənclərlə görüşdük, tədbirə hazırlığın gedişatı ilə maraqlandıq. 70-dən çox iştirakçı seçilib və artıq proqram da təsdiq olunub. Ümid edirəm ki, Azərbaycan icması üçün vacib tədbir olacaq".

Görüşə paytaxt Vaşinqton və ətraf ştatlardan olan diaspor fəalları qatılıblar. Görüş Azərbaycan və ABŞ-nin Dövlət himnlərinin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad olunması ilə başlayıb. Fuad Muradov komitənin son illər gördüyü genişmiqyaslı layihələr barədə məlumat verib, Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının V (Zəfər) Qurultayındakı çıxışında qarşıya qoyulan vəzifələrə diqqət çəkib. Bildirilib ki, dünya azərbaycanlıları, o cümlədən ABŞ-dəki icma hər zaman azərbaycançılıq ideologiyasına sadiqlik nümayiş etdirib, informasiya müharibəsində fəal iştirak edib, səmərəli fəaliyyət nəticəsində diasporun nüfuzunun artmasına nail olub. O, dünyanın 17 ölkəsində 28 Azərbaycan Evinin fəaliyyət göstərdiyini bildirib və növbəti Azərbaycan Evinin ABŞ-də açılacağını diqqətə çatdırıb.

Azərbaycanın ABŞ-dəki səfirliyinin birinci katibi Toğrul Əliyev Azərbaycan diasporunun fəaliyyətini və icmanın daha da güclü olması üçün DİDK-lə əməkdaşlığın səmərəliliyini diqqətə çatdırıb.

Amerika Azərbaycan Təşkilatları Alyansının sədri Münəvvər Vahabova təşkilatın, eləcə də Koordinasiya Şurasının işi barədə məlumat verib, fəaliyyət dairələrinin daha da genişləndiyindən danışıb.

ABŞ-də yaşayan tanınmış həkim Şapur Ənsari çıxış edərək güclü Azərbaycanın diasporunun da gücləndiyini, yeni dövrün çağırışlarına hazır olduğunu, Vətən üçün daha çox iş görməyin vacibliyini vurğulayıb. Çıxışlarda həmçinin avqustun 1-dən 7-dək Laçında keçirilən Diaspor Gənclərinin V Yay Düşərgəsinin dünya azərbaycanlılarının böyük rəğbəti ilə qarşılandığı qeyd olunub.

İcma ilə görüşdə fikir mübadiləsi və perspektivə dair müzakirələr aparılıb, komitənin və diasporumuzun gördüyü işlərə dair müxtəlif videoçarxlar da nümayiş olunub.

Sonda bir neçə icma üzvünə təltif olunduqları medallar təqdim edilib. Florida ştatında Azərbaycan - Amerika Mədəniyyət Assosiasiyası yanında Təhsil və Mədəniyyət Komitəsinin sədri, ABŞ Musiqiçiləri Gildiyasının üzvü, Florida Universitetinin fortepiano üzrə professoru Pərvin Muradovaya "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı, Amerika Azərbaycan İnteqrasiya Mərkəzinin rəhbəri Samir Novruzova, ABŞ-dəki Azərbaycan icmasının fəal üzvü Rəna Abbasovaya, ABŞ Azərbaycanlıları Şəbəkəsinin (USAN) həmtəsisçisi, diaspor fəalı Bədir Məmmədliyə "Diaspor fəaliyyətində xidmətə görə" medalları təqdim edilib.




# Azərbaycan-Rusiya: çoxəsrlik tarixə malik iqtisadi əlaqələrin yeni istiqamətləri

**Azərbaycanla Rusiya arasında hərtərəfli əlaqələr sürətlə inkişaf edir. O cümlədən iqtisadi əməkdaşlığa getdikcə daha çox sahə qoşulur. Bunu Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın cari il avqustun 9-da keçirilən 22-ci iclası da təsdiq etdi. Belə ki, burada iqtisadi sahədə qarşılıqlı fəaliyyətin müasir tendensiyaları şərh olundu.**



Rusiya ilə Azərbaycan arasında ticarət və energetika, sənaye və kənd təsərrüfatı, logistika, nəqliyyat, turizm və digər sahələrdə əməkdaşlıq genişlənir. Hər iki tərəfdən səmərəli dövlət dəstəyi ilə investisiya əlaqələri də güclənir. Təsadüfi deyil ki, bu gün Rusiya Azərbaycan üçün ən mühüm investorlardan və ən böyük ticarət tərəfdaşlarından biridir. Neft ixracında hətta ən böyük tərəfdaşdır.

Xatırladaq ki, 2022-ci il fevralın 22-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin tərəfindən "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" imzalanıb. Sənəddə bildirilir ki, tərəflər iki ölkənin ticarət-iqtisadi əlaqələrinin davamlı artımının təmin edilməsi üçün vacib əhəmiyyəti olan iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın işinə hərtərəfli yardım göstərməyə davam edəcəklər. Həmçinin qarşılıqlı faydalı ticarət-iqtisadi, sərmayə və elmi-texniki əməkdaşlığı dərinləşdirmək, istehsal və elmi əməkdaşlığı, hər növ mülkiyyət formalı təsərrüfat subyektləri arasında birbaşa əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyətindədirlər. Tərəflərin milli qanunvericilikləri çərçivəsində metallurgiya, neft-qaz və ağır maşınqayırma, aviasiya, avtomobil, kimya, əczaçılıq və yüngül sənaye, kənd təsərrüfatı, yol-tikinti və qida maşınqayırması müəssisələri arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinə imkan yaradacağı da qeyd olunur. İntellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə edilməklə tranzit-nəqliyyat qarşılıqlı fəaliyyətinin potensialının ardıcıl inkişafı, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin davamlı və tammiqyaslı fəaliyyəti üçün texniki və iqtisadi şəraitin təmin edilməsi hədəfə alınır. Beynəlxalq enerji əməkdaşlığının stimullaşdırılması və qlobal enerji təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə sıx qarşılıqlı fəaliyyət həyata keçirərək yanacaq-energetika sahəsində, o cümlədən səmərəli infrastruktur layihələrinin cəlb edilməsi də daxil olmaqla neft-qaz yataqlarının kəşfiyyatı və emalı, enerji resurslarının nəqli sahəsində, eləcə də alternativ və bərpaolunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində əməkdaşlığı dərinləşdirmək niyyəti ifadə olunur. Tərəflərin aqrar-sənaye kompleksi sahəsində, o cümlədən kənd təsərrüfatı məhsulları ilə təchizetmə, kənd təsərrüfatı məhsullarının istehsalının, emalının və saxlanmasının aparıcı texnologiyalarından istifadə məsələləri, eləcə də fitosanitar normalara əməletmə üzrə əlaqələrin inkişafına və təcrübə mübadiləsinə yardım edəcəkləri də göstərilir.

Azərbaycan ilə Rusiya arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 22-ci iclasının yekunları göstərir ki, hər sahədə qarşıya qoyulan məqsədlərə nail olunur. Belə ki, ötən il iki ölkə arasında ticarət dövriyyəsi rekord rəqəmlərə çatıb və bu tendensiya davam edir. Ərzaq və kənd təsərrüfatı xammalı, neft, metal və plastik məhsullarının qarşılıqlı ticarəti də artır. Üstəlik, bu ilin yayına qədər qarşılıqlı hesablaşmaların təxminən dörddəüçü ilə həyata keçirilən milli valyutalar əsasında ticarət də inkişaf edir. İkitərəfli yükdaşımalar nəzərəçarpacaq dərəcədə artıb və turist axını intensiv şəkildə davam edir.

Bunu AZƏRTAC-a müsahibəsində Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, RF Dövlət Dumasının deputatı Dmitri Savelyev də vurğulayıb. O, əməkdaşlığın yeni istiqamətlərinə də toxunaraq deyib: "Azərbaycanda Rusiya biznesi ilə əczaçılıq və neft-kimya, qida sənayesi və şərabçılıq, mədən sənayesi və tikinti materiallarının istehsalı, avtomobil sənayesi və avadanlıqlara texniki xidmət sahələrində əməkdaşlığın uğurlu nəticələri qeydə alınıb. Xüsusilə "Lada" və "Qazel", "KamAZ" və "Ural" avtomobilləri üçün servis dəstəyi göstərilir. Bununla yanaşı, perspektivli sahələr arasında gəmiqayırma, metallurgiya, turizm və digərlərini qeyd etmək lazımdır. Öz növbəsində Azərbaycan sahibkarları Rusiyada aqrobiznes, meşə təsərrüfatı və turizmə, o cümlədən Xəzər dənizinə fəal şəkildə sərmayə qoyurlar. Ekspertlər gələcəkdə yüksək texnologiyalı istehsala və Rusiyanın İT sektoruna Azərbaycandan sərmayə qoyulacağını da gözləyirlər".

Təqdirəlayiq haldır ki, bu iki ölkənin regionları arasında da əməkdaşlıq inkişaf edir. Cari ildə Stavropolda genişmiqyaslı Rusiya-Azərbaycan Regionlararası Forumu, müxtəlif regionlarda digər tədbirlər keçirilib. Artıq yüzlərlə Rusiya şirkətinin nümayəndələri Azərbaycanla əməkdaşlıq imkanları ilə tanış olublar. Məsələn, bu yaxınlarda Kirov rayonundan olan 9 iri istehsalat şirkətinin nümayəndələri Bakıya işgüzar səfərlər zamanı ixracın təşkilinə yönəlmiş onlarca görüş keçiriblər. Həmçinin Krasnoyarsk diyarının, Çuvaşiya, Novosibirsk və Ulyanovsk vilayətlərinin, Altay diyarının və Rusiyanın digər vilayətlərinin nümayəndələri Bakıda olub, Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsinə böyük maraq göstəriblər.

Azərbaycan-Rusiya münasibətlərindən danışarkən Prezident İlham Əliyevin bu il aprelin 22-də Rusiyaya işgüzar səfərini xatırlamamaq mümkün deyil. Moskvada Baykal-Amur Magistralının (BAM) 50 illik yubileyi münasibətilə keçirilən görüşdə BAM-ın istifadəyə verilməsində misilsiz xidmətləri olan Ulu Öndər Heydər Əliyevin xatirəsi ehtiramla anılmaqla Azərbaycan-Rusiya iqtisadi əlaqələrinin dünəninə və bu gününə də toxunuldu. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin bildirdi ki, Rusiya-Azərbaycan əməkdaşlığının digər sahəsi bu gün BAM-ın miqyasına və tarixi əhəmiyyətinə uyğundur: "Söhbət "Şimal-Cənub" nəqliyyat dəhlizinin inkişafından gedir. Əslində, o, Şimal dənizi marşrutunu Fars körfəzi ilə birləşdirir və ya demək olar ki, birləşdirə bilər və birləşdirməlidir".

Həmin vaxt səslənən bir fikri də xatırlatmaq yerinə düşərdi: "Əmtəə dövriyyəmiz artır: artıq 4 milyard dollardan da çoxdur. Dollar ekvivalentində desək, Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya investisiyası 6 milyarddır. Hökumətlərarası komissiya fəal işləyir. İqtisadiyyatın real sektorunda, kooperasiyada, infrastrukturda əməkdaşlığın bir çox maraqlı istiqamətləri var".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## İstanbulda Türkiyə-Azərbaycan-Türkmənistan biznes-forumu keçiriləcək



**Sentyabrın 10-da İstanbulda Türkiyə-Azərbaycan-Türkmənistan biznes-forumu keçiriləcək Trend xəbər verir ki, bu barədə Türkiyənin Xarici İqtisadi Əlaqələr Komitəsi bildirib.**

Məlumata əsasən, Türkiyənin ticarət naziri Ömər Bolat, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Batır Atdayevin iştirakı ilə keçiriləcək forumda üç ölkədən biznes təşkilatları və sahibkarlar, dövlət başçılarının iştirakı gözlənilir.

Qeyd olunub ki, forumun keçirilmə yeri, proqramı və iştirak şərtləri barədə daha sonra məlumat veriləcək.

## Əczaçılıq məhsullarının idxalına çəkilən xərc azalıb



**Bu ilin yanvar-iyul aylarında Azərbaycan 305,496 milyon ABŞ dolları dəyərində əczaçılıq məhsulları idxal edib. "Trend" Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 15,6 faiz azdır.**

Hesabat dövründə Azərbaycan həmçinin 2,289 milyon ABŞ dolları dəyərində əczaçılıq məhsulları ixrac edib. Bu isə 1 il əvvələ nisbətən 6 dəfə azdır.

Əczaçılıq məhsulları üzrə idxal Azərbaycanın ümumi idxalının 2,83, ixrac isə ümumi ixracın 0,01 faizni təşkil edib.

Xatırladaq ki, bu ilin yanvar-iyul aylarında Azərbaycan xarici ölkələrlə 26 milyard 892,121 milyon ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 11,3 faiz azdır.

## Azərbaycan neftinin qiyməti 84 dollardan aşağı düşüb




**Dünya bazarında Azərbaycan neftinin qiyməti azalıb. "Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,82 dollar və ya 2,13 faiz azalaraq 83,72 dollar olub.**

AZƏRTAC xəbər verir ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə Çindən konteyner daşımaları əhəmiyyətli dərəcədə artıb

**İlin əvvəlindən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TİTR) üzrə Çindən konteyner daşımalarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 14 dəfə artıb.**

"Trend" bu barədə cümə günü "Qazaxıstan Temir Yolu" SC-nin (KTZ) Mətbuat xidmətinə istinadən məlumat yayıb. Qeyd olunub ki, Xəzər dənizi vasitəsilə Çin və Avropa/Türkiyəni birləşdirən bu multimodal nəqliyyat dəhlizinin inkişafı məqsədilə daşımaların həcminin artırılması, xidmətin və yüklərin çatdırılma sürətinin yaxşılaşdırılması istiqamətində işlər aparılır.

"Bu günə qədər Altınkol stansiyasından Abşerona (Bakı) çatdırılma müddətləri 9, Poti/Batumiyə (Gürcüstan) 12, Poti/Batumi vasitəsilə Konstansaya (Rumıniya) 20-22 günə endirilib" - press-relizdə vurğulanır.

KTZ-nin Azərbaycan və Gürcüstanın dəmir yolu administrasiyaları ilə yaratdığı "Middle Corridor Multimodal Ltd" birgə müəssisəsi "bir pəncərə" prinsipi üzrə xidmətlərin göstərilməsi və zəmanətli çatdırılma müddətləri və xərcləri ilə marşrut üzrə multimodal xidmətlərin inkişafı istiqamətində səyləri gücləndirəcək.

"Həmçinin, KTZ iri beynəlxalq logistika şirkətlərinin iştirakı ilə Xəzər dənizində liman və liman infrastrukturunu fəal şəkildə inkişaf etdirir", - deyə məlumatda qeyd olunub.

Qeyd edək ki, Orta Dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Çin və Avropa ölkələrini birləşdirir. TMTM 10 ildir fəaliyyət göstərir, lakin son iki ildə fəal şəkildə inkişaf edir. 2023-cü ildə onun üzərindən 2,7 milyon ton yük ötürülüb.

## 7 ayda Azərbaycandan xaricə səfər edən turistlərin sayı 1,2 milyon nəfərdən çox olub

**2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə Azərbaycandan xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 23,1 faiz artaraq 1 milyon 223 min nəfər olub.**

Dövlət Statistika Komitəsindən bildirilib ki, İrana gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 37,8, Türkiyəyə gedənlərin sayı 19,3, Rusiya Federasiyasına gedənlərin sayı 16,2, Gürcüstana gedənlərin sayı 15,9 faiz artıb. Azərbaycan Respublikası vətəndaşlarının 41,2 faizi (503 876 nəfər) Türkiyəyə, 21,4 faizi ( 261 722 nəfər) Rusiya Federasiyasına, 8,7 faizi ( 106 401 nəfər) Gürcüstana, 8,6 faizi (105 178 nəfər) İrana, 20,1 faizi ( 245 823 nəfər) digər ölkələrə səfər edib.



Cari ilin yanvar-iyul aylarında xarici ölkələrə səfər edən Azərbaycan vətəndaşlarının 68,9 faizi hava, 28,9 faizi dəmir yolu və avtomobil, 2,2 faizi isə dəniz nəqliyyatından istifadə edib.

## Ölkədə bizneslə məşğul olmaq proseduru daha da sadələşəcək

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəhbərlik etdiyi "Biznesə daxilolma" işçi qrupunun videokonfrans formatında iclası keçirilib.**

Görüşdə Dövlət Vergi Xidməti ilə yanaşı, Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və ölkənin aparıcı konsaltinq şirkətlərinin nümayəndələri iştirak ediblər.

İşçi qrupunun rəhbəri, Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva 2024-cü ilin ötən dövründə həyata keçirilmiş işlər və layihələr, habelə iclasın gündəliyində olan əsas məsələlər barədə məlumat verib. Qeyd olunub ki, biznesin qeydiyyatının sadələşdirilməsi məqsədilə "Biznesə daxilolma" işçi qrupunun təşəbbüsü və müvafiq qurumların birgə səyi ilə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda, Əmək, Mülki və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələri hazırlanaraq qəbul olunub, dövlət başçısı tərəfindən 8 iyul 2024-cü il tarixdə təsdiqlənib. Bununla da kommersiya qurumlarının dövlət qeydiyyatı sahəsində qüvvədə olan qanunvericiliyin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, xarici və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı prosedurlarının eyniləşdirilməsi prosesinə başlanılıb.



Sonra İşçi qrupunun üzvü, Dövlət Vergi Xidmətinin Vergi ödəyicilərinin qeydiyyatı və uçotu baş idarəsinin rəis müavini Hüsniyyə Abdullayeva "Biznesə daxilolma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi" çərçivəsində görülmüş işlər barədə məlumat verib. Qeyd olunub ki, kommersiya hüquqi şəxslərin təsisçiləri və onların nizamnamə kapitalındakı payları üzrə dəyişikliklərlə əlaqədar notariat hərəkətləri aparıldıqdan sonra müvafiq məlumatların, eləcə də kommersiya hüquqi şəxslərin rəhbərləri ilə əmək müqavilələrinin bağlanması və xitam verilməsi üzrə müvafiq məlumatların onlayn qaydada əldə edilərək qeydiyyata alınması ilə bağlı qanunvericilik layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim olunub, müvafiq rəylər alınıb və hazırda baxılmaqdadır. Eyni zamanda kommersiya qurumlarının benefisiar mülkiyyətçiləri barədə məlumatların dövlət qeydiyyatına alınması və həmin məlumatların reyestrinin aparılması ilə bağlı işlər həyata keçirilir, müvafiq normativ sənəd qüvvəyə mindikdən sonra texniki imkanlar yaradılacaq.

Bundan başqa, Beynəlxalq Xüsusi Hüquq üzrə Haaqa Konfransının təşviq etdiyi Elektron Apostil Proqramına uyğun olaraq elektron apostil verilmiş xarici mənşəli sənədləri müvafiq proqram vasitəsilə yoxlamaqla onların tərcüməsinin informasiya sistemi üzərindən notarius tərəfindən distant rəsmiləşdirilməsi və ünvana çatdırılması xidmətinin tətbiqi üzərində iş aparılır. İşçi qrupun üzvü, Ədliyyə Nazirliyinin Notariat, qeydiyyat və reyestr baş idarəsinin Nəzarət-analitik iş üzrə qrupunun rəhbəri Leyla Barxudarzadə bu sahədə görülən işlər barədə məlumat verib. Qeyd olunub ki, Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan və ingilis dillərində müvafiq portalın (https://translate.justice.gov.az/) yaradılması təmin edilib. Portalda xarici mənşəli sənədlərin tərcüməsinin elektron qaydada notarius tərəfindən rəsmiləşdirilməsi üçün müvafiq addımları nəzərdə tutan funksional imkanlar yaradılıb.

İclas iştirakçıları Xarici İşlər Nazirliyinin (XİN) Konsulluq idarəsi və Azərbaycan Respublikasının konsulluqları tərəfindən rəsmi sənədlərin leqallaşdırılması məqsədilə XİN-in "Konsul leqallaşdırılması" informasiya sisteminin yaradılması, leqallaşdırılmış sənədlərin tərcüməsinin "Elektron notariat" informasiya sistemi üzərindən notarius tərəfindən distant rəsmiləşdirilməsi və ünvana çatdırılması xidmətinin təşkili üzrə görülmüş işləri müzakirə ediblər. XİN-in Konsulluq idarəsinin Vətəndaşlıq məsələləri şöbəsinin müdiri, işçi qrupun üzvü Ruhlan Nəbiyev bu sahədə həyata keçirilən işlər barədə ətraflı məlumat verib.

İşçi qrupun rəhbəri, Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva layihələrin yekunlaşdırılması, yol xəritəsində nəzərdə tutulan tədbirlərin icrasının sürətləndirilməsi üçün zəruri olan işlər üzrə səylərin artırılması və işçi qrupda təmsil olunan nümayəndələrin birgə effektiv fəaliyyətinə əlavə dəstəyin verilməsi ilə bağlı məsələləri diqqətə çatdırıb.

İclas iştirakçıları həyata keçirilən işlərin və tətbiq olunması nəzərdə tutulan yeniliklərin ölkəmizdə biznesin qeydiyyatı sahəsinin daha da yaxşılaşmasına gətirəcəyini bir daha vurğulayıblar.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarında ABŞ dirijor rolunda çıxış edir

**"Ermənistanın ABŞ başda olmaqla, Qərbin Cənubi Qafqaz üçün çox təhlükəli geosiyasi ambisiyalarının həyata keçirilməsinin bələdçisinə çevrildiyi getdikcə daha aydın müşahidə edilir. ABŞ-nin ən böyük səfirliyi İraqdan sonra Ermənistandadır. Heyətinin sayı 2500-ə yaxın olan səfirlik Ermənistan ərazisindən bütün regionu əhatə edən təhlükəli bir strategiyanı həyata keçirməklə məşğuldur".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. O bildirib ki, Amerikanın Ermənistandakı səfirliyinin tərkibində 800 nəfərə qədər ABŞ-nin "dəniz pişikləri" adlanan qoşun növünün hissəsi də mövcuddur. ABŞ özünün hərbi mövcudluğunu Ermənistanda artıq təmin edib. Son vaxtlarda iki hərbi təyyarənin Ermənistana gəlməsi, onun yükünün silahlardan və ABŞ hərbçilərindən ibarət olması bir daha göstərir ki, Vaşinqton Ermənistan vasitəsilə bu regionda gərginlik yaratmağı qarşısına məqsəd kimi qoyub. "Ermənistan son günlərdə Azərbaycan mövqelərini intensiv atəşə tutur. KİV-də gedən məlumatlara görə, Kəlbəcər istiqamətində mövqelərimiz atəşə tutularkən ABŞ-yə məxsus hərbi təlimatçılar da burada iştirak ediblər. Deməli, Amerika regionda gərginliyin artması məqsədilə özü üçün yol xəritəsi də hazırlayıb. Bunun icraçısı rolunda Ermənistan və ABŞ hərbçiləri birgə hərəkət edirlər", - deyə deputat əlavə edib.

Bu il aprelin 5-də Brüsseldə Ermənistan baş naziri, ABŞ dövlət katibi və Avropa Komissiyasının rəhbəri arasında keçirilmiş görüşü xatırladan E.Mirbəşiroğlu bildirib ki, Avropa rəsmiləri əvvəl məqsədin Ermənistana əlavə təhlükəsizlik təminatlarının verilməsi imkanlarının müzakirəsi olacağını etiraf etsələr də, Azərbaycan və Rusiyanın sərt reaksiyasından sonra görüşün məqsədini fərqli izah etməyə başlayıblar. Guya Ermənistanda sosial-iqtisadi inkişafa dəstək veriləcəkmiş. Amma sonradan məlum oldu ki, görüşdə hərbi-texniki sahədə əməkdaşlıq, ermənilərə əlavə təhlükəsizlik təminatının verilməsi məsələləri müzakirə olunub. Görüşün ardınca Ermənistan Fransa tərəfindən intensiv silahlandırılmağa başladı. Bununla bərabər Hindistan da Ermənistana silahlar daşımağa başladı. Onların verdiyi silahlar da Fransa lisenziyasında istehsal olunanlar idi.

Deputat qeyd edib ki, Ermənistan ABŞ ilə öz ərazilərində hərbi təlimlər keçirir, NATO-nun Cənubi Qafqazda mövcudluğunu, demək olar ki, təmin edib: "Ermənistanın ərazisində Avropa İttifaqının mülki missiyası da mövcuddur. Yaxşı bilirik ki, bu missiyanın tərkibi Almaniyanın, Fransanın güc strukturlarının təmsilçilərindən ibarətdir. Onlar Azərbaycan başda olmaqla, Cənubi Qafqaz ölkələrinə qarşı kəşfiyyat fəaliyyəti həyata keçirirlər. Bu proseslərin mərkəzində dirijor rolunda ABŞ çıxış edir. Məqsəd ondan ibarətdir ki, regionda yenidən ciddi gərginlik yaradılsın. Münaqişə elementlərinin yaradılması Qərbin beynəlxalq mexanizm adlandırdığı alətlərin tətbiqinə imkan verəcək. Bunun da mahiyyəti ondan ibarətdir ki, həmin qüvvələr Cənubi Qafqaz regionunda özünün hərbi və siyasi mövcudluğunu təmin etsinlər".

E.Mirbəşiroğlu vurğulayıb ki, Cənubi Qafqaz regionu həmçinin Rusiyaya qarşı ikinci cəbhə kimi də nəzərdə tutulur. ABŞ-nin əsas geosiyasi hədəfi odur ki, Rusiyanın regionda mövcudluğuna son qoysun. Elə bunun müqabilində də Ermənistana dəstək verir. Ermənistana verilən vədlər içərisində həm də Azərbaycana qarşı revanşa hazırlanma və itirmiş olduğu mövqelərini geri qaytarma var. Ermənistan deklorativ şəkildə sülh istəklərini sərgiləsə də, amma nə konstitusiyasında dəyişlik edir, nə də ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılmasını istəyir. "Bütün bunlar onu göstərir ki, Ermənistan üçün münaqişə lazımdır. O, Azərbaycana olan ərazi iddialarından geri çəkilmək niyyətində deyil. O, ABŞ-dən dəstək almaqla təxribatçı cəhdlərini davam etdirmək qərarındadır. Son dövrlərdə Azərbaycan mövqelərinin atəşə tutulmasının əsas məqsədi də münaqişənin davam etdiyi təəssüratını yaratmaqdır və belə olan halda Minsk qrupunun aktuallığını gündəmdə saxlamaqdır. Azərbaycan tərəfi isə bildirir ki, münaqişə başa çatıb və biz torpaqlarımızı işğaldan azad etmişik. Odur ki, ATƏT-in Minsk qrupuna ehtiyac yoxdur. Bu qurum heç vaxt münaqişənin tənzimlənməsi ilə məşğul olmayıb, sadəcə, Ermənistanın xeyrinə münaqişəni idarə edib. Biz də bunun qarşısını almışıq. Azərbaycan region üçün həm unikal təhlükəsizlik mühiti yaradıb, həm də səmərəli əməkdaşlıq imkanlarını formalaşdırıb", - deyə müsahibimiz əlavə edib.

Deputat vurğulayıb ki, ABŞ isə bunu istəmir, çünki Cənubi Qafqazda yaranan yeni reallıqlar və formalaşan imkanlar onun maraqları ilə ziddiyyət təşkil edir. Çünki regionda münaqişə yoxdursa, ABŞ bura müdaxilə edə bilməyəcək. Konstruktiv dialoq üçün Azərbaycan regionda maraqları olan bütün subyektləri uzlaşdırmağa hazır olan dövlətdir. Azərbaycanın istəyi odur ki, Cənubi Qafqaz regionu təhlükəsizlik coğrafiyasına çevrilsin və geniş əməkdaşlıq platforması yaransın. Prezident İlham Əliyev bu istiqamətdə strateji baxışlara sahibdir və buna uyğun da təsirli addımlar atır. Bu addımların qarşısını alacaq bir güc isə yoxdur.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*



## ABŞ Cənubi Qafqazda gərginliyi artırmağa çalışır

**"ABŞ-nin Ermənistanı silahlandırması heç də sülh məqsədinə xidmət etmir. ABŞ Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqlarını dəstəklədiyini bildirsə də, hərəkətləri tamamilə bunun əksinədir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Azər Badamov deyib. O xatırladıb ki, Azərbaycan 44 günlük Vətən müharibəsində öz ərazilərini işğaldan azad etməklə və 2023-cü ildə həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə suverenliyini tam bərpa edib. Ölkəmizin məqsədi regionda sülh və əməkdaşlıq mühitini formalaşdırmaqdır. Ona görə də müharibə başa çatdığı ilk gündən Azərbaycan Ermənistana düşmənçilik səhifəsini bağlamağı və münasibətlərin normallaşdırılmasına başlamağı təklif edib. "Bu gün də Azərbaycan öz mövqeyində qalır və Ermənistanın konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarından əl çəkəcəyi və Minsk qrupundan imtina edəcəyi təqdirdə sülh müqaviləsinin imzalanması üçün hər hansı bir maneənin qalmayacağını bildirir. Ermənistan əvvəllər Azərbaycanın tələbləri ilə razı olduğunu bildirsə də, son vaxtlar konstitusiyanın dəyişdirilməsinin daxili işləri olduğunu deyir və Minsk qrupunun ləğv olunması ilə bağlı müraciət olunmasını da sülh müqaviləsi ilə bağlayır. Təbii ki, burada ABŞ-nin Ermənistanı silahlandırması ilə əlaqənin olduğunu görmək heç də çətin deyil", - deyə müsahibimiz bildirib.

ABŞ-nin Ermənistanla birgə hərbi təlimlər keçirdiyini, onun ordusunu NATO standartlarına uyğunlaşdırmağa çalışdığını, bu ölkənin müdafiə nazirliyində öz nümayəndələrini təyin etdiyini qeyd edən deputat Vaşinqtonun Zvartnos hava limanına 2 təyyarə silah və hərbi texnika göndərdiyini də xatırladıb. Bu təyyarələr yalnız müşahidə olunandır, amma gizli yollarla da silahların daşınması da məlumdur. O cümlədən ABŞ ordusunda xidmət edən erməni əsilli hərbçilərdən ibarət bir kontingentin Ermənistana göndərilməsi də real faktdır.

A.Badamov qeyd edib ki, Ermənistan ABŞ-nin dəstəyinə arxayınlaşaraq sülhlə bağlı gündəliyi uzatmağa, hətta danışıqlar prosesindən yayınmağa çalışır: "Yığılan silahlar bir gün işlədilir, onlar anbarlarda saxlamaq üçün gətirilmir. Bu, Amerikanın Ermənistanda mövcudluğunu təmin etməyin göstəricisidir. ABŞ-nin Ermənistanı silahlandırması regionda yeni gərginlik ocağını yaratmaq məqsədlərinə xidmət edir. Dünyada elə bir ölkə yoxdur ki, ABŞ-nin orada hərbi mövcudluğu ona sülh gətirsin. Belə ki, bir sıra ölkələrdə davam edən müharibələri firavan ərəb ölkələrində yaşayışın cəhənnəmə dönməsini, 40 milyonluq Ukraynanın düşdüyü ağır vəziyyəti göz önünə gətirmək olar. Bu baxımdan ABŞ-nin Cənubi Qafqaza gəlməsi ilə regionda vəziyyətin gərginləşəcəyini desək, yanılmarıq".

Deputat vurğulayıb ki, məhz ABŞ-nin Ermənistana hərbi dəstəyindən sonra yenidən silah səsləri eşidilməyə başlanıb. Təbii ki, Ermənistanın hər bir təxribatına adekvat cavab verilir. Amma bu atışmalar nə qədər davam edə bilər, deyə sual yaranır. Azərbaycan 30 il müharibə şəraitində yaşayıb, bu illər ərzində baş verən atışmalardan mülki əhali kifayət qədər zərər çəkib. Bu baxımdan çoxdan silah səsləri eşidilməyən şərti sərhədimizdə atəşkəsin pozulması yenidən narahatlığın yaranmasına səbəb olur. "Ermənistan ABŞ-nin təsiri altına düşən ölkələrdəki mövcud durumları təhlil etməli və qərar qəbul etməlidir. Əks halda onun aqibəti bu gün böyük faciələr yaşayan ölkələrdən fərqli olmayacaq. Azərbaycan təbii ki, öz hərbi gücünü artırır və gələcəkdə baş verə biləcək hər hansı təhdidə cavab verməyə tam hazırdır. Biz müharibəni görmüşük və müharibə meydanında möhkəmlənmişik. Bu baxımdan Ermənistana kimlərin necə kömək etməsindən asılı olmayaraq, biz öz təhlükəsizliyimizi qorumağa qadirik", - deyə deputat vurğulayıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




## "The Telegraph": Fransanın pensiya sistemi çökür

**Emmanuel Makronun keçən ay keçirilən seçkilərdə təhqir olunması onun flaqman pensiya islahatının sonu ola bilər. AZƏRTAC xəbər verir ki, bu barədə Britaniyanın "The Telegraph" qəzeti "Fransa pensiya sistemi çökür" sərlövhəli məqaləsində yazıb.**




Fransada keçirilən parlament seçkilərində Prezidentin 2030-cu ilə qədər minimum pensiya yaşının 62-dən 64-ə qaldırılması ilə bağlı olduqca mübahisəli siyasətinə düşməncə yanaşan ifrat solçu və ifrat sağçı qüvvələrin mövqeyi güclənib. Vətəndaşlar dövlət pensiyasını almaq üçün 43 il (hazırda 42 il) tam işləməli olacaqlar.

Makron hesab edir ki, dövlət pensiya sisteminin qorunması üçün islahatlar zəruridir, çünki Fransa əhalisi qocalır. Hazırda ölkədə 17 milyon pensiyaçı yaşayır ki, bu da 2004-cü illə müqayisədə dörd milyon nəfər çoxdur. Lakin bu siyasət Fransa seçicilərini hiddətləndirib, onlar qəti olaraq daha çox işləməməli olduqlarını bildiriblər. Fransada dövlət pensiya yaşı digər böyük Avropa ölkələri ilə müqayisədə aşağıdır. Almaniya pensiya yaşının 65-dən 67-yə qaldırılması prosesindədir. İtaliyada artıq 67 yaş təşkil edir.

Böyük Britaniyada dövlət pensiya yaşı 2028-ci ildə 66-dan 67-yə, daha sonra 2040-cı illərin ortalarında 68-ə yüksəlməlidir. Bu, Fransa siyasətində həm ifrat sağçı, həm də ifrat solçu partiyaların təqaüd yaşının nəinki eyni qalması, hətta aşağı salınması lazım olduğunu iddia etməsinə mane olmadı.




"Allianz Trade" sığorta şirkətinin parisli iqtisadçısı Maksim Darme hesab edir ki, bu dəyişikliklər ölkəyə 10 milyard avro ilə 60 milyard avro arasında ziyan vura bilər. Onun sözlərinə görə, bu, "nəhəng fiskal boşluğa" gətirib çıxaracaq, çünki Fransanın büdcə kəsirini 2027-ci ilə qədər ÜDM-in 3 faizindən aşağı - Aİ qaydalarına əsasən icazə verilən maksimum səviyyəyə salmaq üçün artıq 70 milyard avro qənaət edilib yığılan pul lazımdır.

2023-cü ildə Fransada büdcə kəsiri ÜDM-in 5,5 faizini təşkil edib ki, bu da Avropa zonasında ən yüksək göstəricilərdən biridir. Ölkə ÜDM-in 13,9 faizini dövlət pensiyalarına xərcləyir ki, bu da İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) orta göstəricisindən, demək olar ki, iki dəfə çoxdur. İƏİT-in məlumatına görə, Fransada pensiya yaşı ilə gözlənilən ömür uzunluğu arasındakı fərq kişilər üçün 27, qadınlar üçün isə 23,5 ildir ki, bu da bütün ölkələr arasında ən böyük göstəricidir.

Fransanın borc səviyyəsi ilə bağlı narahatlıqlar "Standard & Poor's" reytinq agentliyinin may ayında ölkənin kredit reytinqini aşağı salmasına səbəb olub. "Moody's" xəbərdarlıq edib ki, pensiya islahatları ləğv olunarsa, o da eyni hərəkəti edə bilər.

## Ermənipərəst senator Bob Menendez siyasi karyerasını başa vurur

**Amerikalı ermənipərəst senator Bob Menendez noyabrın 5-də keçiriləcək seçkilərə qatılmaqdan imtina edib.**



AZƏRTAC-ın məlumatına görə, 3 dəfə Demokratlar Partiyasından seçilən və cinayət məsuliyyətinə cəlb edildiyi üçün seçkilərə müstəqil namizəd olaraq qatılan Nyu Cersi senatoru namizədliyini geri çəkməklə bağlı müraciət edib.

Qeyd edək ki, Bob Menendez avqustun 20-si istefa verəcək. Seçkilərin nəticələri elan olunana qədər onu Nyu Cersi senatoru ofisində Corc Helmi əvəzləyəcək.

İyulun ortalarında Nyu York məhkəməsi amerikalı ermənipərəst senator Bob Menendezi rüşvətxorluq, maliyyə fırıldaqçılığı, ədalət mühakiməsinə mane olmaq və xarici agent kimi fəaliyyət göstərmək də daxil olmaqla ümumilikdə 16 maddə üzrə təqsirli bilib. Bu işdə senatorun həyat yoldaşı, erməni əsilli Nadine Menendez də ittiham olunub. Lakin onun məhkəməsi xəstəliyi səbəbindən qeyri-müəyyən müddətə təxirə salınıb.

2006-cı ildən Nyu Cersi ştatının senatoru olan Bob Menendez Konqresdə fəaliyyət göstərdiyi vaxtda federal agent kimi müttəhim kürsüsünə çıxarılan ilk senatordur. Bu, Menendezin Senatın üzvü olduğu təxminən 20 il ərzində onun korrupsiya ittihamı ilə üzləşdiyi ikinci federal cinayət işidir. Əvvəlki məhkəmə istintaqı hakim heyətinin hökm çıxara bilməməsi səbəbindən yalnız araşdırma ilə nəticələnib.




# Azərbaycan on minlərlə qonağı layiqincə qarşılayacaq

**Ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibi seçilməsi illərdir ki, həyata keçirilən uğurlu işlərin nəticəsidir. İndiyədək respublikamızda çox əhəmiyyətli beynəlxalq tədbirlər yüksək səviyyədə təşkil olunub. Həmin tədbirlərdə bütün bəşəriyyət üçün gərəkli olan mühüm məsələlərdən, qlobal problemlərdən danışılıb, müzakirələr, fikir mübadilələri aparılıb.**




Bu ilin noyabrında isə Azərbaycan dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən birinə - COP29-a evsahibliyi edəcək. Belə mötəbər tədbirin - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsi ilə bağlı yekdil qərarın verilməsi Azərbaycana böyük hörmətin, etimadın bariz nümunəsidir. Bu qərar həm də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulmuş ölkəmizin məqsədyönlü fəaliyyətinə verilən dəyərdir.

Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyib. 2030-cu ildən sonra üçün müəyyən olunmuş hədəf isə daha iddialıdır. Belə ki, 2050-ci ilədək istixana qazlarının miqdarının 40 faiz azaldılması nəzərdə tutulub. Bununla yanaşı, dövlətimizin başçısı İlham Əliyev işğaldan azad edilmiş torpaqları "yaşıl enerji" zonası elan edib.

Dünyanın diqqət mərkəzində olan COP29-a hazırlıq işləri ölkəmizdə böyük vüsət alıb. Artıq paytaxtın hansı istiqamətinə nəzər salsaq, mötəbər tədbirə hazırlıq işlərinin həyata keçirildiyini görərik. COP29-un minlərlə iştirakçısı olacaq. Bakı noyabr ayında bu beynəlxalq tədbirlə bağlı gələcək qonaqlarını da hər zaman olduğu kimi layiqincə qarşılayacaq.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev avqustun 16-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin altıncı iclasında Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29-a hazırlıq prosesinin bütün istiqamətlərdə davam etdiyini vurğuladı.

Prezident Administrasiyasının rəhbəri dövlət qurumlarının, COP29 heyətinin bundan sonra da var gücü ilə çalışmasının vacibliyini nəzərə çatdırdı.

Təşkilat Komitəsinin sədri noyabrın 12-13-də keçiriləcək Liderlər Sammitinə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəflərinə dəvətlər ilə bağlı tam inklüzivliyin təmin edildiyini bildirib.

Azərbaycanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında yeni maliyyə hədəfi üzrə mövcud fikir ayrılıqlarının aradan qaldırılması üçün səmimi səylər göstərdiyini bildirən Samir Nuriyev bu xüsusda iyulun 26-27-də müxtəlif ölkələrin nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində Şamaxıda qeyri-rəsmi məsləhətləşmələr kimi innovativ format təşkil edildiyini açıqladı. Diqqətə çatdırdı ki, Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında imzalanacaq "Ev Sahibi Ölkə" sazişinin yekun mətni tam razılaşdırılıb.

Azərbaycanın COP29 təşəbbüslərinin geniş ictimaiyyətə açıqlandığını, COP atəşkəsi və İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılması təşəbbüslərinin beynəlxalq müstəvidə daha çox diqqət cəlb etdiyini bildirən Təşkilat Komitəsinin sədri digər mühüm məsələlərə də toxundu. Məlumat verdi ki, Azərbaycan tərəfindən inkişaf etməkdə olan kiçik ada ölkələri üçün Texniki Yardım Fondunun yaradılmasına, "Azərkosmos" tərəfindən kiçik ada ölkələrində iqlim dəyişmələri üzrə layihələrin həyata keçirilməsinə dair anlaşma memorandumlarının avqust ayının sonlarında Millətlər Birliyi (Commonwealth) təşkilatı ilə imzalanacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# BMT: 2030-cu ilədək istixana qazı emissiyaları 42 faiz azalmalıdır

**"İqlim böhranı temperatur və hava modellərində uzunmüddətli dəyişikliklərə bağlıdır. Günəş aktivliyində dəyişikliklər və ya böyük vulkan püskürmələri səbəbindən müəyyən kataklizmlər təbii ola bilər.**



Amma 1800-cü illərdən bəri insan fəaliyyəti, ilk növbədə kömür, neft və qaz kimi qazıntı yanacaqlarının yandırılması səbəbindən iqlim dəyişikliyi daha dramatik hal alıb". AZƏRTAC xəbər verir ki, bu fikirlər BMT-nin rəsmi saytında dərc edilən son hesabatda yer alıb. Təşkilat qeyd edib ki, qazıntı yanacaqlarının yandırılması günəş istiliyini saxlayır və temperaturu yüksəldən, Yerin ətrafına bükülmüş yorğan kimi fəaliyyət göstərən istixana qazı emissiyaları yaradır.

BMT elmi tədqiqatlara müraciət edərək vurğulayıb: "Yerin atmosferində emissiya olunan qazların konsentrasiyası planetimizdə orta qlobal temperaturla birbaşa bağlıdır. Sənaye inqilabı dövründən bəri konsentrasiya davamlı olaraq yüksəlir və bununla yanaşı, qlobal temperaturlar da artır. İstixana qazlarının təxminən üçdəikisini təşkil edən ən çox yayılmış karbon dioksid ($CO_2$) əsasən qazıntı yanacaqlarının məhsuludur".

BMT-nin Ətraf Mühit Proqramı tərəfindən hazırlanan yeni emissiya qazları hesabatı 2015-ci ildə Paris Sazişinin imzalanmasından bəri irəliləyişin olduğunu müəyyən edir. Mövcud siyasətlərə əsasən, 2030-cu ildə istixana qazı emissiyalarına dair sazişin imzalandığı dövrdə onların 16 faiz artacağı proqnozlaşdırılırdı. Bu gün proqnozlaşdırılan artım 3 faizdir. Bununla belə 2030-cu ilə qədər proqnozlaşdırılan istixana qazı emissiyaları Paris Sazişinin 2 dərəcə Selsi temperatur həddi yolu üçün hələ də 28 faiz, 1,5 dərəcə Selsi hədəfi üçün isə 42 faiz azalmalıdır.

Alimlər bildirirlər ki, sənayedən əvvəlki səviyyədən 1,1 dərəcə Selsidən yuxarı olan qlobal istiləşməyə bir əsrdən çox müddətdə qazıntı yanacaqlarının yandırılması, habelə enerji və torpaqdan qeyri-bərabər, qeyri-davamlı istifadə səbəb olub. Bu, bütün dünyada təbiətə və insanlara təhlükəli təsirlərə səbəb olan ekstremal hava hadisələrinin tezliyinin və intensivliyinin artması ilə nəticələnib.

Hesabatda qeyd olunur ki, istiləşmənin artımı insan sağlamlığı və ekosistemlər üçün riskləri artıran daha intensiv istilik dalğaları, güclü yağışlar və digər ekstremal hava şəraiti kimi sürətlə artan təhlükələrlə nəticələnir. Bu, həmçinin iqlimlə bağlı qida və su ehtiyatlarının azalmasına səbəb olur. Göstərilən risklər pandemiya və ya münaqişələr kimi digər mənfi hadisələrlə birləşdikdə, bəşəriyyət üçün onları idarə etmək daha da çətinləşir.

BMT vurğulayır ki, mövcud uyğunlaşma ilə zəruri ehtiyaclar arasındakı boşluğu aradan qaldırmaq üçün bu onillikdə iqlim dəyişikliyinə adaptasiya üzrə sürətləndirilmiş fəaliyyət vacibdir. İstiləşməni sənayedən əvvəlki səviyyədən 1,5 dərəcə Selsi səviyyəsində saxlamaq üçün bütün sektorlarda istixana qazı emissiyalarının dərin, sürətli və davamlı azaldılması tələb olunur. 2030-cu ilə qədər istixana qazlarının atmosferə emissiyaları demək olar ki, yarıya qədər azaldılmalıdır.

# Səudiyyə Ərəbistanı biomüxtəlifliyin təmin edilməsi öhdəliyini təsdiqləyib

**Kral Əbdüləziz Elm və Texnologiya Şəhəri (KACST) və Milli Vəhşi Təbiət Mərkəzi tərəfindən təmsil olunan Səudiyyə Ərəbistanı genetik ehtiyatlar üçün rəqəmsal ardıcıllıq məlumatlarının istifadəsindən irəli gələn faydaların bölüşdürülməsinə həsr olunmuş açıq İşçi qrupunun Kanadanın Monreal şəhərində keçirilən iclasında iştirak edib.**




AZƏRTAC "Saudi Gazette" nəşrinə istinadla xəbər verir ki, KACST-nin vitse-prezidenti və Milli Biotəhlükəsizlik Komitəsinin sədri Bətul Bəaz Krallığın Dayanıqlı İnkişaf Məqsədlərinə və beynəlxalq çərçivələrə, sazişlərə və protokollara uyğun olaraq biomüxtəlifliyin itkisinin sürətini azaltmaq üçün beynəlxalq səyləri artırmaq öhdəliyini təsdiqləyib. O, həmçinin beynəlxalq ictimaiyyətin biomüxtəlifliyin itkisini azaltmaq və genetik ehtiyatlardan yaranan faydaların ədalətli şəkildə bölüşdürülməsini təmin etmək öhdəliyi götürməsinin zəruriliyini qeyd edib.

Təqdimatda Səudiyyə Ərəbistanının iqlim dəyişikliyi ilə mübarizə, həyat keyfiyyətinin yaxşılaşdırılması və gələcək nəsillər üçün ətraf mühitin qorunmasına diqqət yetirən "Yaşıl təşəbbüs" kimi biomüxtəlifliyin qorunub saxlanılmasına yönəlmiş milli səviyyədə səyləri və təşəbbüslərinin icmalı və Krallıqda genetik ehtiyatlar üzrə milli sistemin inkişafı istiqamətində aparılan işlərə toxunulub.

Səudiyyə Ərəbistanı iclasda ekoloji tədqiqat, inkişaf və innovasiya mədəniyyətini təşviq etmək öhdəliyini təcəssüm etdirən Milli Biotexnologiya Strategiyasını təqdim edib. Bu kontekstdə qlobal fondun yaradılması da daxil olmaqla, genetik ehtiyatlara dair rəqəmsal ardıcıllıq məlumatlarının istifadəsindən irəli gələn faydaların bölüşdürülməsi mexanizminin işlənib hazırlanması müzakirə olunub.

# "Yaşıl gələcək" adlı ekoloji layihə icra olunub

**Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi və "ASAN Könüllüləri" Təşkilatının təşkilatçılığı ilə "Yaşıl gələcək" adlı ekoloji layihə icra olunub.**




Gənclər Fondu tərəfindən həyata keçirilən "İdeyanı reallaşdır 2023" müsabiqəsinin qalibi Pərviz Səmədovun "Yaşıl gələcək" layihəsində Ağcabədi, Bərdə, Ağdam, Zərdab və Beyləqan rayonlarında yaşayan 20 gənc iştirak edib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, layihənin açılışı zamanı iştirakçılar Ulu Öndər Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzi meydanındakı abidəsini və Heydər Əliyev Mərkəzini ziyarət ediblər.

Doqquz gün davam edən layihənin "İnkişaf proqramı" çərçivəsində iştirakçılar üçün 5 günlük təlim-tədris mərhələsi keçirilib. Bu mərhələ zamanı "Ətraf mühitin qorunması" mövzusunda görüş və Ağcabədi rayonu ərazisindən keçən Qarqar çayının sahilyanı ərazisində təmizlik aksiyası təşkil olunub. "Sahibsiz dostlarımızı qoruyaq" mövzusunda görüş olub və Ağcabədi Regional "ASAN xidmət" Mərkəzi ilə birgə sahibsiz küçə heyvanları üçün yuvalar yerləşdirilib, yemləmə aksiyası keçirilib. Layihə çərçivəsində Ağcabədi Olimpiya İdman Kompleksinin fitnes-məşqçisi və fizioterapevti iştirakçılara "Sağlam həyat tərzi və sağlam qidalanma" mövzusunda maarifləndirici məlumat verib. 9 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin sektor müdiri ilə "Daha sağlam gələcək" mövzusunda görüş təşkil edilib. Gəncləri maraqlandıran ekologiya mövzusunda suallar cavablandırılıb. "Tullantılardan ev şəraitində səmərəli istifadə" devizi altında görüş keçirilib və iştirakçılar tullantılardan dekorativ əşyalar hazırlayıblar.

Layihə iştirakçılarının ekoloji standartlar barədə məlumat əldə etməsi, dünyagörüşün artırılması məqsədilə "Atena" MMC-yə ekskursiya təşkil olunub.

Növbəti mərhələdə layihədə iştirak edən gənclər Qarabağ Atçılıq Kompleksinə ekskursiya ediblər.

Həmçinin ekoloji problemlərin həllinə yönəlmiş "Eco-Tech" adlı hakaton keçirilib, 25 nəfər gəncin iştirakı ilə bərpa olunan enerji, tullantılardan səmərəli istifadə, su ehtiyatlarının qorunması, havanın təmizliyi, təbii fəlakətlər mövzularında müzakirələr aparılıb. Hakaton Ağcabədi Regional "ASAN xidmət" Mərkəzinin, 9 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin, Ağcabədi Peşə Məktəbinin rəhbərliyinin münsifliyi ilə baş tutub.

Layihənin bağlanış mərasimində iştirakçı gənclər və səmərəli fəaliyyətə görə nümayəndələr təltif ediliblər.

# COP29-da iştirak edəcək nümayəndə heyətləri üçün tarif portalı istifadəyə verilib

**Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirakını təsdiqləyən nümayəndə heyətləri üçün tarif portalını istifadəyə verib.**




"Report" xəbər verir ki, bu barədə COP29-un "X" sosial şəbəkəsində hesabında paylaşım edilib. "Portal COP29 zamanı nümayəndə heyətlərinə göstəriləcək xidmətlərin logistikasını və planlaşdırılmasını optimallaşdırmaq üçün yaradılıb. Bu portal tədbir üçün zəruri olan mebel, audiovizual avadanlığın və birbaşa yayım xidmətlərinin icarəsi variantlarını müqayisə etməyə, həmçinin logistika əməliyyatlarını daha rahat və mütəşəkkil şəkildə həyata keçirməyə kömək edəcək", - paylaşımda qeyd edilib.

# COP29 ərəfəsində ABŞ-də "yaşıl maliyyələşdirmə" üzrə Liderlər Sammiti keçiriləcək

**"Yaşıl maliyyələşdirmə" üzrə Liderlər Sammiti oktyabrın 11-də Vaşinqtonda keçiriləcək. Bu barədə "Report" Amerika-Azərbaycan Ticarət Palatasının (USACC) "X" sosial şəbəkəsində dərc olunmuş məlumatına istinadən xəbər verir.**



Paylaşımda palatanın USACC, ABŞ Ticarət Nazirliyi və Cons Hopkins Universitetinin "Bloomberg" Mərkəzi ilə "yaşıl maliyyələşdirmə" üzrə Liderlər Sammitinin iştirakçısı olmağa dair çağırış var.

Qeyd olunur ki, tədbir COP29 ərəfəsində təşkil olunacaq və mühüm ekspertlər və rəsmi şəxslərlə birlikdə dayanıqlı gələcək üçün maliyyə mexanizmlərinin araşdırılmasına həsr olunacaq.

Sammit Cons Hopkins Universitetinin "Bloomberg" Mərkəzində keçiriləcək.

# Meksika COP29-da iştirak edəcək

Meksika iqlim məsələləri üzrə beynəlxalq əməkdaşlığı təşviq etmək üçün BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) iştirak edəcək. "Report" xəbər verir ki, bu barədə Meksikanın xarici işlər nazirinin çoxtərəfli məsələlər və insan haqları üzrə müavini Hoel Ernandes "X" sosial şəbəkəsindəki hesabında bildirib.

Məlumata görə, o, Azərbaycanın Meksikadakı səfiri Məmməd Talıbovla görüşüb: "Meksika bu qlobal problemin həllində beynəlxalq əməkdaşlığın təşviqi üçün iştirak edəcək".

Səfir M.Talıbov öz növbəsində "X" sosial şəbəkəsindəki hesabında qeyd edib ki, o, H.Ernandesə dövlət başçısı İlham Əliyevin adından Meksika Prezidenti Klaudiya Şeynbaum Pardoya ünvanlanan COP29-da iştirakla bağlı rəsmi dəvət məktubunu təqdim edib.

# Qarabağ cəlbedici turizm məkanına çevrilir

**Qarabağ və Şərqi Zəngəzur tarixinin qədimliyi, təbiətinin əsrarəngizliyi və ələlxüsus da havasının saflığı, sularının, bitkilərinin şəfaverici olması ilə işğalaqədərki dövrdə də yerli sakinlərimizin və əcnəbilərin böyük ilgi göstərdiyi ünvanlardan olub. İşğaldan azad olunandan sonra bu ərazilərə insanların göstərdiyi maraq dəfələrlə çoxalıb. Gündən-günə Qarabağ və Şərqi Zəngəzura səfər edənlərin sayının artması isə təkcə bu yerlərin təbii gözəlliyinə görə yox, həm də xalqımızın hər bir üzvünün ürəyində müqəddəs yer tutmasına görədir.**



## Hər kəs Şuşanı görmək istəyir

Azərbaycan dövlətinin həyata keçirdiyi geniş quruculuq-bərpa işləri nəticəsində işğaldan azad olunmuş ərazilərdə həyat gündən-günə canlanır. Təkcə bir misal gətirək ki, hətta bu gün Şuşaya ayaq basan insanlar inana bilmir ki, cəmi bir neçə il əvvəl bu şəhər xarabalıq olub. Mədəniyyət paytaxtımızda görülən kompleks işlərin nəticəsində şəhərdə demək olar ki, hər yan abadlaşıb, Şuşa əvvəlkindən də möhtəşəm şəhərə çevrilir və gələn qonaqlarını heyran edir. Hər gün zəfər qalamızı yüzlərlə insan ziyarət edir və bu səbəbdən də Şuşanın məscidləri, tarixi, gəzməli-görməli yerləri, küçələri, hotelləri insanlarla dolub-daşır. Özü də təkcə azərbaycanlılar deyil, əcnəbi qonaqlar da böyük maraq və istəklə qədim şəhərimizə üz tuturlar. O da qürurverici məqamdır ki, Şuşa həm də ali qonaqların səfər etdiyi baş ünvan statusu qazanıb. Mütəmadi olaraq burada həm yerli əhəmiyyətli, həm də beynəlxalq tədbirlər keçirilir və mötəbər qonaqlar qarşılanır.

Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi zirvə toplantısında Qazaxıstanın, Özbəkistanın, Qırğızıstanın, Şimali Kipr Türk Cümhuriyyətinin prezidentlərinin, Macarıstanın Baş nazirinin, Türkiyə Respublikasının vitse-prezidentinin, Türk Dövlətləri Təşkilatının Baş katibinin, ümumiyyətlə, türkdilli dövlətlərdən olan xeyli mötəbər şəxsin iştirak etməsi də buna bariz nümunədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bir neçə dəfə mədəniyyət paytaxtımızın fəxri qonağı olub.

## Səfərlərin istiqamətləri genişləndirilir

Düşmən 30 il ərzində bu əraziləri mina tarlasına çevirib və bu səbəbdən də vətəndaşlarımızın o yerlərə səfər etməsində müəyyən məhdudiyyətlər var. Amma çox sürətli bir şəkildə həmin yerlər minalardan təmizlənir və lazım olan infrastruktur qurulur, mərhələli şəkildə qayıdış gerçəkləşdirilir. Həm də müvafiq olaraq Qarabağ və Şərqi Zəngəzura turlar təşkil olunur.

Prezident İlham Əliyevin tapşırığı ilə ilk olaraq 2022-ci il yanvarın 24-də Bakı-Şuşa-Bakı avtobus reysinin açılması ilə vətəndaşlarımızın Şuşaya mütəmadi səfərləri başladı. Sözügedən tarixdən Bakı-Ağdam-Bakı istiqaməti üzrə müntəzəm avtobus marşrutu da istifadəyə verildi.

Böyük qayıdış proqramının tərkib hissəsi olaraq Azərbaycan vətəndaşlarının işğaldan azad edilmiş ərazilərə səfərlərinin istiqamətləri genişləndirilir. Belə ki, bu il aprelin 27-dən etibarən vətəndaşlar fərdi minik avtomobilləri ilə Şuşa şəhərinə və Suqovuşan qəsəbəsinə getməklə bərabər, artıq Laçın şəhərinə də səfər edə bilirlər. Buna görədir ki, Şuşa və Laçın şəhərlərinə fərdi avtomobil ilə turist səfərlərinin sayında xeyli artım müşahidə olunur.

Antiterror tədbirləri nəticəsində azad edilən Xankəndiyə də bir müddətdir ki, turlar təşkil olunur.

Qarabağ və Şərqi Zəngəzurda aparılan kompleks bərpa və quruculuq işləri, dünyasəviyyəli hotellərin tikilib istifadəyə verilməsi də bu ərazilərə səfərlər üçün mühüm zəmin yaradır. Bu ərazilərdə iki beynəlxalq hava limanı (Füzuli və Zəngilan) istifadəyə verilib, Laçın Beynəlxalq Hava Limanı isə sürətlə tikilir. Bütün bunlar bölgəyə səfərlərin daha əlçatan olmasına xidmət edir.

Artıq Azərbaycanın milli aviadaşıyıcısı AZAL Qarabağa müntəzəm reyslərə başlayıb. Bakıdan Füzuli şəhərinə və əks istiqamətdə uçuşlar həyata keçirilir.

Göründüyü kimi, hər ötən gün marşrut istqamətləri genişləndirilir və vətəndaşlarımız rahat şəkildə Qarabağ və Şərqi Zəngəzura səfər edə bilirlər.

## Zəngin turizm potensialı

Azad edilən ərazilərimizə səyyahlar da böyük maraq göstərirlər. Məsələn, keçən ayın 25-nə olan məlumata əsasən, Vətən müharibəsindən ötən dörd il ərzində beynəlxalq səyahətçilər böyük qruplarla Qarabağa və Şərqi Zəngəzura 10-dan artıq səfər ediblər.

Mütəxəssislərin proqnozlarına əsasən, qarşıdakı illərdə Qarabağ və Şərqi Zəngəzura daha da böyük maraq yaranacaq və bu ərazilərə turist axınının olacağı gözlənilir. Buna səbəb isə həmin ərazilərin hərtərəfli turizm potensialına, məsələn, yay, qış, tarixi, mədəni, dini ziyarət, sağlamlıq turizmi və sair kimi imkanlara malik olmasıdır.

Bir sözlə, yaxın zamanlarda Qarabağ və Şərqi Zəngəzur nəinki ölkənin, hətta dünyanın ən cəlbedici turizm məkanlarından birinə çevriləcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# *Qazaxıstanlı politoloq:* "Azərbaycanın iqtisadi inkişafı region ölkələrini ticari və kooperasiya əlaqələrini genişləndirməyə sövq edir"

**Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında tərəfdaşlıq regionda davamlı inkişafın və təhlükəsizliyin möhkəmləndirilməsinə yönəlmiş uğurlu qarşılıqlı fəaliyyətin parlaq nümunəsinə çevrilir. Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Astanada keçirilmiş Mərkəzi Asiya və Azərbaycan Respublikasının dövlət başçılarının görüşü bu əməkdaşlığın vacibliyini bir daha vurğuladı.**



Qazaxıstanlı politoloq Zamir Karajanov AZƏRTAC-a müsahibəsində yuxarıda qeyd olunan format çərçivəsində nəqliyyat dəhlizlərinin inkişafı, iqtisadi inteqrasiya və enerji tərəfdaşlığı sahəsində əldə olunan əsas nailiyyətləri xüsusi qeyd edib.

*- Orta dəhlizin beynəlxalq ticarətdə daha cəlbedici olmasının səbəbi nədir?*

- Azərbaycanın strateji mövqeyi son iki ildə yükdaşıma həcmlərinin əhəmiyyətli dərəcədə artması ilə təsdiqlənir. Lakin onun əhəmiyyəti təkcə tranzit dəhlizləri ilə məhdudlaşmır. Azərbaycanın inkişaf etmiş iqtisadiyyatı region ölkələrini müxtəlif sahələrdə ticarət və əməkdaşlıq əlaqələrini fəal şəkildə genişləndirməyə sövq edir.

Azərbaycanın tranzit yükdaşımalarının inkişafına töhfə verən Orta dəhliz layihəsində iştirakı xüsusi əhəmiyyət kəsb edir. Geosiyasi gərginlik nəqliyyat marşrutlarının şaxələndirilməsinin zəruriliyini vurğulayır. Müəyyən dövrlərdə dəniz yollarından daha cəlbedici olduğu ortaya çıxan Orta dəhliz həmçinin konteyner daşımalarının sabitliyi və tarif siyasəti sayəsində beynəlxalq ticarət iştirakçıları üçün getdikcə daha cəlbedici bir seçimə çevrilir. Fars körfəzindəki vəziyyət və Süveyş kanalındakı problemlər bu marşruta tələbatı daha da artırır.

*- Dayanıqlı iqtisadi inkişafın və dünya bazarlarına çıxışın təmin edilməsində Qazaxıstanın dəmir yolu layihələrinin əhəmiyyəti və Azərbaycanın nəqliyyat təhlükəsizliyində rolu nədən ibarətdir?*

- Qazaxıstanda Çini Xəzər regionu ilə birləşdirən əlavə dəmir yolu xətləri tikilir. Söhbət təkcə yükdaşımalardan deyil, həm də onların həcmlərinin daha da artırılmasından gedir ki, bu da bizim maraqlarımıza uyğundur. Açıq okeana və dənizə birbaşa çıxışı olmayan bir dövlət olaraq, biz inkişafımızda əsas rol oynayan nəqliyyat əlçatanlığına xüsusi önəm veririk.

Azərbaycan nəqliyyat təhlükəsizliyinin təmin edilməsində və digər ölkələrin, o cümlədən qeyri-MDB ölkələrinin bazarlarına sabit çıxışın təmin edilməsində mühüm rol oynayır. Bu, ölkələrimizin rifahına və iqtisadi artımı saxlamaq imkanlarına birbaşa təsir göstərir və indiki şəraitdə xüsusi əhəmiyyət kəsb edir.

*- Azərbaycanla Qazaxıstan arasında ticarət dövriyyəsinin 1 milyard dollara çatdırılması məqsədinə nail olmaq ehtimalı nə qədərdir?*

- Bu gün fəal əməkdaşlıq mövcuddur ki, bu da yəqin ki, Azərbaycanın öz iqtisadiyyatının potensialından istifadə edərək Mərkəzi Asiyada gedən proseslərə inteqrasiya etmək istəyindən xəbər verir. Xüsusən 2023-cü ildə Azərbaycan ilə Qazaxıstan arasında ticarət dövriyyəsinin 500 milyon dolları ötdüyünü nəzərə alsaq, gələcək inkişaf üçün yaxşı perspektivlər yaranıb. Hazırkı məqsəd 1 milyard dollarlıq dövriyyəyə nail olmaqdır. Bu hədəf regional əlaqələrin və əməkdaşlığın gücləndirilməsi kontekstində kifayət qədər real görünür.

*- Qlobal geosiyasi qeyri-sabitlik şəraitində regional əməkdaşlığın gücləndirilməsi Mərkəzi Asiya ölkələri və Azərbaycan üçün hansı üstünlükləri və imkanları təmin edir?*

- Dünya qlobal geosiyasi turbulentlik fonunda Mərkəzi Asiya ölkələri və Azərbaycan üçün daha az proqnozlaşdırılan xarakter alır. Bu vəziyyətdə regionumuz üçün ən böyük sabitlik və etibarlılıq ən yaxın qonşularımızla sıx əməkdaşlıq şəraitində təmin edilir. Son illərdə regional əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirilir ki, bu da ölkələrimiz arasında iqtisadi artımın təmin edilməsinə töhfə verməklə yanaşı, davamlı inkişafa, iqtisadi təhlükəsizliyin gücləndirilməsinə şərait yaradır. Biz bilirik ki, Qazaxıstan xaricdən məhsul idxal edir, amma eyni zamanda onları region daxilində istehsal və emal edə, regional bazarlarını doldura, habelə özümüzü geosiyasi şoklardan qoruya bilərik.

Pandemiya zamanı sərhədlərin bağlandığı və karantinlərin bütün dünyada ərzaq tədarükünü məhdudlaşdırdığı bir şəraitdə qiymətlərin artması müşahidə olundu. Gələcəkdə analoji halların baş verməməsi üçün regional əməkdaşlığın və kooperasiyanın gücləndirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, ticarət dövriyyəsinin artırılması və yerli istehsalçıların dəstəklənməsi zəruridir. Eyni zamanda biz regionda rəqabət mühiti yaradırıq ki, bu da məhsulların keyfiyyətinin yüksəldilməsi və maya dəyərinin aşağı salınması üçün mühüm amildir.

*- Azərbaycan ilə Qazaxıstan arasında mövqelərin və ümumi maraqların üst-üstə düşməsi, eləcə də Azərbaycanın Qoşulmama Hərəkatındakı rolu regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə necə töhfə verir?*

- Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Astanada Mərkəzi Asiya ölkələrinin ardıcıl altıncı və ikinci məşvərət toplantısı keçirildi. Azərbaycanın belə tədbirlərdə iştirakı onun regiondakı mühüm rolunu vurğulayır. Ölkənizlə əməkdaşlığımız təkcə məşvərət görüşləri çərçivəsində deyil, həm də müxtəlif regional platformalar üzrə inkişaf edir ki, bu da qarşılıqlı fəaliyyətimizdə olan sabitlikdən və ardıcıllıqdan xəbər verir.

Azərbaycan Qoşulmama Hərəkatının üzvü kimi hazırkı şəraitdə həm qlobal, həm də regional vəziyyətə uyğun gələn mövqedən çıxış edir.

Son məşvərət görüşləri açıq şəkildə göstərir ki, Mərkəzi Asiya ölkələri regionda sabitliyin və təhlükəsizliyin təmin edilməsinə böyük əhəmiyyət verir. Bu kontekstdə Azərbaycan bizim üçün əlverişli tərəfdaşdır. Bir çox beynəlxalq platformada Azərbaycan və Qazaxıstanın ümumi maraqlarını əks etdirən mövqelərimizin üst-üstə düşdüyünü qeyd edirik.

*- Azərbaycan vasitəsilə Mərkəzi Asiya ölkələrindən Avropaya "yaşıl enerji" ixracı barədə nə deyə bilərsiniz?*

- Enerji sahəsində əməkdaşlıq geniş spektrə malikdir. Ənənəvi neft tədarükü ilə yanaşı, biz "yaşıl enerji"nin Azərbaycan vasitəsilə Avropaya ixracı imkanlarını nəzərdən keçiririk. Qazaxıstan bərpaolunan enerji mənbələri sahəsində əhəmiyyətli potensiala malikdir ki, bu da regionun enerji təhlükəsizliyini təmin etməklə yanaşı, ixracı da şaxələndirəcək.

Dünyada mütəmadi olaraq münaqişələr yaranır ki, bu da qlobal iqtisadiyyatı qeyri-sabit və gözlənilməz edir, habelə yüksək artım templərini qoruyub saxlamağı çətinləşdirir. Belə bir şəraitdə biz yalnız bir-birimizlə əməkdaşlığa və öz gücümüzə arxalana bilərik.

# Xəzər Media Forumunda "Xarıbülbül" festivalından bəhs edilib

**Azərbaycanın Rus İcması sədrinin birinci müavini, teleaparıcı Anastasiya Lavrina Rusiyanın Həştərxan şəhərində keçirilən Xəzər Media Forumu çərçivəsində "Mədəniyyətlərin dialoqu və dialoq mədəniyyəti" sessiyasında çıxış edib.**




AZƏRTAC xəbər verir ki, Lavrinanın çıxışının mövzusu hər il Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində təşkil edilən "Xarıbülbül" beynəlxalq musiqi festivalı olub.

"Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı dostluq və musiqi bayramıdır. Burada səslənən musiqi səsi xalqımızın adət-ənənələri ilə iç-içə olan zəngin tarixin əks-sədasıdır. Bu festival müasir dövrdə çox zəruri olan mədəniyyətlər arasında dialoqun inkişafında mühüm amilə çevrilib", - deyə Rus İcması sədrinin birinci müavini bildirib.

O, Xəzər Media Forumunun iştirakçılarına festivalın hələ 1990-cı ildə beynəlxalq status aldığı, amma Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı səbəbindən təxminən 30 il ərzində keçirilmədiyi barədə məlumat verib.

Lavrina vurğulayıb: "44 günlük Vətən müharibəsinin sonunda - noyabrın 8-də şəhərin işğaldan azad edilməsindən sonra Azərbaycan rəhbərliyi festivalın bərpası ilə bağlı mühüm qərar qəbul edib, çünki bu, mədəni mübadilə və mədəni irsin qorunması ilə bağlı aktual məsələlərin müzakirəsi üçün imkanlar yaradır. Festival dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin iştirak etdiyi dostluq və musiqi bayramıdır".

Azərbaycanın Rus İcması sədrinin birinci müavini çıxışının sonunda qeyd edib ki, Şuşa şəhərinin rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" festivalı həm də regionda bir növ sülh və sabitlik rəmzinə çevrilib, Qarabağı isə cəsarətlə mədəniyyətlərin və xalqların yaxınlaşdığı torpaq hesab etmək olar.

Avqustun 16-17-də Həştərxanda "Mədəniyyətlərin dialoqu Xəzər regionunun inkişafının əsasıdır" mövzusunda IX Xəzər Media Forumu keçirilib. Tədbirdə Azərbaycan, İran, Qazaxıstan, Türkmənistan, Moldova və Özbəkistandan olan qonaqlar da daxil olmaqla 750-dən çox nümayəndə iştirak edib.

# *Türkiyəli ekspert:* "Erməni kilsəsi Türkiyə və Azərbaycana münasibətdə yeni problemlərə zəmin yaradır"

**"Nikol Paşinyan hakimiyyətini tənqid edən erməni kilsəsi Ermənistanın bu gün düşdüyü ağır vəziyyətdən çıxması üçün heç bir yeni ideya irəli sürə bilmir. Kilsə erməni xalqının maraqlarını dəstəkləmək əvəzinə qonşu dövlətlərlə ikitərəfli münasibətlərdə daha böyük problemlərə zəmin yaradır".**

AZƏRTAC xəbər verir ki, bu fikri Ankara Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) analitiki Mehmet Oğuzhan Tulun səsləndirib.

Ekspert xatırladıb ki, 44 günlük Vətən müharibəsindəki məğlubiyyətdən sonra Nikol Paşinyanın hökuməti əvvəlki hakimiyyətin Ermənistanı regional əməkdaşlıqdan təcrid edən siyasətindən əl çəkmək kursunu götürüb.

AVİM-in analitiki kilsə ilə Paşinyan hökuməti arasında münasibətlərin 2018-ci ildən pisləşdiyini, 2023-cü ildən isə din xadimlərinin bir növ müxalif siyasi partiya rolunda çıxış edərək hakimiyyəti açıq şəkildə tənqid etməyə başladığını xatırladaraq deyib: "Paşinyanın bu istiqamətdə atdığı addımlar təkcə radikal müxalifət tərəfindən deyil, həm də erməni kilsəsi tərəfindən qəbul edilmir".

Tulun qeyd edib ki, kilsə nümayəndələri Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmaqdan imtina etməyi tələb edərək, Paşinyanın əleyhdarları ilə görüşlər keçirməyə başlayıblar.

Onun sözlərinə görə, İrəvanın Ankara və Bakı ilə dialoqu son nəticədə Ermənistanın mövcud sərhədlərinin məntiqi olaraq qəbul edilməsinə, "Qərbi Ermənistan" və 1915-ci il hadisələri ilə bağlı hər hansı xatırlatmanın rəddinə, Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi rəsmən tanınmasına və anklav əraziləri məsələsinin həllinə gətirib çıxarmalıdır.

Türkiyəli analitik qeyd edib ki, uzun müddət Ermənistan əhalisinin əksəriyyətinə Türkiyə, Azərbaycan, eləcə də Gürcüstan və İran ərazilərinin bir hissəsinin "ermənilərin tarixi torpaqları" olması barədə yanlış fikir aşılanıb. O vurğulayıb: "Birinci Qarabağ müharibəsinin nəticələri "güclü erməni xalqı" mifini təbliğ edirdi. İkinci Qarabağ müharibəsi bütün bu saxta iddiaları puça çıxardı, ermənilərin gözünü açdı, həmin məntiqsiz və dağıdıcı ideologiyaya son qoydu".




AVİM-in eksperti daha sonra qeyd edib ki, Nikol Paşinyanın "islahatları" yolunda Ermənistanın 1995-ci ildə qəbul edilmiş və 1990-cı il Müstəqillik Bəyannaməsinə istinad edən hazırkı Konstitusiyasının dəyişdirilməsi kimi çətin missiya dayanır. "Bəyannamə təkcə Azərbaycanın bütövlüyünü deyil, 1921-ci il Moskva və Qars müqavilələrini də rədd edir ki, bu da Türkiyə-Ermənistan sərhədinin tanınması deməkdir. Eyni sənəd Osmanlı dövlətində 1915-ci il "soyqırımı" uydurmasının təbliğinə də çağırır".

Ekspert qeyd edib ki, Ermənistanın Əsas Qanununda bu sənədə istinad mövcud olduqca, bu ölkənin Konstitusiya Məhkəməsi Türkiyə və Azərbaycanla ziddiyyətlərin həlli istiqamətində istənilən addımın qarşısını ala biləcək. Analitik bildirib ki, analoji vəziyyət 2009-cu ildə Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşmasına dair Sürix protokollarının nümunəsində özünü büruzə verib.

Erməni kilsəsi məsələsinə qayıdan analitik qeyd edib ki, Ermənistan ətrafında status-kvonun siyasi və hüquqi dəyişikliyi istiqamətində atılan istənilən addımlar təkcə bütün ermənilərin katalikosu II Qareginin deyil, həm də bütün türklərə nifrəti ilə tanınan Kilikiya katalikosu I Aramın kəskin narazılığına səbəb olub. O əlavə edib: "Erməni kilsəsinin nümayəndələri siyasətçilər kimi çıxış edərək, İrəvanın Ermənistanın regional təcridinə doğru kursunu dəyişməz saxlamağa çalışırlar ki, bu da Ankara və Bakı ilə danışıqlara təsir edir. İki ildən sonra Ermənistanda keçiriləcək seçkilər Paşinyanın rəqiblərinə dəstəyin səviyyəsini nümayiş etdirəcək".

Tulun əmindir ki, Türkiyə Ermənistanda hökumət əleyhinə son aksiyalara Daşnaksütyun partiyasına yaxınlığı ilə tanınan arxiyepiskop Baqrat Qalstyanın rəhbərlik etdiyini nəzərə alıb. Belə ki, həmin daşnaklar terrorçuları dəstəkləməklə və JCAG kimi qanlı təşkilatlar yaratmaqla tanınırlar. 1970-1980-ci illərdə həmin təşkilatın üzvləri dünyanın müxtəlif ölkələrində türk diplomatlarını qətlə yetiriblər. Bu baxımdan 1982-ci il yanvarın 28-də Türkiyənin Los-Ancelesdəki Baş konsulu Kemal Arıkanın qətlində təqsirli bilinən terrorçu Hampiq Sasunyanın da Qalstyanın tərəfdarları sırasında olması heç də təsadüfi deyil.

"Hökumətdən fərqli olaraq, erməni kilsəsinin nümayəndələrinin siyasi təcrübəsi yoxdur və bu da korafəhm siyasi addımların dəstəklənməsinə gətirib çıxarır. Onlar başa düşə bilmirlər ki, Ermənistanın düşdüyü çətin vəziyyətin əsas səbəbi əvvəlki hakimiyyətin səhvləri ilə bağlıdır", - deyə AVİM-in eksperti vurğulayıb.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 11 aprel (Cümə günü) tarixli 155-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 10 rəcəbül-mürəccəb sənə 1337.
11 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

### ELAN

1919 sənəsi şənbə günü aprelin 12-də gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının fövqəladə iclası olacağı elan edilir.

*T-99*

### ELAN

Çixotka [vərəm] ilə mübarizə edən "Qafqaz" cəmiyyətinin Bakı şöbəsi bununla elan edir ki, cəmiyyət tərəfindən icarəyə götürülmüş şəhər kupalniyasında [dəniz hamamında] müalicə üçün doktor Bəhram bəy Axundov nəzarəti altında isti vannalar açılmışdır. Doktorun telefon nömrəsi: 7-99, kupalninin telefonu: 22-87.

*8708*

### ELAN

Bununla bütün idarə və müəssisələrə elan edilir ki, Azərbaycan Hökumət mətbəəsi tərəfindən təqdim edilən surəti-hesabların (şotların) mətbəənin artelşiki [artelçisi] Əliağa Əlizadə tərəfindən mətbəə müdiri Kərbəlayi Vəli Mikayılov imzası ilə hər surəti-hesab üçün ayrıca təqdim ediləcək etibarnamələr üzərinə alınması etibar edilir.

*T-98*

### OPERA

Hökumət Teatrosunda
Axşam tamaşası
Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşları Müdiriyyəti
Cümə günü rəcəbülmürəccəb [mübarək rəcəb] ayının 10-da 1337 sənəsi (aprelin 11-də 1919-cu ildə) təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaq Üzeyir Hacıbəylinin yazmış olduğu məşhur **"Şah Abbas və Xurşidbanu"** operası.
Böyük musiqi dəstəsi, qızlar və oğlanlar xoru və balet.
Biletlər indidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 8-in yarısında.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*(keçən nömrənin axırı)*

**Əhməd Cövdət Pepinov** – Əfəndilər! Hər bir qanun ki Parlamandan keçir, onun barəsində bizim bir nöqteyi-nəzərimiz var. Görək bu qanunun camaata, füqərayi-kasibəyə nə qədər mənfəəti ola bilər. Onu mülahizə etdikdən sonra qanunu ya qəbul ya rədd ediriz. Yoldaşımızın söylədiyi həp bu nöqteyi-nəzərdən idi və Səməd ağa [Ağamalıoğlu] bu nöqteyi-nəzərlə Daxiliyyə Nəzarətinin layihəsinə səs verməyəcəyimizi söylədi. Fəqət məndən əvvəl söyləyən Daxiliyyə naziri cənabları buyurdular ki, indi qanunu tənqid etmək yersizdir, çünki Nəzarətin işləri qayda üzrə gedir və Azərbaycanda lazımi əmniyyət [asayiş] vardır.

Əfəndilər! Üsuli-idarə xüsusunda indiyə qədər iki nöqteyi-nəzər vardı. Əvvəlinci nəzər padşahların, çarların, soltanların yer üzündə Allahtaala vəkili olduqlarını iddia edərək üsuli-idarədə onların əmri yeriməyi lazım olduğunu və camaatın bilaqeydüşərt [qeydsiz-şərtsiz] onlara tabe olması lazım gəldiyini söyləyirdi. İkinci prinsip isə demokratizm əsası idi ki, bu fikrə görə bütün ixtiyar gərək camaat əlində bulunsun və üsuli-idarə camaatın istəyinə görə düzəlsin. Bizim yoldaşlar, sosialistlər indiyə qədər prinsip davası çəkirdilər. Birinci fikrin əsassız olub demokratizm fikrinin haqlı olduğunu isbat üçün dəlillər gətirirdilər. Fəqət Rusiya inqilabi-kəbirindən [böyük Rusiya inqilabından] sonra ki çarların, qeysərlərin, imperatorların taxtları sərnigun oldu [devrildi], birinci prinsip demokratizm selinin qüvvəti ilə süpürülüb ortalıqdan götürüldü. İndi bu saat dünya üzərində demokratizm əsasları artıq hökmran oldu və kimsə bunların əleyhinə çıxmağa cəsarət edəmməyir. Demokratiyanın, xalqın ziddində olanlar indi başqa bir yol götürmüşlər. Sözdə demokratizm əsaslarını etiraf və qəbul etməklə bərabər, işdə bunun əksinə gedirlər. Bu gün baxınız, dünya cahangirləri [imperi-alistləri] Lloyd Corc, Vilsonlar və arxadaşları dəxi demokratizmdən bəhs edirlər, xırda millətlərin müqəddəs haqlarından dəm vururlar. Fəqət işə gəldikdə Osmanlı məmləkətlərini, Rusiya və Avstriya torpaqlarını, Almaniya koloniyalarını kəndi aralarında təqsim edir [bölür] və oralarda ağalıq etmək istəyirlər. Bir çox adamlar, firqələr dəxi indi sözdə demokratizm əsaslarını qəbul edirlərsə də, işə gəldikdə bunun əksini işlətməyə çalışırlar. İştə, bu gün zikr etdiyimiz qanuna gəldikdə, biz də deyiriz ki, idarə məmurlarının aldıqları pul kifayət etməyir, məvacibləri gərək artırılsın. Fəqət qanunun mahiyyətinə bərəks [zidd] getməyiriz. Fəqət Daxiliyyə Nəzarətinin indiyə qədər işlətdiyi və camaat üçün fəlakətli olan siyasətinin əleyhinə gediriz. Biz də istəriz ki, administrasiya və polis idarələri qaydaya qoyulsun, düzgün olsun və məmurlar xalqın canını və malını təmin etsinlər. Fəqət, bu qanun layihəsini qəbul etməklə, bizim istədiyimiz təmin edilməyir. Çünki Nəzarətin siyasəti yenə əski qaydası üzrə qalır. Daxiliyyə naziri cənabları bizə isbat etməyə çalışdılar ki, polis nəfəratı arasında çox canfəda və vətənpərəstlər vardır. Hərgah doğrudan da çoxusu belə olsaydı, sözümüz yox idi. Fəqət, ayrı-ayrı canfəda fərdlər bulunmaqla bərabər, bir çox məmurlar da, pristavlar da var ki, öz qaradovoylarını yanına alıb gecələr çapqınçılığa gedir, xalqın evini soyur, başını kəsir. Bir çox polis nəfəratı şimdi böyük pullar sahibi olmuşlardır. Məsələn, Qazax uyezdinin başında olan polis naziri neçə ay bundan əvvəl heç bir şeyə malik olmadığı halda bu gün çapqınlığı və xəyanəti sayəsində milyonlar sahibi olmuş və Tiflisdə mülk üstünə mülk alır. *(Soldan alqış)* Bu kürsüdən dəfələrlə bu barədə danışıldı, Nəzarətə işarət edildi. İndi həman şəxs qazandığı pulları kafi görüb qulluqdan əl çəkmək istədikdə nazir cənabları istefasını qəbul etməyib "qal və çapqınlığında davam et" deyir. *(Soldan alqış)* Daxiliyyə naziri cənabları hökumətin istefasından sonra özünün liberal, hürriyyətpərvər bir şəxs olduğunu isbat üçün qubernatorların adına bir müraciətnamə sadir etmişdi [göndərmişdi] ki, orada idarə məmurlarının bir çoxunun yaramaz və əyri olduğunu göstərir və qubernatorlara əmr edir ki, polis idarələrini öylə adamlardan təmizləsin və düzgün məmurları qəbul eyləsin. Fəqət, əfəndilər, əvvəlcə dediyim kimi, bu bir gözəl nümayişdir və yazılanlarla nazirin tutduğu işlər bir-birinə təvafüq etməyir [uyğun gəlmir]. Nazir cənabları Nəzarət [Nazirlik] başına gəldikdə bu elannamə ilə başlamalı idi və onu həqiqətdə mövqeyi-icraya qoymalı idi, nəinki istefaya çıxdıqdan sonra. Baxınız, qubernatorlara polis idarələrini düzəltməyi əmr edərək və məsuliyyəti onların üzərinə qoyduğu halda, Zaqatalaya qubernator olmaq üzrə sizə və bütün Azərbaycana məlum olan Nikolayın köhnə məmurlarından öz rüşvətxorluğu ilə və qaçaqlarla əlbirliyi ilə məşhur olan bir zatı təyin edir. *(Soldan alqış)* Və bu zata, əfəndilər, tapşırır ki, idarələri düzəltsin, əyriləri çıxartsın və düzgün adamları qulluğa qoysun. Bu gülünc deyilmidir, əfəndilər? Nəzarət bizdən polis məmurları məvacibi üçün 60 milyon camaat pulunu tələb edir. Əlbəttə ki, veririk və bundan ziyadə verərik, fəqət bu şərtlə ki, camaatın əmin-amanda olacağı bizə məlum olsun. Nazir əfəndinin söylədiyinə görə, polis nəfərləri bu gün sərhədlərimizi düzəltmək kimi və kontrabanda [qaçaqmalçılıq] ilə mübarizə etmək kimi vəzifələrini görürlər. Kaş ki, böylə olsaydı. Fəqət, biz hamımız və bizimlə bərabər Nəzarət də bilməlidir ki, sərhəddə olan kontraband (qaçaq mal aparmağı) hamıdan ziyadə polis idarələri özləri edirlər və yaxud onların köməklikləri ilə olur. Bir vaxt var idi Gürcüstan sərhədində neft möhtə-kirçiliyi kontrabandası meydan almışdı. İndi neft əvəzinə çörək kontrabandası və möhtəkirliyi həman polis nəfərlərinin köməkliyi ilə davam etməkdədir. Əlbəttə ki, hər bir idarə içində olduğu kimi Daxiliyyə Nəzarətinin içində də pis adamlar, canilər, əyrilər ola bilər. Amma əgər Daxiliyyə Nəzarətinin siyasəti, sistemi düz olsaydı, Nəzarət böylə ünsürlər və adamlarla mübarizə edər və islaha çalışardı. Amma biz Nəzarətin siyasətində əksini görürüz. Həman yaramaz adamlar iş başında oturur. Heç bir tövr ilə onlardan xilas ola bilməyiriz. Çünki Nəzarət bunları bəsləyir, kömək edir.

Nazir cənabları buyurdular ki, əlbəttə o da demokratizm tərəfdarıdır və istər ki, polis idarələri bu əsas mövcibincə [bu prinsipə uyğun olaraq] şəhər və zemstvo idarələrinin [yerli özünüidarə qurumlarının] əlinə keçsin. Fəqət əfəndilər, bu da ancaq sözdür. Çünki işə gəldikdə, Nəzarətin başqa bir siyasət yürütdüyünü görürüz. Bakı Bələdiyyə İdarəsinin fəaliyyətini görürsünüz, get-gedə yatır və ixtiyarlar yavaş-yavaş "Sentrodom" [Mərkəzi Ev İdarəsi] denilən müəssisəyə keçir. Bunu anlayan indiki Duma öz fəaliyyətini ar tırmaq üçün sosialist firqələrinin Dumaya girməyini lazım bilib, bu barədə Dumanın qətnaməsinə görə bir layiheyi-qanuniyyə iki ay bundan əvvəl Daxiliyyə Nəzarətinə göndərmişdir. Fəqət Nəzarət təcili bir qaç günün içərisində buna baxıb Parlamana daxil etmək imkanında ikən bunu etməyib, indiyə qədər qanunu mahud altında saxlayır. Hökumətin qərarına görə, Daxiliyyə Nəzarəti yanında yeni bələdiyyə qanunu düzəltmək üçün bir komisyon təşkil olunmuşdur. Fəqət üç aydır ki, nazir əfəndi Nəzarət başında bulunduğu halda, indiyədək gözlənilən qəti bir tədbir görülməmiş, komisyonun işlərindən xəbər yox və bu qanunlar nə vaxt düzəlib gələcəyini söyləmək də pək müşküldür. Nazir əfəndi söyləyir ki, bu qanunlar yavaş-yavaş düzələr. Heç beşaltı aya bəlkə hazır ola bilməz. Mən zənn edirəm ki, heç altı ildən sonra Nəzarətə qalarsa, bu qanunları hazır edib çıxartmaz. Çünki Nəzarətin fikrincə, camaat hələ idarəyə hazır deyil, Nəzarətin idarəsi daha yaxşıdır. Köhnə Rusiyada da xalq idarəsi tələb edilərkən o zamanın Daxiliyyə naziri Protopopov inad etdi. Çünki o da zənn edirdi, camaat hələ hazır deyil. Axırda Rusiyada camaat qiyam edib, yeni idarə haqqını aldı. İndiki Nəzarətin yürütdüyü siyasət də böylə xalq mənfəətindən uzaq bir siyasətdir. Bu gün biz Azərbaycan istiqlalını müdafiə ediriz. Lakin lazımdır ki, bu müstəqil idarə içində xalq, füqərayi-kasibə qurulan idarədən razı olsun, onu saxlamaqda mənfəəti, interesi [marağı] olsun, ta ki sabahları bir təhlükə üz verdikdə həman camaatı müdafiəyə çağırmağa mümkünümüz olsun, haqqımız olsun. Nəzarətin bu siyasətindən isə füqərayi-kasibəyə ancaq zərər gəlir. Deməli ki, bu siyasət həm camaatın, həm dövlətin, həm hürriyyətimizin fəlakətinə səbəb ola bilər. İştə bunun üçündür ki, əsasən bəlkə də qanunun əleyhində olmadığımız halda, ancaq Nəzarətin siyasəti ilə razı olmadığımız üçün bizdən istənilən pulların verilməsinə səs verməyəcəyiz. *(Soldan alqış)*

**Məhəmməd Əmin [Rəsulzadə]** (Müsavat) – Bizim nöqteyi-nəzərimiz əvvəl başdan müəyyəndir. Bu kimi tənqidlər büdcə müzakirəsi əsasında olmalıdır. Meydandakı qanunu istəməyiriz demək və ağzı köpüklü, hökuməti Nikolay hökumətinə bənzətmək, hamınız bu xəyanətlərdə müqəssirsiniz deyə nəzakətdən xaric bir vəziyyət almaq, vəziyyəti anlamamaqdır. Bir halda ki, hər bir şey təzədən qurulur, Məclisi-Məbusan öz arasında bir neçəsini seçib nazir etmiş, yerdə qalanları da oturub özlərinə məbus demişlərdir, böylə bir halda öylə vəziyyət almaq ki, hər nə gəlirsə-gəlsin, qəbul etməyəcəyiz, doğru olammaz. Bunu Nikolay hökuməti zamanındakı şəkli-hökumət ilə əsasından düşmən olan qeyri-məsul müxaliflər yaparlardı. Onların hərəkətində məntiq də var idi. Əhməd bəy Pepinov dedi ki, zamanımız Nikolay zamanına oxşayır. Sonra bizə hökumətlər haqqındakı nəzəriyyələrdən bəhs eylədi. Hökumətin bir nöqteyi-nəzərdən müəyyəd minindillah [Allah tərəfindən dəstəklənən və yardım edilən], digər tərəfdən xalqdan doğma nəzəriyyəsi olduğunu anlatdı. İkinci nəzərin məziyyətini [üstünlüklərini], faydasını və ədalətə müvafiq olmasını da ayrıca anlatdılar. Burada Ağamalıoğluna bir nəzirə yaparaq bir anekdot xatırladım. Biz də bir hekayə söyləyəlim: Köylünün birisi kənddən şəhərə ərbaba pay gətirmişdi. O pay içərisində bir toyuq da var idi. Ərbab toyuğu almayıb dedi ki, apar sal qazana, tüklərini üt, təmizlə ver uşaqlar yesin. Kəndli təzimlə dedi ki, Allah xana ömür versin, yoxsa tüklü-tüklü yeyəcəkdik. İndi də Allah sosialistlərə ömür versin ki, hökumət haqqında müxtəlif nəzəriyyələr mövcud olduğunu bizə anlatdılar. Allah onlara həqiqətən ömür versin, yoxsa ki, biz bunu bilməyəcəkdik.

Daxiliyyə Nəzarətinin bir çox şayani-tənqid [tənqidəlayiq] cəhətləri vardır. Əsasən tənqid sırası olduğuna qane olsaydıq, biz də burada bir çox şeylər söylərdik. Fəqət, hər tənqid nəticə etibarı ilə mənfi və müsbət bir qərarı mövcib olmalıdır [bir qərarla nəticələnməlidir]. Müvəqqəti bir əlac olmaq üzrə Daxiliyyə Nəzarəti məmurlarının məvacibi artırılmasını lazım görürüz. Bu lüzumu kəsb etdirəcək [qazandıracaq] və bunu inkar etdirəcək tənqidatın yeri deyildir. Tənqid üçün tənqiddən bir şey çıxmaz. Mənfi cəhətləri tənqid edərkən, müsbət çarələr göstərməlidir. Biz tənqidatımızı büdcə müzakirəsinə buraxırız. Onlar tənqid etdilər, fəqət bir çarə demədilər. Çarələri yalnız pul verməyiz, məvacibləri artırmayız oldu. Ağa Əminov müxtəsər nitqində nə kimi əsaslı tədbirlər görülməsi lüzumunu göstərdi. Tənqid dövlət nöqteyi-nəzərindən olmalıdır. Yoxsa əlinə bir nizə alıb, bir arıq ata minib hər qaraltıya hücum etmək ciddi bir məbus işi deyildir. Burada erməni fraksiyası tərəfindən də danışdılar. Danışan natiq tənqidatında öylə yüngül və mitinqlərdə söylənən sözlərlə danışmadı. O, doğrudan da tənqid etdi. Onun tənqidi tənqidə oxşadı. Hökumət nöqteyi-nəzəri ilə bir çox şeylər söylədi.

Fəqət, sözünün əvvəlində bunu da dedilər ki, Rusiya inqilabı hürriyyəti-şəxsiyyə [şəxsiyyət azadlığı] əvəzinə Rusiyada sinif mübarizəsi, bizdə, Qafqaziyada dəxi sinif mübarizəsi ilə bərabər millətlər ixtilafı törətdi. Hürriyyəti-şəxsiyyə təmin olunacaqdı, əvəzinə şəxsin qiyməti endi. İnsan öhdədən düşdü. Buna misal olaraq Azərbaycan həyatından erməni vətəndaşlar haqqında vaqe olan hadisələrdən bir silsilə nümunə göstərdi. Onlardan bir çoxunun məsuliyyətini kəndi öhdələrinə buraxmaqla bərabər deyirəm ki, bunlardan bir qismi bəlkə də həqiqətdir, vaqe olmuşdur. Fəqət, bu hadisələr getdikcə azalmaqdadır. Bunu da qeyd etməliydi. Özləri dedilər ki, araya milli ixtilaf düşmüşdür. Bu ixtilafın nəticəsində ruhi bir xəstəlik hasil olmuşdur. Onun üçün bəzi "hadisə"lər zühuru qeyri-ixtiyari olaraq hasil olur. Söylədikləri milli mübarizənin qeyri-məmul [arzuolunmaz] hadisələri ara-sıra zühur edirsə, bu yalnız Azərbaycanda deyil, yeni təşkil olunmuş qonşu hökumətlərin hamısında vardır. *(Mərkəzdən alqış)* Mən bununla əlbəttə Azərbaycandakı hadisələri müdafiə etməyirəm. Yalnız deyirəm ki, görülən bu hallar, keçirmiş olduğumuz macərculuqlar [avantüristliklər] bir milləti digər millət əleyhinə salmaq kimi böyük anarxiya zamanının müəssif tərəkəsidir [təəssüf olunacaq mirasıdır]. Bütün aləm o anarxiyanın təsiri altında ikən birdən-birə qalxıb da Azərbaycanın bir anda cənnət olmasını istəmək, heç bir şey istəməmək deməkdir.

Bu hadisələrlə şiddətli mübarizə etməlidir. Hökumət öz vəzifəsini yaxşı görə bilmək üçün digər çarələrlə bərabər maaşların artırılmasını da lazım görür. Məmurların maaşlarının artırılmasına, qulluqçuların ruhiyyatını nəzərə alıb da müariz [zidd, qarşı] olmamalıdır. Maaş artırılmasına müxalifət etmək yalnız qeyri-məsul olan müxalifətin məntiqidir. Düşmənanə bir vəziyyət alıb da "bunu istəmirəm, bunu qəbul etmirəm" demək xeyirli olmaz.

Bunu da unutmamalıdır ki, böylə düşmənanə rəftar etdikləri hökumət Əhməd [Cövdət Pepinov] bəyin qorxduğu kimi zillullah tərəfindən deyil, tənqidçilər tərəfindən təşkil edilən hökumətdir ki, istədikləri zaman dəyişər. Nasıl ki, şimdi hali-istefadadır. Tənqid olmalı, fəqət gözü yumulu deyil, xeyirxahanə tənqid olmalıdır. *(Sağdan və mərkəzdən alqış)* Mən istərəm ki, məmurlar rüşvət almasın. Bir an əvvəl maaşların artırılmasını qəbul edirəm və deyirəm ki, biz bu paranı verdik, siz də istədiyimiz intizamı və asayişi bərpa ediniz. Bununla bərabər özüm də fəal olaram, işlərəm, komisyon iclaslarına gələrəm, layihələri hazırlaram. Və hökumətə tənqidlə bərabər o xüsusda kömək də edərəm. Yalnız mənfi tənqidlə hökumətə kömək eyləmək mümkün deyildir. Müsbət surətdə çalışmaqla da hökumətə kömək etməlidir. Yoxsa, yalnız Nikolay zamanını xatırlamaqla iş düzəlməz. Nikolay zamanında məhkum millətlər hökumətdən daima zülüm görmüş, ona görə də ruhlarında hökumətə qarşı daimi bir müxalifət xasiyyəti tərbiyə olunmuşdu. Bu ruhiyyətlə biz indi də xəstə kimi görünürüz. Hökumətə qarşı müxalifət bizim mühakimatımıza üskün [hakim] olur. Bu kürsüyə çıxıb məczubanə bir surətdə [dəli kimi] "Siz hamınız xainsiniz!" tərzində idareyi-kəlam edərək [danışaraq] müvazinədən çıxmaq və "Zəmanəmiz Nikolay zamanından da betərdir" demək, bu xəstə zehniyyətin məhsuludur. Halbuki Nikolay zamanındakı Rusiya ərazisi üzərində təşəkkül edən cümhuriyyətlər müqayisə edilərsə, Azərbaycan bəlkə intizamlısı və əmniyyətlisi çıxar. *(Alqışlar)*

**Sədr** – Məclisə davam ediriz. Rica edirəm yerlərinizi işğal edəsiniz. Məsaili-yövmiyyə [gündəlikdəki məsələlər] elan edilərkən iki məsələ unudulmuşdur. Birincisi, Azərbaycan hökuməti ilə Ermənistan və Gürcüstan hökumətləri arasında post-teleqraf münasibatı [əlaqələri] haqqındakı müqavilənamə. İkincisi, Məh-kəmeyi-Hərbiyyə təsisi haqqındakı layiheyi-qanuniyyə [qanun layihəsi]. Bir də tənəffüs vaxtı bəratülqövldən [protokoldan] aşina olmuşam ki, Camalbəyov öz nitqində hökumətə müraciətlə demişdir ki: "Rüşvətxorluqda və cinayətlərdə siz onlarla əlbirsiniz." Mən bu sözü eşitməmişəm. Parlaman adətində böylə şeylərə məhəl [yer] verilməməz. Əgər mən eşitsəydim gərək onu dayandıraydım. Ancaq şimdi nizamnaməyə görə mənə verilən ixtiyarla Camalbəyovu nizam və qaydaya dəvət edirəm. Növbədən xaric söz Əliheydər Qarayevindir.

**Qarayev** – Yoldaşımız Camalbəyovun danışığından fraksiyamızın xəbəri yoxdur. Binaənileyh [ona görə], Camalbəyovun öz sözlərinin məsuliyyətini fraksiyamız öz öhdəsindən atır.

**Camalbəyov** – Möhtərəm əfəndilər! Mən deyirəm, təkrar edirəm, hökumət bu işləri bilir.

**Sədr** *(onu dayandırır)* – Hərgah izahat vermək istəyirsəniz buyurunuz, yoxsa, həman sözü indi də başqa dürlü demək istəsəniz mən sizə söz verməərəm.

**Camalbəyov** – Mən onu demək istəyirəm ki, mənim hökumət əzasından [üzvlərindən] heç kəslə şəxsi qərəzim yoxdur. Mən o idarə ki var, onu tənqidə çıxmışdım, buna haqqım da var, həmişə də edəcəyəm. Fəqət ola bilər ki, hirs vaxtı nalayiq bir söz demişəm. Şimdi onun üzrünü istəyirəm. *(Gülüş və alqış)* Hökumətdə çox şey olur. Mən heç vaxt haqqaniyyətdən dönmərəm və deyəcəyəm. Fraksiyamız mənim sözlərimin məsuliyyətini öz öhdəmə buraxır. Onun ixtiyarı var hər şey etməyə. Ancaq mən proqramla rəftar etmişəm, onun ziddinə getməmişəm. Mənim hökumət əzası ilə, Daxiliyyə ya Baş vəzirlə qərəzim yoxdur və əgər onlara toxunan bir söz olubsa, geri götürürəm. Amma ümumiyyətlə hökumətdə çox şey var, deməklə qurtarmaz. Mən bunu həmişə deyərəm və dediyimi geri götürmərəm.

**Sədr** – Məclisi-Məbusan üzvü Yusifəli Əliyev tərəfindən bir kağız gəlmişdir ki, Parlamana seçildikdən sonra dövlət qulluğundan imtina edir. *(Ruscaya tərcümə edir)* Şimdi layihənin maddəbəmaddə oxunmasına şüru ediriz [başlayırıq].

Layihə maddəmaddə oxunaraq səsə qonulur və ikinci qiraətdə əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul edilir.

## TELEQRAF XƏBƏRLƏRİ

- İstanbuldan gələnlərin rəvayətinə görə də İngiltərədə iki milyon əmələ tətil edirmiş.

- "O. N." qəzetəsinin yazdığına görə Belçikada inqilab hərəkatı vardır. Belçika camaatının tələbi üzərinə kral Albert taxtından əl çəkib Belçikada cümhuriyyət üsuli-idarəsinə razı olmuşdur.

- Parisdən xəbər verilir ki, bütün Almaniyanı gəzmiş olan Fransa agentləri Almaniyanın ərzaq işlərini təhqiq etmişlərdir. Bunlar deyirlər ki, ərzaq işlərinin fənalığından Almaniyada gündən-günə bolşevizm tərəqqi edir. Agentlər Almaniyanın qayət böhranlı bir hal keçirdiyini anlatırlar. Ruslar nemeslərə şimdi başçılıq edirlər. Çox mümkündür ki, Almaniya və Rusiya bolşevikləri tez bir zamanda şərqi cəbhədə birləşsinlər. Hal-hazırda Hindenburq ordusu 200 mindən ibarətdir. Bu qüvvət Almaniyada bolşevizmi yıxa bilərdi. Fəqət bu şərtlə ki, bu qoşunlara bolşevizm sirayət etməmiş olaydı. Lakin Almaniyada ümid bəxş edən bir alay belə yoxdur. Almaniyada bolşevizmin sirayətini böylə təfsir [izah] edirlər:

Bolşeviklər almanlara hər növ ərzaq vəd edirlər. Fransa agentləri təklif edirlər ki, bilatəxir [təxirə salınmadan] almanlara lazım olan ərzaq yetirilsin. Bunsuz Almaniyada bolşevizmi yıxmaq mümkün olmayacaqdır. Bolşevizmə ikinci mühlik [öldürücü] zərbə Müttəfiqlərin bütün banklara Rusiya pullarını qəbul etməmələri barəsində əmr verməkləri olardı. Spartaklar hal böylə ikən pulsuz qalıb işdən aciz olarlardı. Almaniyanın fəal adamları hər bir şəraitə riza verirlər, tainki bolşeviklərin nüfuzu altına düşməsinlər. Almaniyada bolşevizmdən kənar olan ümum firqələr bəyan edirlər ki, Müttəfiqlərin bolşevizmi yıxmaq xüsusunda təcili yardımları fərzdir.

- Nyukasldа ərzaq işləri kontrolu [müfəttişi] Roberts məlumat verərkən demişdir ki, ona verilən ən mövsuq [inanılmış] və mötəbər xəbərlərə nəzərən Avropanın bir çox vüsətli oblastlarında [geniş vilayətlərində] ərzaq işləri qəmli bir haldadır. Romaniya, Serbiya, Avstriya, Almaniya əhalisi aclığa mübtəla olmuşlardır. Buna görə də bizim qarşımızda böylə bir məsələ vardır.

**Berlində**

Kopenhaq – Berlindən nimrəsmi [yarı-rəsmi] surətdə xəbər verilir ki, üsyan etmiş olan matroslar və milislər admiral idarəsində möhkəmləşib yeni sistem top və pulemyotla oranı müdafiə edirlərmiş. Hökumət qoşunları böyük topla imarəti atəşə basıb, nəticədə orada olanların bir hissəsi qaçıb, qalanları ağ bayraq qaldıraraq imarətdən çıxmışlardır.

- Berlindən verilən bugünkü xəbərlərdən anlaşılır ki, hökumət qoşunları spartakların hücumunu dəf etmişlərdir. Düşmənin qoşunları müsəlləh [silahlı] əmələlərdən, qaçmış saldatlardan, azad edilmiş hərbi əsirlərdən ibarətdir. Bunların əlində top, pulemyot, sol cinahdan düşmənlərin müxtəsər dəstəsi bir qədər irəliləməyə müvəffəq olmuşlarsa da, yenə püskürdülmüşlər. Günortadan sonra hökumət qoşunları bütün xətt boyu yürüşə keçib Kral tövləsində durmaqda olan milislər hökumət qoşunlarına hücum etmişlərdir.

- Berlindəki qəzetə müxbirləri deyirlər ki, spartaklara qarşı açılan hava müharibələri London və Parisə olan hücumlarından dəxi də şiddətli idi. Hökumət aeroplanları bombanı spartakların bürosuna tökürdü. Bunların yuvası bəzi ziri-zəminlərdə [yer altında, zirzəmidə] idi ki, neçəsini bomba təxrib eyləmişdir. 60 put vəzni [ağırlığı] olan bombalar tökürmüşlər. Hər iki tərəf zəhərli və gözdən yaş çıxaran qaz buraxırmış. Hərbi aeroplanlar qoşunları əvəz edib də spartaklarla mübarizə edən polis nəfəratına havadan azuqə töküb, böyləliklə onlara mübarizədə imkan verir və yardım edirmişlər.

## QƏZETƏLƏRDƏN

**La-Manş, Bosfor və Cəbəllüttariq tunelləri**

Palata dəvairində [dairələrində] danışırlar ki, hökumət kanal altında tunel inşasını qət eyləmişdir [qərara almışdır]. Bu işdən mənfəətdar olan fransız və ingilis dəmiryolları proje hazırlayırlar. Parlaman üzvü Kitl bəyan edir ki, Sülh Konfransının kiçik komissiyası projeni təsvib eyləmişdir [bəyənmişdir]. Belə ki, bu proje ilə tunelləri 5 ilə qurtarmaq olar və buna da 20 milyon para sərf ediləcəkdir. Komissiya Parisdə projenin maddələrini müzakirə edir. Hakəza [eləcə də], Bosfor və Cəbəllüttariq altından çəkiləcək tunelin də projesi müzakirə edilir.

- Müharibənin cavabdəhəndəliyini təhqiq və təftiş edən komissiya Şurada məlumat verərkən demişdir ki, şimdiki beynəlmiləl qanuna görə kayzer Vilhelmi mühakimə etmək mümkün deyildir. Hər nə qədər Vilhelmin təqsiri aşkar olsa belə, yenə məhkəməyə verilməsi imkan xaricindədir. Komissiya təklif edir ki, müharibəyə bais olanları mühakimə üçün bir tribunal təşkil edilsin.

**Foşun dakladı**

Almanyanin tərk-silah edilməsi barəsində Lloyd Corcun mülahizatı və təklifi haqqında marşal Foş Ali Şurayi-Hərbiyyəyə bir məruzə təqdim etmişdir. Təklif ondan ibarətdir ki, Almaniya yüz mindən ziyadə tüfəng altında qoşun saxlaya bilməsin. Foş bu əqidədədir ki, ərkani-hərb [hərbi qərargah] heyətini əksiltmək qışlalarda [kazarmalarda] yaşayan adamların ədədlərini əksiltməkdən daha məqul [ağlabatan], daha münasibdir.

**Amerikalılar və ingilislər**

Bakıda olan Erməni Məlumat Bürosu xəbər verir ki, Tiflisdəki İngiltərə nümayəndəsi mötəbər bir şəxslə müsahibə əsnasında demişdir ki, ingilislərin Qafqazı tərk edəcəkləri haqqındakı şayiələr əsilsizdir. Sərhəd məsələlərinə gəldikdə, bu məsələlər əvvəlcə Sülh Konfransında həll edilməlidirlər. Hal-hazırda hansı vilayətlərin türklərə, gürcülərə, ermənilərə və qeyrilərə çatacağını bilmirik. Buna görə bir oblastın [vilayətin] bir əldən digər bir ələ verilməsi üçün heç bir tədbir görmək və davam edən sərhədləri dəyişmək olmaz. Hər halda heç bir müsəlləh müsadiməyə [silahlı toqquşmaya] və ya türklərin ermənilər üzərinə hücum etməsinə yol verilməyəcəkdir. Türkiyə ordusu hələ tərxis edilməmişdir. Bunun üçün bir neçə ay vaxt lazımdır. Türkiyənin gələcək sərhədləri təyin edildikdən və Sülh Konfransı qərarları məlum olduqdan sonra türklərin nə miqdar əsgər saxlamağa haqları olduğunu biz təyin edəcəyiz. Bu qərar üzrə müəyyən oblastları türk əsgərlərindən təmizləmək üçün vaxt lazımdır.

Qafqaziya məsələlərindən məlumatlı bir şəxs sifəti ilə bir para işlər haqqında məruzədə bulunmaqdan ötrü bu yaxınlarda Makdonald Parisə gedəcəkdir. İngilislər hal-hazırda şəraiti-məhəlliyəyə [yerli şəraitə] aşina olmaqdadırlar. İngilislərin getməsi haqqında bu axır vaxt şaye olan [yayılan, söylənən] xəbərlər Şotlanda və ingilis əsgərlərinin Hindistan və Malay əsgərləri ilə əvəz edilmələrindən nəşət etmişdir [irəli gəlmişdir]. Buraya nə qədər əsgər varid olarsa [gələrsə], bir o qədər də İngiltərəyə gedir. Qafqaziyada olan əsgərlərin miqdarı artacaqdır. İngilislər Amerika ilə Fransanın qərarına görə bu yaxınlarda Türküstanı öz əsgərlərindən təmizləyəcəklərdir.

**Batum oblastı əhvalı**

Məlum olduğu üzrə, türklər getdikdən sonra Batum oblastı [vilayəti] hökuməti həqiqətdə İngiltərə komandanlığı əlinə keçdi. İngiltərə komandanlığı Batum oblastını idarə etməkdən ötrü məhəlli [yerli] türk, gürcü və rus əhalisi nümayəndələrindən ibarət bir Şura vücuda gətirmişdi və müsəlman əhali bu Şuranı qəbul etməyir və tabe olmayırdı. Bu Şurada Rusiya sabiq qulluqçularından general Maslov sədarət [sədrlik] edir. Şura sədri, Denikin ordusu ilə daimi münasibatda olub oradan binagüzarlıqlar [sərəncamlar] almaqdadır. Əvvəlcə Şura geniş bir ixtiyara malik idi, sonra İngiltərə əsgərləri artdıqca, Şura yox dərəcəsinə varmışdır. Hal-hazırda Şuranın ixtiyarı xeyli məhdud bir hala salınıb, heç bir binagüzarlıq ingilislərsiz həyata tətbiq edilməyir. Məhəlli əhalinin, xüsusən gürcülərin Şuraya olan münasibatı mənfi bir surətdədir. Şəhər idarəsi davam edir.

**Əhməd bəy Ağayev cənablarının İstanbulda tövqifi**

İstanbuldan əxirən [son vaxtlarda] aldığımız cəmadiyəlaxir tarixli qəzetələrin yazdığından vətəndaşımız möhtərəm Əhməd bəy Ağayev cənablarının İstanbulda "İttihad və Tərəqqi" cəmiyyəti əzası [üzvü] sifəti ilə tövqif [saxlandığını] və həbs edildiyini təəssüflə bildik. Bu qəzetələrdən "Sabah" qəzetəsi kimi xaricilər pulu ilə nəşr edildiyi "sifətindən" görünən "İstanbul" qəzetəsi Əhməd bəyin tövqifini yazarkən mümaileyh [haqqında danışılan şəxs] əleyhində şiddətli bir lisan qullanaraq yazır ki:

*"İttihadçıların ağıl hocalarından "Tərcüman" qəzetəsi sərmühərriri-sabiqi [sabiq baş redaktoru] Əhməd bəy Ağayev dün tövqif və padaşları [yoldaşları, məsləkdaşları] yanına isal olunmuşdur [göndərilmişdir]. Bu adam Doktor Nazimin adamlarından olub, Qafqaziyanı fəth və müxəyyəl [xəyali, xəyala gətirilən] Turan xanlığını təsis etmək havasını Ənvərlərin, Tələtlərin, Camalların qabaq qafalarında əsdirən və zoraki bir tabeiyyət iqtisabı ilə [vətəndaşlıq əldə etməklə] məbus sifətilə Məclisi-Məbusan əzalığına, darülfünun müdərrisliyinə [universitet müəllimliyinə] intixab [seçilmiş] və elan edilmiş dövlətçulardandır. Şimdiyə qədər tövqif edilmiş olmaması heyrəti mövcib olurdu [heyrətə səbəb olurdu]. Elani-hərbə təqəddüm edən [müharibə elan edilmədən əvvəlki] həftələr zərfində "Tərcüman"a yazmış olduğu təhrikamiz [təhrikedici] məqalələr, Karahisar [Afyonkarahisar] məbusu rusiyalı Ağayevin hərbə düxulumuz [daxil olmağımız] xüsusunda nə mühüm amil olmuş olduğuna şəhadət [şahidlik] etməkdədir."*

Başqa qəzetələrin yazdığına görə İstanbulda olan Azərbaycan vəkili və müməssilləri [nümayəndələri] Əhməd bəyin təxlisi [xilası] və həbsdən azad edilməsi haqqında hökumət nəzdində bilvasitə [başqalarının vasitəçiliyi ilə] təşəbbüslərdə bulunmuşlarsa da, cavabi-rədd almışdırlar.

Hal-hazırda Türkiyədə yeni Kabinə Damad Fərid paşa Kabinəsidir ki, bunun ilk fəaliyyəti "İttihad və Tərəqqi" əzalarını tutub həbsə almaqdan ibarətmiş. Bu Kabinə "Hürriyyət və Etilaf" partiyasına mənsubdur.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Quyu qazan müəssisələrə istiqraz açmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Maliyyə Nəzarətinə icazə verilsin ki, məhəlli Dövləti Bank vasitəsi ilə neft quyusu qazan müəssisələrə fəhlələrin fevral ayı məvaciblərini vermək üçün istiqraz açdırsın. Məvaciblər, ittifaqlar və yaxud bu vaxtadək verilən qayda üzrə verilməlidir. İcarə ilə quyu qazan müəssisələrə fevral ayı ikinci nisfi [yarısı] üçün veriləcək məbləğ 300 min rublədən artıq olmamalıdır.

- Daxiliyyə naziri müavininin Balaxanı və Sabunçu süvari polis atlarından ötrü ələf almaq üçün məbləğ təxsisi [ayrılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə Nəzarətinə tapşırılsın, fövqəltəhrir [yuxarıda qeyd edilən] polis üçün hökumət təhti-ixtiyarındakı 20 milyon fonddan onun ixtiyarına verilmiş məbləğdən 13 min rublə versin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

**Məsai Nəzarətində**

- Maliyyə Nəzarəti Məsai [Əmək] Nəzarətinə müraciətən rica etmişdir ki, 27 dekabr 1918-ci sənə və 28 fevral 1919-cu sənə qanunu mövcibincə [qanununa əsasən] veriləcək maaşlara aid əlaqələr Maliyyə Nəzarətinin Xəzinə şöbəsinə göndərilsin.

- Sabiq Biçeraxov ordusu avtokoloniyası xidmətçiləri Məsai Nəzarətinə məvaciblərinin verilməsi barəsində lazımi binagüzarlığın [sərəncamın] bulunmasını rica etmişdilər.

- Məsai Nəzarəti Vükəla Şurasına [Nazirlər Kabinetinə] müraciətən rica etmişdir ki, avtomobillər təqsim edilən [paylanan] müəssisələrdən xidmətçilərə 497.820 rublə məvaciblərinin verilməsi barəsində lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Kəsbkarlar İttifaqı [Həmkarlar İttifaqı] Şurası, Məsai Nəzarəti vasitəsi ilə Ərzaq Nəzarətinə müraciətən məlum etmişdir ki, Zaqafqaziya, Dağıstan və Zakaspi Kəsbkarları İttifaqlarının Qurultayı açıldığı üçün 150 nəfərədək gələn nümayəndələr üçün 1 put 20 girvənkə qənd və 2 girvənkə çay buraxılsın.

- Quliyev dəyirmanı müdiriyyəti Məsai Nəzarətinə məlum etmişdir ki, aprelin 8-də dəyirmanda tətil başlanmışdır. Müdiriyyət məlum etmişdir ki, tətilçilərə tətil günləri məvacibi verilməyəcəkdir. Əlavə, tətilçilər iki günə öz işlərinə başlamazlarsa, o vaxt xidmətdən kənar edilmiş hesab ediləcəklərdir. İxtilafı bərtərəf etmək [aradan qaldırmaq] üçün Məsai Nəzarəti tərəfindən Rəhim Hüseynov cənabları oraya göndərilmişdir.

- Bu gün saat 5-də Məsai Nəzarətində xüsusi müşavirənin iclası təyin edilmişdir. Baxılacaq məsail [məsələlər] bunlardır:

1) Kəsbkarlar İttifaqı layihəsi;
2) Fabrika və zavod komitələri layihəsi.

- Kəsbkarlar İttifaqı Məsai Nəzarətinə müraciətən məlum etmişdir ki, neft dairələri fəhlələri İttifaqa müraciətən rica etmişlər ki, pasxa bayramı münasibətilə onlara nisan ayı ikinci nisfinin [yarısının] məvacibi nisanın 20-dək verilsin. Mümkün olmazsa, o vaxt həman ayın maaşı – ki 360 rublədir – o vaxtadək verilsin.

- Kəsbkarlar İttifaqı Məsai Nəzarətinə məlum etmişdir ki, Nobel Qardaşları mədənləri fəhlələrinin məvacibləri bu vaxtadək verilmədiyindən naşi [ötrü] fəhlələr miyanında [arasında] ixtilaf əmələ gəlmişdir. İttifaq rica etmişdir ki, bu barədə lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Məsai Nəzarətinin yurist-konsulu [hüquq məsləhətçisi] dava vəkili Lutski Könüllü ordu ilə əlaqədə bulunduğundan dolayı xidmətdən əzl edilmişdir [qovulmuşdur].

- Məsai Nəzarəti Vükəla Şurasına müraciətən məlum etmişdir ki, Zaqafqaziya dəmiryolları xidmətçiləri Moskva dekreti mövcibincə [əsasında] 8.039.512 rublə 97 qəpik təfavütü [fərqi] almışlardır. Vladiqafqaziya dəmiryolları xidmətçiləri isə 1.207.197 rublə 94 qəpik təfavütü bu vaxtadək almamışlardır. Məsai Nəzarəti rica etmişdir ki, Azərbaycan dəmiryollarındakı xidmətçilərin hamısına təfavüt verilsin.

## BAKIDA YAŞAYAN İRAN TACİRLƏRİNƏ XİTAB

Qarun həlak şod ke çehel xane gənc daşt
Nuşirəvan nə mord ke name neku qozaşt

*(Sədi)*

İnsan övladının qəribə hallarından biri də budur ki, böyük bir müsibətə mübtəla olarkən, yaxud özünü böyük bir fəlakətin qarşısında görərkən öz həmcinsindən, həmvilayətindən daha doğrusu yardım istər, istimdad [kömək] gözlər, mübtəla olduğu dərdlərinə qəm şəriki axtarar. Amma öylə ki, müsibətindən nicat tapıb asudəliyə çıxdı, müruri-zamanla [vaxt ötdükcə] başına gəldiyi fəlakəti fəramuş eylər [yaddan çıxarar]. Axırda da özgə fəlakətzədələrin halı buna təsir etməz, ürəyini də yandırmaz. Bu bir haldır ki, hamıdan artıq bizim müsəlman əhlində olur. Məəttəəssüf [təəssüf ki], bizim İran əhlində də və ələlxüsus tüccar qismində artıq dərəcədə müşahidə olunur.

Mart hadisatında bolşeviklərə qoşulmuş iranlı neçə nəfər, çarnaçar [zorla, istər-istəməz] konsulxananı təsərrüfünə alaraq [əlinə alaraq, öz iradəsinə tabe etdirərək] İran tacirlərinə də olmazın əziyyət və azarı yetirirdi. Tacirlər bilməyirdilər ki, nə çarə qılsınlar.

Bir gün Hacı Şeyxəli karvansarasına yığılaraq məni də oraya dəvət etdilər. Bir çox müşavirə və müzakirədən sonra məndən rica və təmənna etdilər ki, İran tacirlərini İran bolşeviklərindən müdafiə edim. Bunun müqabilində mənə müavinət və imdad vədələrini verdilər. Bu ağır vəzifəni mən də öhdəmə götürdüm. Tüccar əhlini yüz cürə təcavüzatdan qurtardım. Lakin türklərin nicatından sonra Bakı müsəlmanları ilə bəhəm İran tacirləri də asayişə çıxdılar. Bir neçə nəfər bolşeviklərin pənceyi-qəhrindən [qəhredici pəncəsindən] xilas olaraq öz keyfə-mayəşaları [öz kefləri] ilə, öz məşğuliyyətləri ilə yaşayıb geridə qalmış möhtacların da halını unutdular. Ağalarımız kamali-gərmagərm ilə [qızğın surətdə] ticarətə məşğul olub, biçarə İran füqərasının heç də halına qalmayırlar.

Bakıda yaşayan İran füqərasının halı öylə müşkül bir haldır ki, xaricilərin belə ürəklərini dağdar edir [dağlayır, yandırır]. Küçələrdə işsiz gəzən avaralara iş verən yoxdur. Acından meydanlarda yıxılanlarına çörək verən və ölənlərini də dəfn-kəfn edən [kəfənləyib basdıran] yoxdur.

Bakının Mərkəzi Ev Komitəsinin rəyasəti xaricilər əlində olarkən, həman xaricilər İran yetimlərini küçələrdən yığıb onların pərəstarlığı üçün [onların qeydinə qalmaq üçün] Cəmiyyəti-Xeyriyyədən adam istəyirlər. Bəs hanı bizim döşünə döyən millətpərəstlərimiz, qırx günlərlə imam ehsanı verən ağalarımız? Onların pulları böylə böhranlı günlərdə xərclənməyəcəkdirsə, bəs haçan xərclənəcəkdir? Allahın qəzəbindən qorxmayırlarmı ki, bir gün bolşevik bəlası kimi yenə bir bəlaya düçar olsunlar?

Ay yarımdır ki, cəmiyyət işlərindən kənar olmuşam, çünki mənə yardım edən olmadı. Bu vaxta qədər də füqəranın işləri ilə məşğul olmaq qəsdinə düşən heç kəs tapılmadı. İran füqərası yenə avara, yenə sərgərdan...

Bu günlərdə Ağa Seyid Həsən (içərişəhərli) cənabları gəlib yenə xəbər verdi ki, təşrihxana [ölülərin yarıldığı yer] ətrafında bir xeylaq iranlı meyitləri atılmışdır. Mən də oraya gedib gördüm ki, on iki nəfər İran füqərasının meyitləridir ki, sahibləri kəfən ağı tapmayaraq dallarında gətirib oraya tullamışlardır. Pərvərdigara! Məgər bunlar gəbərmiş, murdar olmuş heyvanlardır ki, meyitləri çöllərə, məzbələlərə [zibilxanalara] atılmışdır? Bu hal məni ağlatdı. Biçarə İranlı, gör nə günə qalmısan ki, qərib ölkədə acından ölürsən, sadə bir kəfən də sənə qismət olmayır, amma həmşəhrilərin Bakıda milyonlar qazanırlar, ali imarətlər alırlar.

Bizə məlumdur ki, İran tacirlərindən möhtərəm Hacı Müseyib Həsənov cənabları İran füqərasının nəfi [xeyri] üçün məccanən [pulsuz] bez (bəyaz) [ağ, parça] paylayır. Buna qarşı Həsənov əfəndiyə izhari-təşəkkürlə bərabər, bunu da qeyd etməliyəm ki, əvvəla Hacı cənabının bu fədakaranə təşəbbüsatı füqəranın qismi-əzəminə [çoxuna] məlum deyil. İkincisi, məlum olsa da, xeyrat sahibinin mənzilini, məkanını bir çoxu tapa bilməyir. Üçüncüsü də, füqəraya paylanacaq bezdən bir-iki top qalmışdır. Bu qurtarandan sonra biçarə füqəra kimə müraciət etsin? Məgər ehsan vermək üçün Bakıda yalnız bir Həsənovmu layiqdir? Həsənov kimi Bakıda yüzlərcə İran sərvətdarları vardır. Bunlar neyçün millət füqərasından üzlərini döndəriblər?

Neçə ay füqəra işlərinə məşğul olaraq ticarət aləmində qazandığım maddi və mənəvi nüfuzumu itirdim. Bakı tüccari-mötəbəranından [mötəbər tacirlərindən] Musa bəy Əmircanov həzrətləri buna şahiddir. Aramızda şərakət [ortaqlıq] olduğu cəhətə o cənab bilir ki, bəndə füqəra yolunda nə işlər görmüşəm. Daha imkanım yoxdur. Hərgah imkanım olsaydı, Allah şahiddir ki, yenə bu yoldan qaçmaram.

İndi milyon qazanmış ağalar bir qədər mülahizə etsinlər ki, bu küçədə acından ölənlər, kəfənsiz dəfn olunanlar onların süd qardaşlarıdır, qan qardaşlarıdır, din qardaşlarıdır. Hər tacir ayda bir kəfən versə, bir yetimin məxaricini öhdəsinə alsa, yəqin ki, bir bu qədər xaricilər nəzərində xəcalət çəkmərik. Dəryalardan bir qətrə götürməklə dəryalar qurtarmaz, möhtaclar da acından ölməz.

Bakıda yaşayan İran tacirlərinə axırkı təklifim budur: Qardaşlar! Yığılın bir təavün [yardımlaşma] cəmiyyəti düzəldin. Qəriblikdə acından ölən əhli-vətəninizə də bir çarə edin. Yoxsa öylə bir gün meydana çıxa bilər ki, şol vaxt sizin "çehel gəncləriniz" [qırx xəzinəniz] sizə kömək edə bilməz!

İndi özünüz bilin! Vəssalam.

*Ağa Məhəmmədcəfər İsfahani*

*Ədəbi sütunlar*

## BAHARIN İLHAMLARI VƏ İCTİMAİ RƏMZLƏR

**- 2 -**

Ey pərdeyi-mənhusda qalmış güli-zində!
Ey dəfn edilən canlı ikən örtü içində!
Söylənsə səzadır sənə: "mədfuneyi-ziruh",
Daim sənə mail, sənə mail dili-məcruh.
Bir atəş olaydım da, yaxaydım o niqabı,
İştə şu niqabı, şu hicabı, şu səhabı!
Parlardı o gün gülşəni-rüxsareyi-alın,
Qərq eylər idi yurdumuzu nura camalın!
Sənsiz olamaz nəş'əti-üxra bu vətəndə,
Sənsiz yaşamaz tairi-xanəndə çəməndə!
Sənsiz bu vətən gülşəni-rövşən olamaz heç,

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 11 aprel (Cümə günü) tarixli 155-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Tabanü-dirəxşan olamaz, şən olamaz heç.
Ey canlı çiçək, örtünü at, ruyini göstər!
Bir cənnəti-hürriyyətə dönsün də bu yerlər,
Biz də olalım əhli-behişt, ey üzü cənnət,
Artıq yetər, artıq yetər, artıq bu əziyyət!
Şərq aləmi sənsiz əbədiyyən görəməz nur,
Ey çöhreyi-fəyyaz olan, ey dilbəri-məstur!
Ey canlı işıq, canlı günəş, tərki-səhab et!
Artıq yetər, ey "Nuri-cahan", tərki-niqab et!
Sən çöhrəni aç, bən olayım bülbülün, ey gül,
Şe'rim də təbəssüm edəcək, ey gözəlim, gül!
Sənsiz açamaz millətimin, bil ki, baharı,
Gizlətmə, "Səmənrüx", o behiştanə üzarı!
Güllər açılır – iştə bu qanuni-təbiət,
Ya sən nə üçün pərdədə, ey gönçeyi-cənnət?!
Ey gönçeyi-cənnət, açıl, ey huriyi-səhhar,
Olsun vətənim çöhrən ilə qərqeyi-ənvar.
Sənsiz bu vətən görməyəcək nəş'əti-üxra,
Ey pərdeyi-müzlimdə qalan "Zöhreyi-Zəhra!"

*Bakı*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

## HAQSIZ TƏCAVÜZLƏR

"Naşe vremya" qəzetəsinin fevral 22, nömrə 44 sütununda haqsız olaraq Göyçay uyezdində "Ermənilər nə suratlə məhv edildi?" sərlövhəsi ilə qaralamış olduğu qara fikirli qəzetə, yazısıyla qərəzkar bir vəziyyət almışdı. Zatən bu kimi fikirlərin ətrafından bir dəqiqə ayrılmayan qəzetə bu dəfə meydani-ələniyyətə [aşkarlıq meydanına] yenə maskası ilə çıxdı. Qəzetə hər nədənsə vüquatı [hadisəni] layiqi ilə tədqiq etməmişlər. Öz yırtıcı sənətinin əksini [şəklini] İvanovka mahalı müsəlmanlarında görmüşlər. Cayi-təəssüfdür [təəssüfə layiqdir]!

Bu xüsusda vazeh [açıq] məlumat verirəm. Bədbəxt Şamaxı vüquati-əliməsindən [kədərli hadisələrindən] sonra sönən minlərcə ocaqlar, viran olan xanimanlar, hətk edilən [tapdalanan] irz və namuslardan sonra Göyçay ilə həmhüdud olan Şamaxı qəryəsi [kəndi] İvanovkada inqilabdan sonra rahat yaşayan sakin... erməni qonşularımız arasında bir "hüsn-nəticə" olmaq mülahizəsi yavaş-yavaş kəndlərdən gəlib keçən müsəlman qonşularını "ovlamaq" surətini aldı. Bir-iki həftə ərzində Şamaxıdan alınan əmrlər üzərinə olmalı ki, pulemyot atışları ilə İsmayıllı, Quşençə, Diyallı, Talıstan, Qalınçaq, Həftəsov, Aşıqbayramlı, Nüydü, Dahar, Kürd, Mollaishaqlı kəndlərinə birdən-birə hücum edib, çılpaq vəhşiyanə bir surətdə ancaq ailəsini qurtarıb min müşkülatla nisfi [yarısı] qonşu gülləsinə hədəf olub qırılan müsəlman əhalisi dağlarda, meşələrdə otlar yeyib dolandılar. Bu vüquatı [hadisələri] "Naşe vremya" mühərrirləri çox yaxşı bilirlər, zənn edirəm.

Əmirov və Hamazasp kimi "qəhrəmanlar" bu vaxtda Kürdəmir və İvanovka mahallarına hakim olub, özləri Neron timsalında bu yolda kəsilmiş, tullanmış müsəlman qonşularının cəsədləri arasında gəzinib çubuqlarını havaya sovururlardı.

Bu cəsədləri görüb də, etdikləri səfil hərəkatlarından çirkinməyib də, bərəks [əksinə] olaraq yenə müsəlmanların özlərinə qarşı yalandan nə üçün iftira edirlər? Göyçay uyezdinə son zamanlarda hökumət tərəfindən göndərilən heyəti-təhqiqənin [təhqiqat heyətinin] övraqını, vəsiqələrini [materiallarını, sənədlərini] əcəba görmədilərmi? Biz öylə həqiqətlər biliriz ki, yazıb da millətin ruhunda həyəcan oyandırmaq istəməyiriz.

Ən nəhayət, neçə müddətlər dağlarda soyuqdan, aclıqdan məhv olan İvanovka müsəlmanlarını türk qardaşları xilas etdilər. Buna həmişə ədayi-şükrandan [təşəkkürlərini bildirməkdən, layiqincə təşəkkür etməkdən] acizdirlər.

İvanovka müfrəzə [hərbi dəstə] komandanı Əhməd çavuş guya "meşələrə qaçıb gizlənən erməni vəhşi cəngavərlərinə 'türk hökuməti sizə donuz əti göndərmişdir, gəlin aparıb yeyiniz' elanını [eşidən] safdil [sadəlövh] donuz düşkünü erməni saldatları gəlib apardıqları zaman qırdırılmışdır." Şaşaram böylə məntiqsiz yazı yazan "dühaya"!

Bir də qəzetə yazır ki, nəüzübillah, ikinci bir hakimi-mütləq İvanovka erməni qırğını hazırlayan Süleyman əfəndi və Sirac əfəndilərdir. Əvvəla bilmirəm ki, qırılan ermənilər kimlərdir. Bakıya Şamaxı yolu ilə türklərin hücumu əsnasında qaçıb gələn ermənilərdirmi və yaxud da məzkur [adları çəkilən] əfəndilərin evlərində hər gün onlarca çörək yeyən erməni fəqirləri və arvadlarmıdır? Bu hal hələ davam etməkdədir. "Naşe vremya" gedib istəsə özü görə bilər.

Yuxarıda bildirdiyim kimi, erməni məzalimi [zülmləri] xüsusunda yazı yazmaq lazım gələrsə, cildli kitablar yazmaq mümkündür. Həm də haqlı və dəlil ilə. Halonki [halbuki], böylə çirkabla dolu tariximaziyə baxmaq istəmirik. İzzəti-nəfsimizi hər şeyin fövqündə tuturuz. Köhnə ədavəti təzədən körükləmək istəyən ağalar əmin olsunlar ki, hər iki tərəfli zərərli çıxarlar. Qara fikirli "Naşe vremya" maskasını birdəfəlik götürsün, fikrini söyləsin. Yoxsa illərcə bir yerdə yaşamış qonşu millətlər arasını zəhərlə-məkdən çəkinməzlərsə, axırda ona deyəcəyimiz söz bu olacaqdır: "Azərbaycan mühitində sadiq təbəələrə yerimiz vardır." Yalnız onlar yaşaya biləcəklərdir. Bu xüsusda artıq şey yazmayacağam.

*Hacı Hüseyn Əfəndizadə*

## ƏLƏKBƏR BƏYİN MƏRASİMİ-DƏFNİ

Gəncə bu günlərdə böyük bir müsibət gördü. [Rəfibəyli] Ələkbər bəyin Gəncəsi Ələkbər bəyini itirdi. Bu böyük cənabı dünyalar durduqca xatirində saxlamaq üçün mərhumun təşyeyi-cənazə [cənazənin yola salınması] günü olan 3 nisanda bütün mənası ilə şəhərimiz bir qara bayram saxladı. Gəncənin 31 Mart qurbanlarına və mərhum Ələkbər bəyə göstərdiyi hörmət təqdir ediləcək bir hörmət oldu. O günü bütün məktəblər, hökumət idarələri tətil etdi, çarşı qapandı.

Mərhumun evi bulunan küçə saat 11-ə doğru insanla doldu. Saat 11-də möhtərəm cənazə Qurani-kərim avazı içərisində omuzlara çıxdı, ağır-ağır cameyə doğru yürüşə başlandı. Gəncənin gözü görməyən bir izdihamla cənazə namazı qılındı. Bu namazda iştirak edən hər möminin qəlbini üzündən oxumaq mümkün idi. İmam əfəndi: "Allahümmə innə lanə'ləmu minhə illa xeyrən" buyurduğu vaxt ərəbcə bilən möminlərin gözləri yaşardı.

Həqiqətən müsəlmanlar mərhumdan xeyirdən başqa bir şey görmədilər. Namazdan sonra Bələdiyyə rəisi Ələsgər bəy [Xasməmmədov], mərhumu Bələdiyyə Şurasının 22 illik fəal bir üzvü sifətilə haziruna təqdim edib dedi ki: Ələkbər bəy mərhum bu 22 ildə iki və ya üç dəfə ancaq iclasdan qalmışdır. Böylə fəal bir üzvünü qeyb edən Bələdiyyə Şurasının dərdi ölçülməz dərəcədə böyükdür, dedi.

Bələdiyyə rəisindən sonra Pişnamazzadə həzrətləri mərhumun son dəqiqələrini təsvir edib, son sözlərini millətə yetirdi və mərhumun yeganə oğlu Xudadad bəy [Rəfibəyli] və əqrəbaları tərəfindən maarif işlərinə və məktəblərə sərf olunmaq üçün 40 min manat ehsan etdiklərini xəbər verdi.

Bundan sonra cənazə alayının rəsmi çıxarıldı, məzarlığa doğru yola çıxıldı. Yol uzunu mərhumun cənazəsini matəm əlaməti olan qara bayraq deyil, bir sifəti-milli [olan] Azərbaycan bayrağı təşyi [müşayiət] edirdi.

Bələdiyyə binası önündə alay durdu. Bir daha fotoqraf alındı. Bələdiyyə Şurasının erməni üzvləri və məmurları tərəfindən vəkil olaraq Şahnəzərov başsağlığı verdi. Son nitqlər məzarlıqda söylənmək üzrə yola çıxıldı.

Yenə eyni ehtiram və izdiham içərisində möhtərəm cənazə məzarlığa yetişdi və Rəfibəyli ocağına məxsus kümbədin önündə yerə qoyuldu. Burada bir çox natiqlər tərəfindən mərhumun tərcümeyi-halı və xidmətinə dair sözlər söyləndi. Natiqlərdə böyük bir səmimiyyət gözə çarpmaqdaydı.

Söz söyləyən natiqlər bunlar idi: Gəncə Türk Müəllimləri İttifaqı namına Abbaszadə Mirzə Abbas, Parlaman əzası [üzvü] Nuxu və Zaqatal nümayəndəsi Abdulla bəy Əfəndizadə, Ağdaş Milli Komitəsi nümayəndəsi, Erməni Milli [Şurası] nümayəndəsi, yəhudi nümayəndəsi xanım Derkovskaya, sənətkarlar və ruhanilər namına Baratzadə, Türk Mütəəllimlər [Tələbələr] İttifaqı tərəfindən Bəhram Məlikzadə və "Müsavat"ın Mərkəzi Komitəsi və Gəncə şöbəsi naminə Ə[hməd] Cavad.

Bu nitqlərdən sonra Pişnamazzadə həzrətləri mərhumun son sözlərini bir daha təkrar etdi.

Bu nitqlərə və başsağlıqlarına cavabən doktor Xudadad bəy [Rəfibəyli] natiqlərdən və əhalidən razılıq etdi və dedi ki: Babamın vəfatını, göstərdiyiniz hörmət unutduracaq bir dərəcəyə gəldi. Cənabi-Allah bütün millət, vətən yolunda ölənlərin ruhunu şad etsin. Vətənimizi və istiqlalımızı qurtaran Osmanlı ordusunun bizlərə əmanət buraxdığı şəhidlərin qəbrini Cənabi-haqq nurlarla doldursun.

Artıq son "Fatihə" mərasimi icra edildi. Torpağı üçün bu qədər zəhmətlər çəkən vücud torpağa tapşırıldı.

Cənazənin üzərində edilən vədlərə qalarsa, millət mərhuma bir "abidə" rəkz etmək [heykəl qoymaq] marağına düşmüşdür. Allah bütün xeyir işləyənlərə rəhmət eyləsin.

*[Əhməd] Cavad*

## KONFRANS

**Krım nümayəndəsi Ədhəm Feyzi əfəndinin mühazirəsi münasibətilə**

**- 1 -**

"Müsavat" firqəsinin təşəbbüsü ilə fəhlələrin mənfəəti, inkişafı üçün tərtib edilən mühazirə keçən şənbə günü Krım Parlamanı nümayəndəsi Ədhəm Feyzi əfəndi tərəfindən Balaxanıda oxunacağı "Azərbaycan" qəzetəsi ilə elan edilmişdi. Elandan xəbər alan fəhlə qardaşlar o günün müəyyən vaxtını səbirsizliklə bək-ləmişlərdi. Natiq daha Balaxanıya ərişmədən Balaxanı teatrosu qabağı fəhlələrlə dolmuşdu.

Natiq gəldikdə teatro zalı açıldı. Yavaş-yavaş içəri doğru hərəkət edildi. Natiqlə bərabər bir qaç möhtərəm kişi səhnədə yerləşmişlər və ardı-arası kəsilmədən gələn fəhlələri bir ləhzə [bir an, az müddət] daha bəkləməyə qərar vermişlərdi. İstifadələri üçün tərəf-tərəf mədənlərdən [bütün mədənlərdən, hər yerdəki mədənlərdən] gələn, yetişən fəhlə qardaşlarla o geniş zal ağzına qədər dolmuş, yer kifayət etmədiyindən bir xeylisi də ayaq üstündə qalmışdı.

Prezidium seçildikdən sonra rəis, "Krım Parlamanı nümayəndəsi sifəti ilə şəhərimizi təşrif edən və sonra fəhlə qardaşlarına istifadəli şeylər söyləməyi kəndisinə milli bir vəzifə bilən möhtərəm müsafirimiz Ədhəm Feyzi əfəndini sizə təqdim etməklə şərəflənirəm" deməsi ilə şiddətli alqışlar arasında möhtərəm natiq sözə başladı:

"Hörmətli qardaşlar!

Siz zəhmətkeş qardaşlarımın bugünkü şu canlı ictimasında [yığıncağında] "Müsavat" firqəsi tərəfindən haləti-vaxta münasib bir mühazirə oxunması mənə təklif olunduqda, bu təklifi mən pək böyük bir istəklə qəbul etmişdim. Bu istək pək yerində idi. Çünki onun mənə ruhani bir məhzuziyyət [mənəvi bir həzz] verəcəyini və bu məhzuziyyət məndə unudulmaz bir xatirə buraxacağını daha o vaxtdan kəsdirmişdim [bilmişdim]. Netəkim də öylə oldu. Onun üçün mən bu dəqiqədə kəndimi bəxtlilərdən sayıram. *(Sürəkli alqışlar)*

Sevimli yoldaşlar!

Sizə mühazirə oxumağı acizanə üstümə aldığım zaman sizin yaşayışınız, keçinişiniz gözümün önündə canlanmışdı. Canlanmışdı da, məndə iş (трудъ) ilə sərmayə (капиталъ) haqqında söz söyləmək məcburiyyətini meydana atmışdı. Ondan ötrü bugünkü mühazirəmizi bu bəhslər təşkil edəcəkdir.

Bilirsiniz ki, yaşamaq istəyən hər varlığın mütləq bir işi olacaq, çalışacaq və onunla yaşaması sağlanılacaq. Bu, yaşayışın təbii bir qanunu, bu qanunun dışında qalacaq canlı bir varlıq ağlımıza sığdırammayız. Misal olaraq, nəbatatdan ötrü çiçəkləri, ağacları alalım. Bunların toxumunu yerə atdığınız, əkdiyiniz vaxt lazım olan sıcaqlığı (isti), yaşlığı bulan toxum çox keçməz bəslənməyə başlar. Sonra o qatı torpağı dələrək nəfəs almaq, həyat bulmaq üçün havaya, ziyaya can atmağa çalışar. Böylə keyiflə yaşayışını yoluna qoymağa savaşar.

Kiçik, böyük heyvanlar da böylədir. Bir hörümçək avını [torunu] hörər, ovlanar. Bir qarınca rizqini daşır, yuvarlar. Bir tülkü, bir qurd da yenə böylə ormanı, dağı axtarar, ovlanar. Bu uğraşmalar həp o yaşayışın sövqü ilə olur-bitər. İnsan da bu təbii qanundan dış [xaric] qalammaz. Ehtiyacını, gərəyi təsviyə etmək [aradan qaldırmaq] üçün daima çalışar, savaşar. Bunlar həp birər "iş" deməkdir. İşi işləyənə biz "işçi" deyiriz. Gördüyümüz ehtiyaclarımıza sərf etdiyimiz məhsullar, mətalar həp o işçilərin işləri, çalışmaları ilə meydana gəlmişdir. Yerinə görə işçilərin işləri, xidmətləri zəhmətli olduğu üçün onlara burada "zəhmətkeş" adı da verilmişdir. Bu pək doğrudur. Faydalanmaqdan ötrü işlənən hər işin az-çox bir zəhməti, çətinliyi vardır. Gündəliyi qazanmaq, rizqini əldə etmək üçün kürək çəkən bir qayıqçının halı ilə zövq almaq üçün kürək çəkən bir kimsənin halı əlbəttə bir olammaz. O hal birincisinə zəhmətli bir şey ikən, ikincisinə zövqlü, həzzli bir şey olmuş olar.

Sosialistlər işlərdəki bu zəhməti zövqə, həzzə çevirmək istəyirlər. Vaxtilə Furye nam [adlı] kimsə iləridəki cəmiyyəti bəxtli etmək istəmiş və demiş: Bugünkü cəmiyyət haqsız, ədalətsiz təşəkkül etmiş. Onun üçün işlər zorluqla, çətinliklə görülür. Bununla bərabər bunu qolaylaşdırmaq, məhzuziyyətə qəlb etmək [həzzə çevirmək] güc bir şey deyildir. İşin törənməsi, az davam etməsi, rəqabət hissi oyandırılması və sairə bu iddanı təmin edə bilər. Əzcümlə [o cümlədən], XVI Luinin kilid (qıfıl) yapmaqla ləzzət alması bu qəbildəndir.

Anlaşılır ki, işi həyat, sərmayəni də iş doğurmuşdur. İbtida [əvvəla], insan ehtiyacı dəf etmək üçün ovçuluğa sövq olunmuş, havada quş, suda balıq tutmağa yeltənmiş [çalışmış, can atmış], bunun üçün də alət, qayıq, ağ [tor] edinmiş [əldə etmiş], bu edinilən şeylər ona birər sərmayə olmuş.

İlk cəmiyyətdə sərmayə və məhsul ayrı kimsələrin deyil, mənsub olduqları cəmiyyətlərin, qəbilələrin idi. Şəxslərin mülk sahibi olmaları sonraları təğəllüb [zorakılıq, zorla qəsb etmək] yolu ilə olmuş, yol almışdır. Sosialistlər iştə bu ibtidai halı arzu etmədədirlər.

Mülk sahibi olmaq əsası qurulduğu dəqiqədən etibarən şəxslər əllərində sərmayələr birikdirməyə çalışmış və o birikdirilən sərmayələr də bir mərkəzə toplanmağa başlamış. Sərmayənin, sənayenin bu halı ötədə-bəridə qalan işçiləri, kəndiləri üçün çalışan kiçik sənətkarları həp çəkmiş, toplamış. Bu surətlə sərmayədarlarla işçilər bir araya gəlmiş və yığılmış.

Mənfəətləri ayrı-ayrı olan bu iki ünsür təbiətilə [təbii olaraq] çarpışacaqlardı. Arxalarını imperialist ruhlu hökumətlərə verən sərmayədarlar, təşkilatlar zəif işçiləri öncə istədikləri kimi çalışdırırlardı. Fəqət sonraları mənfəətləri müştərək olan işçilər birləşməyə, sendikalar, ittifaqlar vücuda gətirməyə və bu minval üzrə güləşə hazırlanmağa başlayınca, işçilərin halları səlaha [yaxşılaşmağa] üz tutmuşdu.

İşçilərin sərmayədarlara qarşı aldıqları güləş vəziyyətinin iki xarakteri vardı: biri siyasi, digəri iqtisadi. Siyasi güləşləri tətil və zabastovka ilə olurdu. Bu haqlı, tədbirli bir hərəkət idi. Əfəndilərinə qarşı "Bizim yapdığımız işlərə, gördüyümüz xidmətlərə müqabil şu diləyimizi qəbul etməzsəniz, biz işdən əl çəkəriz" deyirdilər. Bununla bir tərəfdən iş müddətini azaldırdılar, digər tərəfdən də gündəliklərini artırırdılar. Böyləliklə haqlarını alırdılar, hallarını islaha çalışırdılar. Az bir haqq ilə gündə 15-16 saat çalışan işçilərin get-gedə həm haqları ziyadələşmiş, həm də iş müddəti 8 saata qədər qısalmışdı.

Bu xüsusdakı müvəffəqiyyətin ən böyüyü ingilis əmələsində görülmüşdür. Üzvlərinin sayısı milyonları keçən "Trade Union" nam fəhlə ittifaqı bütün dünyaya nam vermiş, şan almışdır. Keçənlərdə İngiltərə hökumətinə etdikləri yeni təkliflər xatirlərdə olsa gərəkdir. Təkliflərinin məzmunu iş haqqını yüzdə otuz artırmaq, iş müddətini 6 saata endirmək, bir taqım xanələri milliləşdirmək. Səbəbini iləridə söyləyəcəyim bu üçüncü təklifin xarakteri bambaşqadır.

İqtisadi güləşləri kooperativlər (Кооперативы) vasitəsi ilə olurdu. Fəqir işçilər alın təri ilə qazandıqları gündəlikləri ilə ehtiyaclarını istədikləri kimi mümkün deyil, dəf edəmməzlərdi. O gündəliklər kifayətsizliklə bərabər spekulatorların, tüccarların bahalı, çürük mallarına qurban edilirdi. Bu halı görən, sezən işçilər arasında kooperativ şirkəti fikri oyandı. Unutmayalım ki, bu fikir yenə ilk öncə mütəşəbbis ingilis milləti fəhləsindən doğdu, yayıldı. Hər işçi gündəliyinin pək az bir parçasını verdi. Toplanan bu vergilərlə yer tutuldu. Oraya yerindən doğrudan-doğruya məhsullar, mətalar gətirildi. Böyləliklə, həm ucuz, həm də təmiz, sağlam mallar əldə edildi. Daha sonra məhsullar, mətalar yetişdirilməyə də girişildi. Bu cəhətlə müstəhlik [istehlakçı] ikən, müstəhsil [istehsalçı] sifəti də taqınıldı [qazanıldı, əldə edildi]. Biri-birinə həyati, iqtisadi bağlarla bağlanan bu istehlak və istehsal şirkətləri üzvləri əmələ [arzuya], qayəyə doğru yürürlərkən mali, iqtisadi müəssisələrə də möhtac olduqlarını duydular və o andan etibarən kiçik etibar [kredit] şirkətləri açmağa da başladılar. Bu üçüncüləri birincilərə, ikincilərə yardımlar etdiyi kimi kiçik sənətkarlara, taqətsiz kəndlilərə də pək böyük yardımları toxundu. İştə bu üç qisim kooperativ şirkətləri fəhlənin iqtisadi halını islaha çox yaradı. Onları kapitalistlər mərtəbəsinə qədər yüksəltdi.

Vaxtımız olsaydı bu xüsusa dair uzun-uzadı bəhs edərdim. Fəqət söylənəcək sözlər daha pək çox olduğundan, şimdilik bu qədərlə iktifa [kifayət] edəcəyəm. Ancaq şurası var ki, diləyimi meydana qoymadan da keçməyəcəyəm. O dilək də kooperativ şirkətlərinin bizim fəhlə qardaşlarımız arasında da kök salmasıdır. Əgər buna müvəffəq olunarsa, fəhlə həyatında inkişafa doğru ən böyük bir addım atılmış olacaqdır."

## BAKI XƏBƏRLƏRİ

**Məvərayi-bəhri-Xəzərdə Azərbaycan konsulu**

Məvərayi-bəhri-Xəzər (Zakaspi oblastı) hökuməti nəzdində Azərbaycan Cümhuriyyəti konsulluğuna Əkbər Ağa Sadiq təyin edilmişdir.

- Bələdiyyə İdarəsi Elektrik Cəmiyyətinə xəbər vermişdir ki, Bələdiyyə İdarəsi ilə cəmiyyət miyanında [arasında] əqd edilmiş [bağlanmış] müqavilənaməni təsviyə [ləğv] edilmiş hesab etmək istəməyir. Cəmiyyət bəyan etdiyi kimi aprelin 15-i saat 12-dən şəhərə işıq vermək istəməzsə, o vaxt Bələdiyyə İdarəsi miyanlarında [aralarında] olan müqavilənamə üzrə cəmiyyətdən hər saatına 1000 rublə tələb edəcəkdir. Əlavə, şəhər əhalisi nümayəndəsi kimi hökumət nəzdində təşəbbüsatda bulunmaqla cəmiyyəti müttəhim edəcəkdir.

- Bələdiyyə xidmətçiləri ilə Bələdiyyə İdarəsi miyanında [arasında] ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] üçün təşkil edilən Nəzarət komisyonu hamı məsələlərdə etilaf [uzlaşma] əmələ gətirmişdir. İxtilaflı məsələ fəqət xidmətdən çıxanlara pul vermək məsələsidir.

- Fəhlə Konqresi İngiltərə ərkani-hərbinə [hərbi qərargahına] müraciətən rica etmişdir ki, edam edilmiş 26 nəfər komissarın işlərinə tezliklə baxılsın. Bundan ötrü də Aşqabad məhkəmələrinə nüfuz yetirməlidir ki, onlar işə şüru etsinlər [başlasınlar].

- Bu gün saat 6 yarımda İkinci Ünas [Qızlar] gimnaziyasında Mərkəzi Valideyn Şurasının iclası təyin edilmişdir. İclasda Maarif Nəzarəti ilə edilən müzakirat barəsində məruzə oxunacaqdır.

**Dəniz hamamının açılması**

Bu gün aprelin 11-dən etibarən Bakı Bələdiyyə İdarəsinə məxsus dəniz hamamında isti vanna (müalicə üçün) açılır. Hamam Vərəm Xəstəliyi ilə Mübarizə Cəmiyyəti şöbəsinin icarəsində və doktor Bəhram bəy Axundov cənablarının təhti-idarəsindədir [idarəsi altındadır].

**Bir fincan çay**

Azərbaycan Müsəlman Tələbələrinin Bakı Komitəsi tərəfindən Tələbələr Fondu nəfinə [xeyrinə] işbu aprel ayının 12-də, "Obşestivennı sobiraniya"nın [Bakı İctimai Yığıncağının] yay binasında, axşam təntənəli surətdə "Bir fincan çay" tərtib ediləcək. Biletlər satılır Nikolayevski küçədə, 2-ci gimnaziya binasında, saat 10-dan 7-dək; məclis günü klubun binasında.

*Azərbaycan Müsəlman Tələbələrinin Bakı Komitəsi*

**"İttihad" firqəsinin nümayəndələr iclası**

Dünən aprelin 10-da "İttihad" firqəsinin nümayəndələr iclası dəvət edilmişdi. Lakin ətrafdan lazımi miqdarda nümayəndələr gəlmədiyindən, iclasın açılması bu günə təxir edildi. Varid olmuş [gəlmiş] nümayəndələr və firqənin heyəti-idarəsi [idarə heyəti] iştirakı ilə Duma zalında xüsusi iclas qurulub, nümayəndələr iclasında müzakirə ediləcək məsələlər haqqında Qarabəy Qarabəyov bəyanat vermişdir.

- Aprelin 5-dən 7-dək Bakıya gətirilən ərzaq:
Aprelin 5-də:
buğda 3382 put;
un 1904 put;
odun 15750 put;
arpa 249 put;
saman 1258 put;
ot 110 put.
6 və 7-də:
buğda 4353 put;
un 765 put;
arpa 1724 put;
ot 3000 put.

## AZƏRBAYCANDA

**Qazaxdan**

Martın əvvəlində Qazax Darülmüəllimin[i] [Seminariyası] mütəəlimlərinin [şagirdlərinin] biz Qazax Qadınlar Cəmiyyətinin haqqında çəkdiyi zəhmət cəmiyyət tərəfindən çox gözəl anlaşıldı. Həman axşam gördüyümüz şəkillər bizim heç vaxt yadımızadan çıxmaz və gərək də çıxmasın. Belə şəkilləri biz bir neçə il bundan müqəddəm [əvvəl] yuxumuzda da görsək inana bilməzdik ki, belə yuxu olar. Çünki yuxuda görünən şeylərin oxşayışı gərək bir az fikirdə də olaydı. Qazax bir az camaatlı yer, özü də nə şəhərdən şəhər, nə kənddən kənd olub, faydalı bir rus məktəbi də verməyirdilər. İndi Zaqafqaz Darülmüəllimini kimi böyük məktəb ona qismət olur.

Darülmüəllimin mütəəlimləri [şagirdlər] tərəfindən oyun qoyulan gün cənab Firidun bəyin imzası ilə bizim hər birimizin adına bir məxsusi kağız gəldi. Darülmüəllimin müdiri cənab Firidun bəy kim olduğunu və millət haqqında, millət yolunda nə günə [nə kimi] zəhmətlər çəkdiyini bizim çoxumuz bilməyirdik. Ona görə ki, bizim çoxumuz bisavadıq. Bir az savadı olanlar həman şəxsi çox yaxşı tanıyırlar. Biz cəmimiz cənab Firidun bəyi bizim haqqımızda olan o günkü rəftarı ilə tanıdıq və çox yaxşı, çox gözəl tanıdıq. Ümidvarıq ki, Qazax indidən belə qabağa gedə bilər. Biz ümidvarıq ki, həman darülmüəllimində tərbiyə alan mütəəllimlər Firidun bəyin tərbiyəsini tamamınca alsınlar və gələcəkdə Firidun bəy kimi millət haqqında, vətən haqqında çalışan kimsələrdən olsunlar. Amin.

Cənab Firidun bəy bizə bir neçə mənalı sözlər söylədi və Nadirin vətənpərvərliyindən bizi müxbir [xəbərdar] etdi. İndi biz həman gündən başlayaq, cənab Firidun bəyin köməkliyi ilə çalışaq, vətənimizdə, vətən övladlarımızda həman hissiyyatı oyandıraq, hissiyyatı əmələ gətirək.

*İbtidai qız məktəbinin müdirəsi:*
*Şirin xanım Qiyasbəyzadə*

**Ağdaşdan**

24 mart pəncşənbə [cümə axşamı] axşamı Qaçqınlara Yardım Cəmiyyəti nəfinə [xeyrinə] Ağdaş həvəskarları tərəfindən "Döymə qapımı, döyərlər qapını" komediyası mövqeyi-tamaşaya qoyuldu. Həvəskar yoldaşlarımız rollarını çox gözəl ifa edib camaatı razı saldılar. Bilet satışı komissiyasında iştirak edən Ərzaq naziri vəkili Musayev, Mühakimə rəisi Axundov, pristav Məlikov, cavanlardan Ağa Salahov, tüccarlardan Həmid əfəndi öz fəaliyyətləri sayəsində bilet satışına lazımi qədər müvəffəq oldular.

Belə ki, bilet satışından 7725 manat və fəxri olaraq 14 biletin 13-ündən hasil olan 2290 manat aşağıda göstərilən əsami [adlar] üzrə hasil olmuşdur:

1) Qaimməqam [qəza rəisi] Məhəmməd bəy 300 manat;
2) Bəradərani-Səmədovlar [Səmədov qardaşları] [300 manat];
3) Əşrəf Tağıyev 300 manat;
4) Əbdürrəhman Əfəndiyev 300 manat;
5) Məcid Vahidov 300 manat;
6) Yusif bəy Məlikov 200 manat;
7) Rəsul Hacı Əhməd oğlu 150 manat;
8) Balaoğlan Muqumov 140 manat;
9) Muxtar əfəndi Əfəndizadə 100 manat;
10) Mustafa bəy Rüstəmbəyov 100 manat;
11) Hacı Ağaəli Abbasov 100 manat;
12) Əmiraslan Qədirov 100 manat;
13) Çərkəz bəy Nəbibəyov 100 manat;
14) Məhəmməd Hacı Əbdürrəhimov 100 manat.

Əlavə, ianə olaraq Abbasqulu bəy Lütfəlibəyovdan 50 manat yetişmişdir ki, cümlətan 10065 manat ümumi mədaxil olmuşdur. Cəm'ən olan məxaric [bütün xərclər] 2590 manat yarımı çıxdıqdan sonra qalan yeddi min dörd yüz yetmiş dörd manat yarım (7474 manat 50 qəpik) cəmiyyət xəzinədarına təhvil verilmişdir.

Cəmiyyət tərəfindən həvəskarlarımıza bilet satışına fəaliyyət göstərən möhtərəm əfəndilərə və öz həmiyyəti-vətəniyyələri [vətən təəssübkeşliyi] ilə məşhur olan Ağdaş camaatına təşəkkürlər edəriz.

*Ağdaş Qaçqınlara Yardım*
*Komitə İdarəsi.*
*Rəis: Qasım Qasımov*

## ERMƏNİSTANDA

- [Xosrov bəy] Sultanovun Qarabağa general-qubrenator təyin edilməsi ilə Azərbaycan əsgərləri dəstələrinin Xankəndinə və Şuşaya gəlmələrinə görə Ermənistan hökuməti ingilislərə ciddi protesto göndərmişdir.

- İtaliya hökuməti Ermənistanın tələbatına hüsn-təvəccöh göstərməkdədir. Fransa hökuməti isə Ermənistanın Kilikiyaya iddiası əleyhinədir. Fransa hökuməti Kilikiyanın Ermənistana daxil edilməsinə o vaxt razı olar ki, hərgah Ermənistan Fransa hökumətinin təhtihimayəndəsində [himayəsi altında] ola.

- Zod rayonunda müsəlmanların topxanası olduğu təsdiq edilir. Məlumat alınmışdır ki, Zəyəm dərəsi hadisələrindən əvvəl Novo-Bayəzid uyezdinə üç top aparılmışdır. Ağır topxana apara bilməyib ancaq səhra topları aparmışlar.

- General Axverdov istefa verib Hərbi Şuraya təyin edilmişdir. Polkovnik Araratyan general mənsəbinə təltif edilib Hərbiyyə naziri təyin edilmişdir. Hərbiyyə naziri müavinləri Silikov ilə Dro təyin edilmişlərdir. Ərkani-hərb naçalniki [hərbi qərargah rəisi] general Doluxanov istefa vermişdir. Onun yerinə hələ heç kəs təyin edilməmişdir. General Axverdovun təyin ediləcəyi arzu olunur.

**Ermənistan hökumətinin tələbatı**

Martın 28-də general Tomson İrəvana gəlib bir çox mühüm məsələlər barəsində, o cümlədən Qarabağ haqqında Ermənistan Şurayi-Vükəlası [Nazirlər Kabineti] ilə uzun müsahibədə bulunmuşdur. Ermənistan hökuməti tərəfindən aşağıdakı tələbat [tələblər] təqdim edilmişdir:

1) Qarabağ məsələsi haqqında erməni hökumətinin arzusu budur ki, Qarabağın ermənilərlə məskun olan dağlıq hissəsi əhalinin öz razılığına görə Erməni Milli Şurası əlində qalsın. Ermənistan hökuməti Qarabağın bu hissəsini general Tomsona verilən məktubda yazılan əsaslarla Ermənistanın ayrılmaz bir parçası hesab edir. İngiltərə komandanlığı tərəfindən təyin ediləcək kontrol ancaq İngiltərə millətindən olması ilə olar.

2) Qars məsələsinə gəldikdə, Ermənistan hökuməti aclıqdan, xəstəlikdən həlak olan erməni əhalisinin Qars və Kağızman uyezdlərinə [qəzalarına] qayıtması məsələsinin təxirə salınmamasını istəyir. Məzkur [deyilən] uyezd əhalisinin kəndlərdən kənar qalmaları onları öz yerlərini əkməkdən məhrum edir ki, bu da qaçqınların qalanlarının fəlakətinə bais olar.

3) Şərur və Naxçıvan məsələsinə gəldikdə, müsəlman əhalisi haqqında ciddi və icbari tədbirlər görülməsi lazımdır ki, qaçqınları öz kəndlərinə buraxsınlar.

4) Sürməli məsələsi haqqında, bu rayonun quldurlardan təmizlənməsi lazımdır. Bu yollarla ola bilər ki, Türkiyə erməniləri öz vətənləri olan Van, Ələşgird və qeyri yerlərə qayıtsınlar. Buna görə Qulpda və Aralıqda İngiltərə komandanlığı ixtiyarında ingilis və ya erməni qaraqol dəstələri qoyulması lazımdır.

5) Zod kəndi haqqında Ermənistan hökuməti xahiş edir, müsəlmanlardan tələb eyləsin ki, bu rayonda məmurlara mümaniət [maneçilik] göstərən və məzkur dairədə baş verən cinayətləri təftiş etməkdən ötrü göndərilən istintaq komissiyasını yaxın buraxmayan müsəlləh [silahlı] dəstələr rədd edilsinlər.

6) Türkiyə ermənilərinin öz vətənlərinə qayıtmalarını mütəşəkkil bir hala salmaq.

Xozyazstva və administrasiya məsələləri [Təsərrüfat məsələləri və inzibati məsələlər]

1) General Brafın sədarəti altında təşkil ediləcək komissiya təxirə düşdüyündən, müttəhid [birgə] dəmiryol idarəsi vücuda gətirilsin.

2) Ermənistan həyatını adi bir hala salmaq, ətrafla münasibatda bulunub ərzaq şeyləri gətirməkdən ötrü Batuma və Bakıya marşrut qatarları buraxılması.

3) Yüklərin vaqonlardan oğurlanmasına görə qatarların mühafizə edilməsi.

4) İqtisadi münasibat və asayiş bərpasından ötrü Naxçıvan və Qarsa qatar hərəkatı bərpa edilməsi.

5) Qarsda və Sarıqamışda olan mövcudatın Qars oblastından çıxarılması.

6) Mal dəyişmək vasitəsilə toxumluq taxıl ələ gətirilməsi, toxumluq taxılın tezliklə gətirilməsi üçün taxılı çox olan müsəlmanlara icrayi-təsir [təzyiq] edilməsi.

**Erməni Məlumat Bürosunun xəbərləri**

- Zodski dairədə, Basarkeçərdə əhval kəskinləşməkdə davam edir. Zod sərhədinə yetişmiş olan istintaq komissiyası 4 erməni afseri ilə 11 saldatın təslimini və komissiyanın kəndə buraxılmasını tələb eyləmişdir. Mart ayının 14-dək bunların arasında razılıq əmələ gəlməmişdir və görünür ki, razılıq olmayacaqdır. Bu da nəhayət silah gücü ilə kəndin alınmasına bais olacaqdır.

- Mart ayının 20-də verilən məlumata görə Zod yaxınlığına 6 min nəfər müsəlləh müsəlmanlar top və pulemyotla gəlmişlərdir. Sürməli dairəsində Qulp kəndi kürdlər tərəfindən mühasirə edilmişdir.

- Qars oblastının şimal hissəsinə, Ağbabaya Axalkələk mahalından müsəlman bandaları yeriş edirlər. Bunların cəm olması Aleksandropolu qorxu altında saxlayır.

- Qars qubernatoru general Asser Qars Şurasına elan etmişdir ki, Qars erməni qaçqınları qəti surətdə öz yerlərinə qaytarılmalıdırlar. Generalın bu əmri böyük həyəcana bais olmuşdur. Erməni kəndlərində olan müsəlmanlar kəndləri tərk etməyə başlayıb, əvvəlcədən kəndləri yandırırlar. Arpa çayının şərq sahi-lindən tüstü və işıq görünür.

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm müdir əfəndi! Bu məktubumun qəzetənizdə dərc olunmasını sizdən rica edirəm.

Bu martın əvvəlində Qazax Darülmüəllimin[i] [Seminariyası] şagirdləri tərəfindən xanımlar üçün səhneyi-tamaşaya qoyulan "Nadir şah" faciəsi ilə "Xor-xor" məzhəkəsi onlara bir dərəcədə hüsn-təsir etmiş ki, yalnız sözlə rizaməndlik izhar etməyə [razılıqlarını bildirməyə] iktifa [kifayət] eyləməyib, öz aralarında 4485 manat para toplayıb bəndəyə təslim etdilər ki, darülmüəllimin şagirdlərinin maddi və mənəvi ehtiyaclarına sərf edim. İanə edən xanımların adlarını aşağıda yazıb öz tərəfimdən, müəllimlər və şagirdlər tərəfindən cümləsinə rizaməndlik edirəm. Sağ olsunlar qeydkeş, qədirbilən və mərhəmətli bacılarımız!

*Qazax Darülmüəlliminin müdiri*
*F. Köçərli*

İanə edənlər:
Rüxsarə xanım Muradzadə 150 manat;
Xeyransa xanım Dilbazi 100 manat;
Nəzifə xanım Muradzadə 150 manat;
Xanım Mustafazadə 150 manat;
Müqəddəsətünnisa xanım Şıxlı 100 manat;
Nursidə xanım Vəkilzadə 150 manat;
Bənövşə xanım Muradzadə 25 manat;
Xanım Vəkilzadə 100 manat;
Rüdabə xanım Vəkilzadə 100 manat;
Şahnigar xanım Vəkilzadə 100 manat;
Güləndam xanım Vəkilli 100 manat;
Mələk xanım Qayıbzadə 100 manat;
Həmidə xanım Qayıbzadə 100 manat;
Dilruba xanım Şərifzadə 100 manat;
Böyükxanım Rəhimzadə 150 manat;
Fatma xanım Məhəmmədzadə 150 manat;
Mina xanım Eyyubzadə 150 manat;
Mədinə xanım Qiyasbəyzadə 200 manat;
Şükufə xanım Abdullazadə 100 manat;
Cəmilə xanım Vəkilli 60 manat;
Müqəddəsətünnisa xanım Qiyasbəyzadə 150 manat;
Zümrüd xanım Şıxlı 50 manat;
Süreyya xanım Yusifzadə 50 manat;
Mədinə xanım Eyyubzadə 150 manat;
Dilşad xanım Şadlızadə 100 manat;
Dürrətünnisa xanım Vəkilzadə 200 manat;
Səadət xanım Şıxlı 500 manat;
Şirin xanım Qiyasbəyzadə 200 manat;
Sultan xanım Qiyasbəyzadə 100 manat;
Şahzadə xanım Müftüzadə 50 manat;
Huri xanım Qiyasbəyzadə 100 manat;
Cəvahir xanım Eyyubzadə 500 manat.
Cümlətanı 4485 manat.

*9 Mart 1919, Qazax*


***Doktor Musa bəy Rəfiyev***

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

***Doktor Ağahüseyn Kazımov***

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*5780*

**İtibdir**

Barat xanım, 10 yaşında, əynində sarı kofta, sarı tuman, başında mixəyi rəngdə yaylıq, iki gündür itibdir. Onun barəsində məlumatları olanlardan acizanə təvəqqe edirəm ki, gəlib mənə xəbər versinlər. Ünvan: Verxni-Təzəpiriski küçə, 4-cü pereulok [döngə], ev nömrə 47. Məşhədi Talıb Xəlilov.

*8707*

Mağazadan ötrü şəhərin mərkəzində 2 qapı qəfəsləri ilə, "abstanovkası" [avadanlıqları] ilə icarəyə verilir. Ünvan: Vorontsovski küçə, nömrə 18. Səhər saat 9-dan 10-a qədər xidmətçidən xəbər almaq olar.

*8706*

**Elan**
**"Övraqi-nəfisə"**

"Övraqi-nəfisə" məcmuəsinə bu gündən etibarən abonə dəftəri açıqdır. Bakı üçün bir nüsxəsi 5 rublə, qeyri şəhərlər üçün nüsxəsi 8 rublə. Məcmuəmizə ədəbiyyat və sənayeyi-nəfisəyə [incəsənətə] dair yazılan məqalələr qəbul olunur. İdarəmiz səhər saat 12- dən 1-ə qədər acıqdır. Məhəlli-idarə [redaksiya ünvanı]: Bakı, Qubernski küçədə nömrə 43-45. Qəzetə və jurnal satanlara manata 20 qəpik güzəşt edilir.

*b.*

**Mama**
**Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.) Telefon nömrə: 58-39.

*5779*

**Diş həkimi**
**Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Diş həkimi**
**S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96. Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və kökləri ağrısız çıxarır. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

*5767*

**Skripka dərsi**

Petroqrad Konservatoriyasının rəssamı M. Malkarov skripkada dərs verir. Ünvan: Birjavaya küçə nömrə 14, Desyatnikovun mənzilində. Telefon nömrə 46-83.

*5782*


***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Məclisi-Məbusanında***

"…qanunu mahud altında saxlayır…": Xüsusilə rəsmi idarələrdə masaların üzərinə mahud örtük salınırdı; "mahud altında saxlamaq" qanunun yaxud başqa bir sənədin rəsmiyyət qazanmasını və icraya qoyulmasını gecikdirmək mənasında işlədilir.

"zillullah": "Allahın kölgəsi" deməkdir; tarixdə bəzi islam ölkələrində hökmdar "zillullah filərz" yəni "Allahın yer üzündəki kölgəsi" sayılırdı.

***Teleqraf xəbərləri***

"Spartaklar": 1916-1918-ci illərdə Almaniyada fəaliyyət göstərən marksist təşkilat olan "Spartak" təşkilatının üzvləri. "Spartak" təşkilatı ümumdünya proletar inqilabı tərəfdarı idi. Təsisçiləri arasında Roza Lüksemburq, Karl Libknext və başqaları yer alırdı.

"Kral tövləsi": Berlinin tarixi binalarından olan Marstall nəzərdə tutulur.

***Qəzetələrdən***

"cəmadiyəlaxir": Hicri təqvimin 6-cı ayı. Burada hicri 1337-ci ilin cəmadiyəlaxir ayından bəhs edilir ki, bu da miladi təqvimlə 1919-cu ilin mart-aprel aylarına müvafiqdir.

"Sabah": İstanbulda 1875-1922-ci illərdə nəşr edilmiş gündəlik qəzet.

"Elani-hərbə təqəddüm edən…": qəzetdə "təqəddüm" yerinə "təqdim" getmişdir.

***Bakıda yaşayan İran tacirlərinə xitab***

"Qarun həlak şod ke çehel xane gənc daşt / Nuşirəvan nə mord ke name neku qozaşt": "Qırx otaq xəzinəsi olan Qarun həlak oldu / Yaxşı ad qoyan Nuşirəvan isə ölmədi." (farsca)

***"Baharın ilhamları və ictimai rəmzlər" şeiri üçün lüğət:***

pərdeyi-mənhus: uğursuz, nəhs pərdə
güli-zində: canlı gül
səza: uyğun, münasib
mədfuneyi-ziruh: canlı-canlı dəfn edilmiş qadın
mail: meyil edən
dili-məcruh: yaralı ürək
hicab: örtü
səhab: bulud
gülşəni-rüxsareyi-alın: sənin al yanağının gül bağçası
nəş'əti-üxra: başqa bir nəşə, başqa bir sevinc; başqa bir həyat, axirət həyatı
tairi-xanəndə: nəğməkar quş
gülşəni-rövşən: işıqlı gül bağçası
tabanü-dirəxşan: işıqlı və parlaq
ruy: üz
çöhreyi-fəyyaz: feyzli, bərəkətli üz; ilham verən üz; təmiz üz
dilbəri-məstur: örtü altında qalmış dilbər
tərki-səhab etmək: buluddan çıxmaq
Nuri-cahan: cahanın nuru (eyni zamanda qadın adı)
tərki-niqab etmək: niqabdan çıxmaq
Səmənrüx: yasəmən çiçəyi kimi ağ üzlü (eyni zamanda qadın adı)
behiştanə: cənnət bağı kimi olan
üzar: yanaq
huriyi-səhhar: füsunkar huri
qərqeyi-ənvar: nurlara qərq olmuş
pərdeyi-müzlim: qaranlıq pərdə
Zöhreyi-Zəhra: parlaq Zöhrə (Venera) ulduzu (eyni zamanda hər ikisi qadın adı)

***Haqsız təcavüzlər***

"Şamaxı qəryəsi İvanovkada": qəzetdə "qəryəsi" yerinə "vəqəsi" getmişdir.

"cildli kitablar": qəzetdə "kitablar cildli" getmişdir.

***Ələkbər bəyin mərasimi-dəfni***

"Allahümmə innə lanə'ləmu minhə illa xeyrən": Cənazə namazında oxunan ərəbcə dualardan biri. Mənası: "Allahım, biz onun haqqında xeyirdən başqa bir şey bilmirik."

***Konfrans***

"…məcburiyyətini meydana atmışdı": qəzetdə belə getmişdir: "məcburiyyətini meydan almışdı."

"(Кооперативы)": qəzetdə belə getmişdir: "(Коопер)"

"O dilək də kooperativ şirkətlərinin…": qəzetdə "şirkətlərinin" yerinə "şirkətlərilə" getmişdir.

***Azərbaycanda***

"Döymə qapımı, döyərlər qapını": Haşim bəy Vəzirovun komediyası.

***Ermənistanda***

"Araratyan": qəzetdə "Artaryan" getmişdir.

"…ərzaq şeyləri gətirməkdən ötrü…": qəzetdə "şeyləri" yerinə "işləri" getmişdir.

***İzhari-təşəkkür***

"Nadir şah" faciəsi ilə "Xor-xor" məzhəkəsi": Nəriman Nərimanov və Sultanməcid Qənizadənin əsərləri nəzərdə tutulur.




# Bu bazarda nə istəsən tapmaq olar

## Nadir musiqi alətləri və saatlardan tutmuş qədim məişət əşyalarınacan...

**Gələnlər adətən əliboş qayıtmırlar. Axtardığın nə varsa, tapa bilərsən. Qiymətləri də fərqlidir, keyfiyyətləri də. Təzəsinə az rast gələrsən. Əksəriyyəti nimdaşdır. Hətta eləsi var ki, alsan, işinə yaramaz. Yəni o qədər köhnədir. Ancaq satanı olduğu kimi, alanı da var. Və bu alış-veriş heç kimi təəccübləndirmir. Çünki bura "bit bazarı"dır...**























Bakının Sabunçu rayonunda yerləşən bu bazar əvvəllər daha çox "rus bazarı" kimi tanınıb. Səbəbi bir vaxtlar satıcılarının əsasən yaşlı rus qadınları və kişiləri olması idi. "Köhnə bazar" adını isə satılan əşyaların köhnəliyinə görə alıb. Gələk "bit bazarı" adına...

### Xarici ölkələrdə əsrlərdir ki, belə bazarlar var

"Bit bazarı" termininin yaranması nəinki bu bazarı, ölkəmizin sərhədlərini də aşır. Dünyanın ən böyük ölkələrində də "bit bazarları" var, həm də lap çoxdan... Məlumata görə, Parisin şimal ətraflarında Seine-Saint-Denis bölgəsində yerləşən Saint-Ouendəki "Marche aux puces" ilk "bit bazarları"ndan biridir.

Tokioda yerləşən Togo Shrine bazarı isə Yaponiyada ən məşhur "bit bazarı"dır. Rusiyada məşhur "bit bazarı"nın sayı çoxdur. Sankt-Peterburqda Udelnaya dəmir yolu platforması və eyniadlı metro stansiyasının yaxınlığındakı bazar məşhurluğuna, eləcə də çoxdan fəaliyyət göstərdiyinə görə onların arasında ilk yeri tutur. "Bit bazarları" Türkiyənin də böyük şəhərlərinin çoxunda var. İstanbulda Horhor Antikaçılar Çarşısı, Dolapdere "bit bazarı", Feriköy "bit bazarı", Kadıköy "bit bazarı", Ankarada Ulus İtfaiye Meydanı "bit bazarı", İzmirdə Yeni Bornova bazarı bu qəbildəndir.

Terminin necə meydana çıxdığına gəlincə, fikirlər fərqli və mübahisəlidir. Ehtimal edilir ki, satılan əşyalar köhnəldiyi, içərisində bit olması ehtimalı nəzərə alınaraq bazar belə adlandırılıb.

### Ən səsli-küylü bazar

Başqa ölkələri deyə bilmərik, Sabunçuda yerləşən "bit bazarı" ölkənin ən səsli-küylü ticarət mərkəzidir. Digər bazarlardan bir fərqi də ondadır ki, burada piştaxtalar çox azdır. Satıcılar adətən təqdim etdikləri malları elə yerə saldıqları örtüklərin üstünə düzürlər.

"Bit bazarı"nda ilk qarşımıza çıxan kitablar olur. Asfalta sərilmiş örtüyün üstündə baş-başa vermiş, bir vaxtlar yəqin ki, çox maraqla, sevilə-sevilə oxunmuş, indi də həsrətlə oxucularını gözləyən kitablara göz gəzdiririk. Əsasən rus dilində və Azərbaycan dilində kiril əlifbasındadır. İngilis dilində olanlar da var. Satıcı Mehman öyünərək deyir:

- Məndə istənilən kitab var.

Öyrənirik ki, bu kitabların alıcıları əsasən orta yaşlılar olsa da, aralarında daha yaşlılar da var. Mehman kitab alıcılarının 45, 50, hətta 70 yaşlı olduqlarını söyləyir. Kitabların qiyməti isə 1 manatla 10 manat arasında dəyişir. Satıcıdan xəbər alırıq:

- Ən çox hansı kitablar alınır?

- Bədii kitablar... Detektiv kitablar da çox alırlar.

- Burdan kitab satmadan getdiyiniz gün olur?

- Yox, olmur.

- Gün ərzində ən çox neçə kitab satırsınız?

Kitabsatanın cavabı bizi təəccübləndirir:

- Belə də... şans düşür, Allah yetirir. 50, 60 ədəd, elə günlər olur 10, 20, 30...

Bir az aralıda yaşlı bir qadın iri səyahət çantasının qulpundan ikiəlli yapışıb. Satdığı malların içində pal-paltar daha çox diqqətimizi çəkir. Qadın adını söyləmək istəməsə də, söhbətdən imtina etmir:

- Satdıqlarım öz uşaqlarımın, nəvələrimin geyinmədiyi, işlətmədikləri əşyalardır. Cavan adamdırlar, alırlar, bir az geyinəndən, istifadə etdikdən sonra daha istəmirlər. Başqasını alırlar. Mən də onların işlətmədikləri əşyaları, geyinmədikləri pal-paltarı bura gətirirəm. Ən azı 50 qəpiyə, 1 manata satıram. Elə gün olur ki, heç nə sata bilmirəm. Bəzən də satış yaxşı olur.

"Bit bazarı"nı dolaşırıq. Ən çox eşitdiyimiz sözlər bunlardır: "Allah bazar versin". Səslər bir-birinə qarışıb:

- Day-day, 2 manata verirsənsə, alıram.

- 2 manata elə özüm almışam.

- Kondisioner işləyir?

### Burada satıcılar müştəriləri aldatmırlar

Adətən satıcılar burada müştəriləri aldatmırlar. Satdıqları elektrik əşyaları işləməyəndə "işləmir" deyirlər. Belə malları da çox vaxt yararlı olan hissələrindən istifadə etmək üçün alırlar.

Yalnız həftəsonları qurulan "bit bazarı"nda qiymətlər 20 qəpikdən başlayır. Burda nə axtarsan, tapa bilərsən: hər cür geyim, saat, bijuteriya, fen, oyuncaq, kitablar (klassik ədəbiyyatdan, detektivlər, müasir nəşrlər), hərbi mundir, köhnə filmlərin, seriallların diskləri, videokasetlər, samovar, mebel, avtomobil hissələri, santexnika, köhnə sovet alətlərinin ehtiyat hissələri, domino, nərd taxtası, qəhvə dəmləyən, çay qaşıqları, qazan, sac, elektronika əşyaları, telefonlar, kompüter hissələri, televizor, radio, soyuducu, kondisioner, qızdırıcı cihazlar, ventilyator, radio-detallar, məftillər...

Hətta bu bazarda tanınmış şəxslərin balaca büstləri də satılır. Köhnə əşyaların arasında Leninin balaca büstü diqqətmizi çəkir. Sovet dövrünün təbiri ilə desək, proletariatın dahi rəhbəri büstündən qəmli-qəmli gülümsəyir.

Bəziləri yalnız pal-paltar, ya da texniki avadanlıqlar, yaxud xırdavat satırlar. Ancaq satılan malların içərisində hər cür əşya var. Azər adlı satıcı da nimdaş qazanlar, köhnə uşaq oyuncaqları, telefon, telefon qabları, qulaqcıq və başqa malların yanında, köhnə kətilin üstündə oturub, alıcı gözləyir. Cavan bir kişi yaxınlaşır. Telefonu götürüb diqqətlə baxa-baxa satıcıdan soruşur:

- İşləyir?

- Hə, işləyir.

Onlar danışır, biz başqa satıcının yanına gedirik...

### 20 qəpikdən satılan əşyalar

Orta yaşlı bir xanıma yaxınlaşırıq. Özünü belə təqdim edir: "Burda hamı mənə "xanım" deyir". Bura hər həftənin şənbə, bazar günləri Zabratdan gəlir. Satdığı malların çeşidi çox olsa da, daha çox pərdə, örtük və başqa ev əşyaları diqqətimizi cəlb edir. Satıcının alıcı azlığından şikayəti yoxdur.

- Bazardı da... - deyir, - hərdən çox mal sata bilirik, hərdən az. Qiymətlər ucuzdur, Elə mallar var ki, 20-30 qəpikdən satırıq.

Vüqar adlı satıcı isə deyir ki, o, hələ bu bazara tanışlıq üçün gəlir:

- Bura rayondan ikinci həftədir tanışlıq üçün gəlirəm. Hələ ki, bunlara (yaxınlıqdakı satıcıları göstərir) kömək edirəm. Görək necə olur...

Satıcı Arif Məhərrəmov isə on səkkiz ildən çoxdur bu bazarda alver etdiyini bildirir:

- Mən Mehdiabadda yaşayıram. Əvvəllər çox yerdə işləmişəm. Sonra çox ağır xəstələndim. Üç ay xəstə yatdım. Səsim çıxmırdı. Yavaş-yavaş sağaldım, özümə gəldim. Təqaüddəyəm. Evdə darıxıram. Bu bazara da məşğuliyyət üçün gəlirəm.

Onun ortağı - Rahib Bədəlov da təqaüdçüdür. Suraxanıda yaşayır.

- Dörd ildir ki, bu bazarda alver edirəm. Satdığımız malları tanış adamlar bəzən qapımıza gətirirlər. Ancaq əksəriyyətini burdan alırıq. Evdə istifadə etmədikləri əşyaları gətirirlər, biz də onlardan alıb satırıq. Alver hərdən yaxşı, hərdən də zəif olur.

Arif Məhərrəmov bildirir ki, yer üçün gününə 6 manat ödəyirlər.

- Bu bazarda ən çox "yer pulu" biz veririk. Çünki yerimiz genişdir. Yer üçün gününə bir manat ödəyənlər var, - Rahib Bədəlov deyir.

### Hərəsi bir tarixdir...

Satıcı Elşad Abışov deyəsən, əşyaları yerdə düzməyə qıymayıb, piştaxtada yerləşdirib. O, satdığı hər əşyanın tarixinin olduğunu söyləyir və soruşanlara hər biri haqda həvəslə ətraflı məlumat verir:

- Bu çaydan Hindistanın istehsalıdır, qiyməti 180 manatdır. Kofe dəmləyən qab 60 manata satılır. - Sonra göstərdiyi malların tarixçəsini danışır. - Burda olan malların əksəriyyəti qədim əşyalardır. Hərəsi bir tarixin məhsuludur. Məsələn, - piştaxtanın üstündən keçmiş Sovet İttifaqının 1 rublunu götürür. - Bu, rubllar yubiley münasibətilə, 1988-ci ildə buraxılıb. Hərəsinin üstündə dahilərdən birinin rəsmi həkk olunub. Şevçenkonun, Nizaminin... yubiley bir rublluğunu altı manata satıram. Ancaq alanda çox diqqət yetirirlər, gərək rubllar əzik, cızıq olmasın.

Piştaxtanın üstündəki sovet dövrünə aid nişanların, medalların qiymətlərini xəbər alırıq. "Oktyabryat" nişanı 3 manat, "Komsomol" nişanı 5 manat, "Əmək veteranı" medalı isə 10 manatdan satılır.

- Bunları tapmaq çətin olmur sizə? - soruşuruq.

- Biz tapırıq. Heç kim gəlib demir ki, bunları gətirmişəm, al. Özümüz axtarıb tapırıq.

- Alıcıları olur?

- Əlbəttə, olur. Daha çox kolleksiya toplayanlar alır.

Satılan əşyalar arasında Hindistan, İngiltərə, Çin, Rusiya, Səudiyyə Ərəbistanı, Ukrayna, Gürcüstan və başqa ölkələrin, eləcə də keçmiş SSRİ-nin pulları var. Biri 50 qəpikdən satılır.

- Adaş, salam. Hərbi mundir lazımdı...

Satıcı Elşad Abışov ona ərklə "adaş" deyə müraciət edən alıcı ilə söhbətə başlayır...

Tanış olduğumuz başqa bir satıcı - Ceyran İsmayılova - Sabunçu bazarında həftəiçi toyuq-cücə satır. Şənbə və bazar günləri qurulan "bit bazarı"nda isə xırdavat satmaqla məşğuldur. Alıcılardan şikayəti yoxdur.

- İstifadə etmədikləri malları bura gətirirlər, qiymətdə razılaşıb alırıq. Bizdə qiymətlər əlli qəpikdən başlayır.

Satıcılar çox vaxt köhnə paltarları kiloqramla alırlar. Satıcı Ceyran deyir ki, bura satmaq üçün əntiq əşyalar da gətirirlər:

- Bu əşyaları almağa həm ehtiyacı, həm də marağı olanlar gəlirlər. Nə istəsən, nə axtarsan bu bazarda var, quş südündən başqa... Sonra sözünə gülə-gülə davam edir. - Bu bazarda bəlkə quş südü də satılır.

Şənbə və bazar günləri əşyalarını köhnəsindən az işlənmişinə qədər gətirib dəyər-dəyməzinə satanlar da olur. Dilarə adlı orta yaşlı satıcı qadın da başqalarından aldığı malları satır. Öyrənirik ki, müxtəlif çeşidli uşaq çantalarının qiyməti 3 manatdır. Uşaq ayaqqabılarını 1 manatdan da almaq olar. Dilarə müəllim olduğunu, guşə yaratmaq üçün aldığını söyləyən cavan bir xanıma muncuqlardan səliqə ilə hazırlanmış iki vazanın hərəsini 3 manatdan satır.

Bazarda müxtəlif yaşlarda olan satıcılarla söhbətləşirik. Cavan satıcıların çoxu həftəiçi işlədiklərini, şənbə və bazar günləri bura gəlib alver etdiklərini bildirirlər. Gəzə-gəzə qiymətləri xəbər alırıq. Döşək 10, yastıq 6, qazan 25, samovar 180-200 manatdır.

Satıcı Fədayənin satdığı əşyaların arasındakı şüşə balıqlar, çinidən hazırlanmış mələk, ceyran, xoruz və başqa fiqurlar analarımızın cehizlərini xatırladır. Onların bənzərlərinin bəzilərini uşaq ikən sındırsaq da, hələ də ata ocaqlarımızda qoruyub saxlanılanlar var...

### Alver günorta bitir

Astaradan gəldiyini söyləyən Rizvan satdığı çayları tərifləyir. Danışır ki, əslində, özü də bu bazara hər həftəsonu mal almağa gəlir:

- Elə bura yolum düşmüşkən, Astara çayı, düyüsü də gətirib satıram, - deyir.

Bu bazarda ondan başqa da ərzaqlar - tərəvəzlər, meyvələr, quru meyvələr, ədviyyatlar satanlar var.

Bazarın bir tərəfində ağaclar, gül kolları satılır. Payızda və yazda burda daha çox satılan tinglər və tərəvəz şitilləri olur.

Bazarın geniş bir hissəsində isə göyərçinlər, tutuquşular, ördəklər, qazlar, hinduşkalar, dovşanlar, döyüşkən xoruzlar, kirpilər satılır. Əvvəlcə göyərçinlərin qiymətini öyrənirik. Ramiz və Məhəmməd adlı satıcılar bu bazara alver etməyə 6 ildir gəldiklərini söyləyirlər. Ramiz göyərçinlərin qiymətinin 3 manatdan başladığını bildirir. 15-20 manata və daha baha qiymətə də göyərçinlər satılır. Bildirirlər ki, burda alıcılar hər zaman var.

Kirpilərin qiyməti ilə maraqlanırıq. Satıcı oğlan deyir ki, kirpilər 10-15 manatdır. Dovşanların qiyməti 5 manatdan başlayır. Tutuquşu 8-10 manata satılır. Danışan tutuquşuların qiyməti 50-70 manatadır. Hinduşkalar 15-manatdan 30-40 manatadək, ördək 15 manatdır. Satılan cücələrin qiyməti 70 qəpikdən başlayır. Toyuqlar 6, 10, 18, 20 manat arasındadır. Xoruzların qiyməti 17-20 manat civarındadır. Ancaq xüsusi cins xoruzların qiyməti 30 manatdan başlayır. Burda da satıcılar alverin zəif olduğundan narazılıq etmirlər.

*Artıq günortadır. Alverçilər yır-yığış etməyə başlayırlar. Bu gün də "bit bazarı"nda alver günorta bitir...*

***Zöhrə FƏRƏCOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Torpaq vətəndir

## Elə isə bu torpağı tullantı "poliqon"una çevirmək nə deməkdir?

**Biz bu torpaqların həsrətini çox çəkdik. 30 ilə yaxın düşmən işğalında qalan Qarabağın və Şərqi Zəngəzurun hər qarışı üçün, necə deyərlər, içimiz göynədi, ürəyimiz yandı.**

Çünki dünyanın ən əsrarəngiz məkanlarından olan o yerlərin təbii gözəlliklərinə işğalçılar qənim kəsilmiş, varını-yoxunu talan etmiş, "düşmən malıdır" deyib qəsdinə durmuş, nadir meşələrini qırmış, sərin sulu bulaqlarını qurutmuşlar. Bir sözlə, işğal müddətində həmin əraziləri xaraba qoyan, qurulu evləri, ölkə və dünya əhəmiyyətli abidələri dağıdan, milli sərvətləri daşıyıb aparan düşməndən təbiətimiz də çox əziyyət çəkmişdi, ziyan görmüşdü.

Həm də buna görə Qarabağın və Şərqi Zəngəzurun düşmən əsarətindən qurtulması ən böyük nisgilimiz, müqəddəs arzumuz idi. Bu yolda Prezident İlham Əliyev başda olmaqla bütün xalqımız əlindən gələni etdi. 4 il əvvəl başlayan Vətən savaşında Azərbaycanın minlərlə igid övladı canından keçib şəhid oldu, yaralandı.

Nə bəxtəvərik ki, bu gün azad Şuşanı, Laçını, Kəlbəcəri, Qubadlını, Cəbrayılı, Zəngilanı və işğaldan azad edilmiş digər yerlərimizi gedib ziyarət edə bilirik. Bunun üçün dövlətimiz çox böyük işlər həyata keçirib, bizim üçün hər cür şərait yaradıb.

Amma nə edəsən ki, ziyarətçilər bəzən bu müqəddəs ərazilərə vətənin qanla yoğrulmuş bir parçası kimi münasibət göstərmirlər. Bu günlər sosial şəbəkələrdə qısa bir video paylaşılıb. Kadrlarda Laçına gedən yolun üstündəki bulağın ətrafında zibillik göstərilir, bunun ilk növbədə şəhidlərimizin ruhuna qarşı hörmətsizlik olduğu vurğulanır. Düz sözə nə deyəsən?! Biz niyə üstünə zibil atdığımız torpağın Vətən olduğunu unuduruq. O Vətən ki, onun uğrunda minlərlə gənc qanını tökərək şəhid olub. Şəhid olublar ki, müqəddəs torpaqlarımızı erməni quldurlarından, separatçılarından təmizləsinlər. Bəs indi həmin torpaqları tullantılardan təmizləməyə ehtiyacın yaranması bizim üçün ayıb, utanc deyilmi?

Bu əməli törədənlərdən kimsə bəlkə də özünə haqq qazandırmağa çalışa bilər ki, ətrafda zibil qabları qoyulmayıb. Doğrudur, nəinki videoda əksini tapan ərazidə, hətta iri şəhərlərdə belə çox yerlərdə zibil qabları yoxdur. Bu, kommunal işçilərinin fəaliyyətsizliyidir. Amma həmin fəaliyyətsizlik də heç kimə haqq vermir ki, tullantını hara gəldi atsın. Bu yerdə, sanitar mədəniyyəti, vətəndaş məsuliyyəti olduqca vacib şərtdir. Odur ki, gəlin bunu unutmayaq, xüsusən də Qarabağ və Şərqi Zəngəzur kimi müqəddəs yerləri ziyarət etdiyimiz zaman.

***Z.FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycan Sankt-Peterburqda keçiriləcək kinofestivalda təmsil olunacaq

**Avqustun 23-dən 27-dək Sankt-Peterburqda Rusiya və MDB ölkələrinin V Beynəlxalq Film Festivalı - "Lendoc Film Festival" (LEFF) keçiriləcək.**

AZƏRTAC tədbirin təşkilatçılarına istinadla xəbər verir ki, festival beş ildir ki, "Lendok" kinostudiyası tərəfindən "Kinokultura" cəmiyyəti ilə birgə keçirilir və bu il də Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi, Prezident Administrasiyası, Mədəniyyət Təşəbbüsləri Fondu və Sankt-Peterburq Mədəniyyət Komitəsinin dəstəyi ilə təşkil olunur.

Son illərdə LEFF Sankt-Peterburqun mərkəzi tədbirlərindən birinə çevrilib, Rusiya ilə dost ölkələr arasında mədəni əlaqələrin möhkəmləndirilməsinə və MDB ölkələrinin kino xadimlərinin yaradıcı qüvvələrinin konsolidasiyasına yönəlib. Festivalın qonaqları arasında Azərbaycan, Belarus, Gürcüstan, İraq, Hindistan, İran, İtaliya, Qazaxıstan, Qırğızıstan, Serbiya, Tacikistan və Özbəkistan nümayəndələrinin olacağı gözlənilir.

Avqustun 27-də federal kanalların, rəqəmsal platformaların, film yayımı şirkətlərinin rəhbərləri, həmçinin MDB ölkələrinin dövlət kino müəssisələrinin başçılarının daxil olduqları münsiflər heyəti birgə istehsal layihələrinin pitçinqini keçirəcək. Pitçinqin aparıcısı Rəqəmsal Televiziya ASC-nin kino kanallarının direktoru İvan Kudryavtsev olacaq.

Festivalın üç müsabiqə proqramında - bədii, qeyri-bədii və "Lendocstart" tələbə filmləri müsabiqəsində münsiflər heyəti və tamaşaçılar bir sıra dünya və Rusiya premyeraları da daxil olmaqla 36 filmi qiymətləndirəcək. Nümayişlər "Lendok" kinostudiyasında, "Aurora", "Dom Kino" və "Rodina" kinoteatrlarında, "Lenfilm" kino mərkəzində və "Kapella"da baş tutacaq.

"Lendocstart" tələbə filmləri müsabiqəsi bu il ilk dəfə keçirilir və altı bədii və səkkiz sənədli filmə bölünən iki bloka 14 ekran əsəri daxildir.

# Ürəkləri fəth edən səs

**Bəşəriyyət tarixində elə şəxsiyyətlər var ki, sağlığında olduğu kimi, əbədiyyətə qovuşduqdan sonra da ölümsüzlük qazanır, adları ehtiramla yad edilir. Çünki həmin şəxsiyyətlər yaradıcılıqları ilə nəinki xalqına, bütün bəşəriyyətə xidmət edirlər.**



AZƏRTAC xəbər verir ki, belə ölməz, parlaq şəxsiyyətlərdən biri də anadan olmasının 82-ci ildönümü nəinki doğulduğu Azərbaycanda, həm də dünyanın bir çox yerlərində qeyd edilən SSRİ-nin və Azərbaycanın Xalq artisti Müslüm Maqomayevdir.

On dörd yaşında doğma şəhəri Bakıda dənizçilər klubunda çıxış edən Müslüm Maqomayev ilk uğurunu 1962-ci ildə qazanıb. Maestro Niyazinin tövsiyəsi ilə tələbə və gənclərin Helsinkidə keçirilən VIII Ümumdünya Festivalına yollanan Müslüm oradan medalla qayıdıb. Bu münasibətlə populyar "Oqonyok" jurnalı onun portretini və "Bakılı gənc dünyanı fəth edir" sərlövhəli məqalə dərc edib.

Müslüm Maqomayev XX əsrin 60-cı illərində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olub, Milanın dünyaşöhrətli "La Skala" teatrında təcrübə keçib.

Ötən əsrin 60-70-ci illərində Müslüm Maqomayevin məşhurluğunun həddi-hüdudu yox idi. Konsert salonlarındakı yerlər azlıq etdiyindən o, stadionlarda minlərlə dinləyici qarşısında çıxış edir, daim qastrol səfərlərində olurdu. Mahnıları yazılan vallar çox böyük tirajla buraxılırdı. Məhz buna görə də onu sovet estradasının son yarım əsrdəki ən parlaq ulduzu, kralı, rəmzi adlandırırlar. Keçmiş SSRİ-də klassik opera ariyalarını estradaya məhz Müslüm Maqomayev gətirib. Təsadüfi deyil ki, o, 31 yaşında SSRİ Xalq artisti fəxri adına layiq görülüb.

Dünyaşöhrətli müğənninin repertuarında 600-dək əsər var. O, həm də gözəl mahnılar müəllifidir. Müslüm Maqomayevin ecazkar səslə ifa etdiyi mahnıların sırasında dahi Üzeyir Hacıbəylinin Nizami Gəncəvinin qəzəllərinə bəstələdiyi "Sənsiz" və "Sevgili canan" romanslarının xüsusi yeri var. Ona görə ki, burada üç dahi sənətkarımızın - şair, bəstəkar və müğənninin ruhu görüşür. Onu da etiraf etmək yerinə düşər ki, bu romanslar Müslümə qədər korifey sənətkarların ifasında səslənib. Amma o, bu romanslara elə çalarlar, elə bənzərsiz intonasiyalar gətirdi, elə sevgi ilə yanaşdı ki, onları fərqləndirməyi, özününküləşdirməyi bacardı, fəlsəfi yüksəkliyə qaldırdı.

Onun Xalq şairi Nəbi Xəzrinin sözlərinə bəstələdiyi və dillər əzbəri olan, vətənimizin himni kimi əzəmətli səslənən "Azərbaycan" mahnısı da ölkəmizə ithaf olunmuş ən gözəl əsərlərdəndir. Müğənni həm də "Oxuyur Müslüm Maqomayev", "Nizami", "Moskva notlarda" filmlərində çəkilib.

Müslüm Maqomayev çoxşaxəli sənətkar idi. Belə geniş diapazonu, ürəkləri fəth edən həm lirik, həm də güclü səsə çox az rast gəlinir. Müslüm Maqomayev ifa etdiyi hər mahnıda, ariyada yeni bir dünya, öz dünyasını yaradırdı.

Azərbaycan xalqının zəngin musiqi ənənələrinin qorunub saxlanılmasında və müasir dövrdə layiqincə inkişaf etdirilməsində Müslüm Maqomayevin yaratdığı və rəhbərlik etdiyi Azərbaycan Dövlət estrada-simfonik orkestri mühüm rol oynayıb. Orkestrin rəngarəng proqramlarında M.Maqomayev əsl sənətkara xas əzmkarlıqla hər bir ifasını bir aktyorun teatrı səviyyəsinə qaldırmağa nail olub.

M.Maqomayevin milli musiqi mədəniyyətimizin inkişafı sahəsində mühüm nailiyyətləri yüksək qiymətləndirilib və o, müstəqil Azərbaycanın ali mükafatları - "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif edilib. Ecazkar səsi ilə dünyanı fəth edən Müslüm Maqomayevin 70 illik yubileyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə silsilə tədbirlərlə qeyd olunub.

Onun yoxluğunun acısını daha çox hiss edən sənətkarın ömür-gün yoldaşı, SSRİ Xalq artisti, məşhur opera müğənnisi Tamara Sinyavskaya deyir: "Müslüm Maqomayevi yığcam, qısa fikirlərlə təsvir etmək çətindir. O, böyük insan idi. Həyatımın müxtəlif illəri onunla birgə keçmişdir. Fikirlərini mənimlə bölüşərdi. O anlar mənim üçün unudulmaz olduğu qədər də əlçatmazdır. Müslüm Maqomayev ad gününü böyük salonlarda, hay-küylü keçirməyi xoşlamazdı. Ancaq dostlarının əhatəsində qeyd edərdi. Hədiyyələri bir o qədər də sevməzdi. Ad günündə onun haqqında gözəl sözlər deyərdilər. Mən bunların şahidi olmuşam. Müslüm Maqomayev bütün dövrlərin musiqiçisidir və ikinci belə bir sənətkar dünyaya gəlməyəcəkdir".

Dünyaya göz açdığı 17 avqustu Azərbaycan təqvimində əlamətdar günə çevirən ölməz Müslüm Maqomayev qəlblərdə elə bir sənət abidəsi ucaldıb ki, onu sevənlərin sayı heç zaman azalmayacaq.


**OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN" qəzetinə**

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Aİ ölkələri gender bərabərliyi tələblərinə məhəl qoymur

## Avropa komissarı vəzifəsinə namizədlərin cəmi 29 faizi qadındır

**Ursula fon den Lyayenin sədrlik etdiyi Avropa İttifaqı Komissarlar Kollegiyasına üzv olmaq üçün mübarizə aparan namizədlərin siyahısında kişilər üstünlük təşkil edir. Belə ki, 17 ölkədən yalnız beşi Avropa komissarı vəzifəsinə qadın namizəd irəli sürüb.**

Bu o deməkdir ki, bu günə qədər namizədlərin yalnız 29 faizi qadınlardır. Yaranmış vəziyyət, ikinci prezidentlik müddətində gender bərabərliyini təmin etməyə çalışan fon der Lyayen üçün böyük probleme çevrilib.

Kollegiya Aİ icra hakimiyyətinin işinə rəhbərlik edən kabinetdir. O, blokun 27 üzv ölkəsinin hər birini təmsil edən komissarlardan ibarətdir.

Almaniyanı təmsil edən Ursula fon der Lyayen balanslaşdırılmış bir heyət təyin etməkdə ona sərbəstlik verilməsi üçün paytaxtlardan iki namizəd - bir kişi və bir qadın irəli sürülməsini istəyib. Lakin hələ heç bir üzv dövlət bu tələbə əməl etməyib.

"Mən Avropa öhdəliklərini bölüşən ən yaxşı ixtisaslı namizədləri seçmək istəyirəm. Mən yenə də çalışacağam ki, kollegiya masası arxasında kişi və qadın bərabər sayda olsun", - o, iyulda yenidən seçildikdən sonra Avropa Parlamentinin Strasburqda keçirilən plenar iclasında deyib.

Aİ ölkələrinin hökumətləri avqustun 30-dək namizədlərinin adlarını fon der Lyayenə göndərməlidirlər. Zəruri müsahibələrdən sonra o, sentyabr və oktyabr aylarında Avropa Parlamentinin müvafiq



komitələrində təyin olunması üçün namizədlər arasında siyasi portfelləri bölüşdürməlidir.

Qeyd edək ki, Ursula fon der Lyayen Avropa Komissiyasının sədri və Estoniyanın keçmiş Baş naziri Kayya Kallas Aİnin xarici siyasət rəhbəri və komissiyanın vitse-prezidentlərindən biri seçildikdən sonra, icra hakimiyyətində ən prestijli postları artıq qadınlar tutub.

Digər üç qadın namizəd Xorvatiya, İspaniya və İsveçi təmsil edir. Xorvatiyanın hazırkı komissarı Dubravka Şuytsanı yeni müddətə, İspaniya Ətraf Mühit naziri Tereza Riberanı, İsveç isə Aİ İşləri Naziri Cessika Rosvallın namizədliyini irəli sürüb.

Bununla belə, qalan komissar vəzifələri üçün yarışda kişilər üstünlük təşkil edirlər. Namizədliklərini hələ elan etməyən doqquz üzv ölkədə qadın namizədlərin sayının az olduğu bildirilir.

Aİ diplomatları deyirlər ki, Danimarkanın inkişaf əməkdaşlığı və qlobal iqlim siyasəti üzrə naziri Dan Yorgensen favoritdir. Onun namizədliyi Baş nazir Mette Frederiksen tərəfindən irəli sürüləcək.

Keçmiş regional inkişaf naziri Migel Poyares Maduro da Portuqaliya üçün namizəd kimi nəzərdən keçirilir. Bu arada Lüksemburq hökuməti iki namizəd arasında seçim edə bilmir - bunlar hazırkı komissar, sosialist Nikolas Şmit və hakim sağ mərkəzçi partiyadan olan Avropa Parlamentinin deputatı Kristof Hansendir.

Hələ qərar verməmiş və ya seçimlərini gizli saxlayan qalan altı ölkədə - Belçika, Bolqarıstan, İtaliya, Kipr, Litva və Rumıniyada bir neçə qadın namizədin irəli sürülməsi gözlənilir.

Ursula fon der Lyayen Aİ-nin icra orqanına rəhbərlik edən ilk qadındır və o, ikinci müddətində əməkhaqqı və pensiya ödənişlərində gender fərqini aradan qaldırmaq və qadınlara qarşı zorakılıqla mübarizə aparmaq üçün "Qadın hüquqları üçün yol xəritəsi" hazırlayacağını vəd edib. Lakin komandasını tarazlaya bilməsə, onun qadın hüquqlarının müdafiəçisi kimi nüfuzu risk altında olacaq.

Keçmiş Avropa Komissiyasının tərkibi bu günə qədər ən bərabər tərkibli idi: 14 kişi və 13 qadın. 2014-2019-cu illər arasında keçmiş sədr Jan-Klod Yunkerin kabinetinin yalnız üçdəbirini qadınlar təşkil edirdi.

Bununla belə, fon der Lyayenin hər iki cinsi təmsil edən iki namizəd tələbi qanunla təsbit olunmayıb, ona görə də o, Aİ liderlərinin xoş niyyətinə arxalanır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Abşeron çimərliklərində dəniz suyunun temperaturu 25-27 dərəcə isti olacaq

**Azərbaycanda avqustun 18-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Gündüz havanın qısa müddətə tutulacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 28-33° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 762 millimetr civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 40-45 faiz təşkil edəcək.

Avqustun 18-də Abşeron çimərliklərində şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada 25-26° isti, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 26-27° isti olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 28-33° isti, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz saatlarında bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-23° isti, gündüz 31-36° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 11-16°, gündüz 19-24°, bəzi yerlərdə 26-28° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 9-14°, gündüz 18-23° isti, bəzi yerlərdə 25-28° isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 27-32° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-20°, gündüz 26-31° isti, dağlarda gecə 10-15°, gündüz 20-25° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 19-24° isti, gündüz 28-33° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-21° isti, gündüz 25-30° isti, dağlarda gecə 15-17° isti, gündüz 20-23° isti olacağı gözlənilir.

# Azərbaycan Milli Xalça Muzeyinə XIX əsrə aid "Açma-yumma" xalçası hədiyyə edilib




**Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyası növbəti unikal sənət nümunəsi ilə zənginləşib.**

Almaniyanın Berlin şəhərində yaşayan, "İşiq yol" Azərbaycan Ədəbiyyat və Mədəniyyət Cəmiyyətinin üzvü olan kolleksiyaçı Hocat Abasi muzeyə 1825-ci ildə Şuşada toxunan Qarabağın "Açma-yumma" xalçasını hədiyyə edib. Muzeydən AZƏRTAC-a verilən məlumata görə, xalçanın ara sahəsi, haşiyələri həndəsi, nəbati naxışlar stilizə olunmuş insan və heyvan təsvirləri ilə bəzədilib.

Hocat Abasi vətənindən ayrı düşən bu nəfis əsərin yaxın zamanda öz doğma yurduna qayıdacağını, muzeyin Şuşa filialında sərgilənəcəyini düşündükcə böyük sevinc və xoşbəxtlik hissi yaşadığını bildirib.

**32 saylı Suraxanı üçüncü seçki dairəsinin 9 saylı məntəqə seçki komissiyasının möhürü itdiyi üçün etibarsız sayılır.**

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3959
Sifariş 1814

Qiyməti 60 qəpik